Bu bir xalq qəzetidi
ƏDALƏT

# 15 SENTYABR - BAKININ İŞĞALDAN AZAD OLDUĞU GÜNDÜR

**Bu gün Bakının işğaldan azad olunduğu gündür. 102 il bundan əvvəl Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq onu işğaldan azad edib. Bununla Azərbaycanın müstəqilliyi təmin olunaraq ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlarda ağalığına son qoyulub. Bu tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Gəncə şəhərindən Bakıya köçürülüb.**

XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən olan 15 sentyabr-Bakının işğaldan azad edilməsi ilə dövlət quruculuğunun əsas mərhələsinə start verilib.

Bu tarixi hadisə Türkiyə-Azərbaycan qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan bir qələbədir.

Onu da qeyd edək ki, məhz bu tarixdə keçirilən hərbi əməliyyatlarda Osmanlı qoşunlarından 1130 şəhid olub.

Şəhidlərimizi dərin hörmətlə anır, onları ehtiramla yad edirik.

## Distant təhsillə bağlı müəllimlər kurslara cəlb olunacaq



**Təhsil naziri Emin Əmrullayev 2020-2021-ci tədris ilində ümumi təhsillə bağlı aktual məsələlər və hədəflər barədə əmr imzalayıb.**

Təhsil Nazirliyindən Adalet.az-a verilən məlumata görə, əmrdə qeyd edilib ki, 2019-2020-ci tədris ilinin 2-ci yarımilinə dair bütün siniflər üzrə proqram materiallarının şagirdlər tərəfindən mənimsənilməsi vəziyyətinin diaqnostik qiymətləndirmə vasitəsilə öyrənilməsi və bununla da çatışmazlıqların yeni tədris ilində intensiv tədris yolu ilə aradan qaldırılması əsas məsələlərdəndir. Bundan başqa, koronavirus (COVİD-19) pandemiyası ilə bağlı mövcud vəziyyəti və zəruri ehtiyacları nəzərə alaraq distant (məsafədən) təhsilin təşkili ilə bağlı məktəb rəhbərləri və müəllimlərin kurslara cəlbi nəzərdə tutulur.

Əsas hədəflər sırasına məsafədən öyrətmə və öyrənmənin metodikasının geniş təbliği, ümumi təhsil müəssisəsində sosial davranış qaydalarının təşviqi, xarici dillərin tədrisinin səviyyəsinin yüksəldilməsi, eləcə də "Rəqəmsal bacarıqlar" və "STEAM" pilot layihələrin icrası ilə bağlı məsələlər də daxildir. Eyni zamanda, təhsil müəssisələrində sanitar-epidemioloji vəziyyətin nəzarətdə saxlanılması, mütəmadi dezinfeksiya işlərinin aparılması aktual məsələlər sırasında yer alır.

## Metronun yeni stansiyasına Polad Həşimovun adı veriləcək?

**Metronun tikilməkdə olan yeni stansiyasının şəhid general Polad Həşimovun adına olacağı ilə bağlı məlumatlar dəqiq deyil.**

**Adalet.az-ın məlumatına görə, bunu "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib. O bildirib ki, sosial şəbəkələrdə metronun hansısa stansiyasına general Polad Həşimovun adının verilməsi ilə bağlı yayılan videolar həqiqəti əks etdirmir: "Bu barədə yayılan video "Bakı Metropoliteni" QSC tərəfindən hazırlanmayıb və xəbərimiz yoxdur.**

**Sözügedən videogörüntülər kim tərəfindən hazırlanıb, bilmirik. Lakin bu gün belə bir məsələ gündəmdə deyil. Metropolitenin stansiyaların adlandırılması ilə bağlı məsələyə Nazirlər Kabineti baxır. Bu istiqamətdə rəsmi, dəqiq məlumat olarsa, ictimaiyyətə məlumat verilər".**

## Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzun Əlibəyli kəndini atəşə tutub



**Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhədə vəziyyəti yenidən gərginləşdirməyə cəhd edir.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, sentyabrın 13-də axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuz rayonunun Əlibəyli kəndini atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri tərəfindən dərhal həyata keçirilən cavab tədbirləri nəticəsində düşmən susdurulub, itki yoxdur.

## BU MİLLƏT ALLAHIN MÖCÜZƏSİDİ



**Şair Qürbət Əzizin bu adlı bir satirik şeiri var. Orda millətimizin "möcüzə"lərindən yazır.**

Mənim fikrimcə, bu "möcüzə"lərdən biri də Mirzə Cəlili, Sabiri, Üzeyir Hacıbəyovu, Əbdürrəhim bəy Haqverdiyevi , Seyfəddin Dağlını, Rüfət Əhmədzadəni, Anarı , Baba Pünhanı yetişdirən bir xalqda yumor hissinin zəif olmasıdı.

Baxıram, bir nəfər status yazaraq təklif edib ki, "eşşək" sözündəki "ş"ların birini ixtisar edək. İndi sosial şəbəkənin müzakirə mövzusu olub, hamı düşüb həmin şəxsin üstünə. Və statusdakı ironiyanı, sarkazmı doğrudanmı hiss etməyiblər?

**Bir Cem Yılmazımız olsa, yəqin ki yazığı daşa basardılar.**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 126 (5786) 15 sentyabr 2020-ci il
Qiyməti 30 qəpik

## GÖRƏK ALLAH NƏ QƏDƏR GÜCLÜDÜR?

**Sentyabrın 15-də əslən azərbaycanlı (Türkiyə vətəndaşlığını qəbul edib) türkiyəli iş adamı, öz xeyirxahlığı və insanlığı ilə az qala bütün Turan ölkələrində şöhrət qazanmış Mübariz Mənsimovun məhkəməsi başlayır. Demək istəyirik ki, Allah qapısını açsın. Amma əstəğfürullah, bilmirəm ki, Allahın onu tutduranlara gücü çatacaqmı?**



# Dərs ili başladı



**Təhsil Nazirliyi yeni tədris ilinin ilk günündə şagirdlərin məktəbə hansı formada gedəcəyi məsələsinə aydınlıq gətirib.**

**Nazirlikdən Trend-in sorğusuna cavab olaraq bildirilib ki, ümumi təhsil müəssisələrində dərs məşğələləri I-IV siniflərdə sentyabrın 15-dən əyani və distant (məsafədən) keçiriləcək.**

**Lakin bu gün bütün ibtidai sinif şagirdlərinin məktəbə getməsinə ehtiyac yoxdur. Şagirlər məktəb rəhbərliyinin müəyyən etdiyi dərs cədvəli əsasında, növbəlilik prinsipi ilə məktəbə gedəcəklər:**

**”Bununla bağlı artıq məktəb rəhbərliyi valideynləri məlumatlandırıb. Valideynlər bu cədvələ uyğun uşaqlarını müəyyən edilmiş günlərdə məktəbə göndərməlidirlər. Bu, eyni zamanda 1-ci sinif şagirdlərinə də aiddir. Sabah bütün 1-ci sinif şagirdlərinin məktəbə gəlməsinə ehtiyac yoxdur”.**

**Xatırladaq ki, Nazirlər Kabinetinin Qərarına uyğun olaraq, Təhsil Nazirliyi tərəfindən ”Xüsusi karantin rejimi dövründə təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə” tədris planları təsdiq olunub.**

**Təhsil nazirinin müvafiq əmrinə əsasən, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrinin fəaliyyəti əyani olaraq həftədə 2 dəfə, digər şəhər və rayonlarda isə əyani formada həftədə 3 dəfə təşkil olunacaq.**

**Ümumi təhsil müəssisələrində dərs məşğələləri I-IV siniflərdə sentyabrın 15-dən əyani və distant (məsafədən), V-IX siniflərdə sentyabrın 15-dən distant, oktyabrın 1-dən əyani və distant (məsafədən), X-XI siniflərdə sentyabrın 15-dən distant, oktyabrın 15-dən əyani və distant (məsafədən) formalarda başlayır.**

## BƏYANAT VERMƏKLƏ DONUZ DARIDAN ÇIXMAZ



**Paşinyan vurhavur Livan ermənilərini təkcə Dağlıq Qarabağ ərazilərində deyil, ümumiyyətlə, bütün Qarabağ ərazisində yerləşdirir. Hamısına da dəm-dəstgahlı ev, maşın və maddi yardım göstərir.**

Bizlər isə ard-arda etiraz bəyanatları veririk və Ermənistana "vurma, txe" deyən dünya dövlətlərinə səslənirik.

ATƏT-in həmsədrləri də toy gecəsi qız çıxmamış gəlinlər kimi susub oturublar bir küncdə.

Qarabağın işğaldan azad olunmasının bir yolu da ATƏT-i bir də Azərbaycana buraxmamaqdan keçir. Bu gün də Tofiq Yaqublunun aclığının gərək ki, 15-ci günüydü.

## EHTİYATLI OLUN - ÖLƏNLƏRİN SAYI 7 MİNƏ ÇATDI



**Qardaş Türkiyədə COVİD -19-la bağlı yumşalmalara gediləndən sonra virus yenidən tüğyan edir. Gün ərzində yoluxanların sayı 1700-ə çatıb. Bu günədək isə ölənlərin sayı 7000-ə çatıb.**

Bu bizə dərs olmalıdır. Bizdə də bir çox qadağalar ləğv edilib, bir çox qadağalarda isə yumşalmalar var. Ehtiyatlı olmalıyıq, özümüzü, ailəmizi və millətimizi qorumalıyıq. Əgər yenidən sərt karantin rejimi tətbiq edilərsə, bu həm dövlətimizə, həm də xalqımıza çox baha-başa gələ bilər.

## SOVET HÖKUMƏTİNİN YAPMADIĞINI PAŞİNYAN YAPDI



**Hələ 70-ci ildə Cıdır düzü ilə Topxana arasında asma körpü salınması planlaşdırılmışdı, hətta layihələşdirilmişdi də. Layihənin də şəkilləri Şuşanı bəzəyirdi. Ermənilər necə qurub-qoşdularsa, həmin layihə həyata keçirilmədi.**

Bu günlərdə Paşinyan gəldi Şuşaya və Cıdır düzü ilə Topxana arasındakı asma körpünün açılışını etdi, sonra da həmin körpüdən keçib Topxanadakı məşhur Armud ağacının altında əshabələri ilə yeyib-içdi.

Bu asma körpünün dünyanın bütün ölkələrindən Şuşaya nə qədər turist cəlb edəcəyinin fərqindəsinizmi?

## Jurnalistlər üçün onlayn formatda üçüncü təlim keçirilib

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİVDF) tərəfindən jurnalistlər üçün xarici təlimçilərin iştirakı ilə onlayn formatda təlimlərin üçüncüsü baş tutmuşdur.**

Adalet.az-ın məlumatına görə, ”Müasir jurnalistika: rəqəmsal texnologiyalarla birlikdə dəyişən yeni dövrün jurnalistikası” mövzusunda reallaşan onlayn təlim Türkiyənin tanınmış media təlimçisi - ”TRT”, ”Kanal D”, ”Star TV” televiziya kanalları, habelə bir sıra digər qabaqcıl informasiya agentliklərində zəngin təcrübəyə malik jurnalist Bora Balar tərəfindən təqdim olunmuşdur.

Təlimdə müasir jurnalistikanın tələblərindən bəhs olunmuş, yeni dövrün jurnalistikasında rəqəmsal texnologiyalardan düzgün və yerində istifadə qaydaları barədə məlumat verilmişdir. Həmçinin müasir jurnalistikada sosial şəbəkələrin funksiyaları, informasiyanın yayılmasının izlənilməsi, innovasiya texnologiyalarından sərbəst istifadə metodları nümayiş etdirilmişdir. Daha sonra adıçəkilən mövzu üzrə media nümayəndələrinin sualları cavablandırılmışdır.

**Qeyd edək ki, KİVDF tərəfindən təşkil olunan təlimdə televiziya, radio, onlayn media, qəzet və jurnalları təmsil edən 25-dən çox jurnalist iştirak etmişdir. Respublikanın regionlarında da fəaliyyət göstərən media nümayəndələrinin qatıldığı onlayn təlimlərə sabah yekun vurulacaqdır.**

## ÜST-dən Avropa ilə bağlı proqnoz: Ölüm halları artacaq



*Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) payız aylarında Avropada koronavirusdan ölüm sayının artacağını proqnozlaşdırır.*

*Adalet.az-ın məlumatına görə, bunu ÜST-ün Avropa regional bürosunun direktoru Hans Klüge deyib.*

*O, yaxın aylarda pandemiya ilə vəziyyətin çətinləşəcəyini deyib: "Oktyabrda, noyabrda ölümlülük göstəricilərinin artması gözlənilir".*

*Qeyd edək ki, ÜST son sutkada bütün dünyada rekord yoluxmanın qeydə alındığını bildirib. Məlumata əsasən, ötən gün 308 minə yaxın yoluxma qeydə alınıb.*

*Ümumilikdə, bütün dünyada yoluxanların sayı isə 29 milyon nəfəri keçib.*

## EH, HARDADI O KÖHNƏ GÜNLƏR



**Çox güldüm. Oxudum ki, Təhsil Nazirliyimiz müəllimlərə gül gətirməyi qadağan edib. Heç demə, gülü alan müəllimlər korrupsiyaya qurşanırlar.**

Əziz balalar, narahat olmayın. Sizlər sizi adam edəcək müəllimlər üçün onsuz da gülsünüz, özü də heç zaman solmayan gül. Tədris ilinin başlaması ilə əlaqədar bizləri adam eləmiş və balalarımızı adam edəcək bütün müəllimləri ürəkdən təbrik edirik! Qoy həmişə günəş olsun, müəllimlərimiz də günəş kimi parlasın!

## Parisdə Qarabağla bağlı bəyanat yayıldı



**Dünən Paris şəhərində ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa), Endrü Şofer (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Andjey Kasprşik arasında Dağlıq Qarabağ münaqişəsinin həllinə dair növbəti məsləhətləşmələr keçirilib.**

Bu barədə həmsədrlərin yaydığı bəyanatda qeyd olunub. Həmsədrlər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hazırkı vəziyyəti müzakirə ediblər. Həmsədrlər həm Azərbaycan, həm də Ermənistan xarici işlər nazirləri ilə ayrı-ayrılıqda telefon danışığı aparıblar. Yaxın həftələrdə həmsədrlərin iştirakı ilə nazirlər arasında görüşün keçirilməsi təklif olunub.

## Oxucuların nəzərinə!

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***

## 76 nəfər koronavirusa yoluxdu, 104 nəfər sağaldı,




**Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 76 yoluxma faktı qeydə alınıb, 104 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 38 403 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 35 860 nəfər müalicə olunaraq sağalıb, 564 nəfər vəfat edib. Aktiv xəstə sayı 1979 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 3 630, bu günə qədər isə ümumilikdə 1 013 108 test icra olunub.

## KİV: "İran Süleymaninin ölümünə cavab olaraq ABŞ səfirinə sui-qəsd hazırlayır"

**İran rəhbərliyi İslam İnqilabı Keşikçiləri Korpusunun "Əl-Qüds" xüsusi təyinatlı qüvvələrinin komandanı Qasım Süleymaninin öldürülməsinə cavab olaraq ABŞ-ın Cənubi Afrika Respublikasındakı səfiri Lana Marksa sui-qəsd təşkil edilməsi imkanlarını nəzərdən keçirir.**

Bu barədə "Politico" qəzeti ABŞ xüsusi xidmət orqanlarına istinadən məlumat yayıb.

Nəşr qeyd edir ki, ABŞ kəşfiyyatı hələ yaz aylarından səfirin həyatına qarşı təhlükənin olduğunu bilir, lakin son bir neçə həftədə hazırlanan hücumla bağlı daha konkret məlumatlar ortaya çıxıb.

ABŞ hakimiyyətinin iddiasına görə, diplomatın öldürülməsi ilə bağlı sövdələşmədə İranın Cənubi Afrika Respublikasındakı səfirliyinin də əli ola bilər.

Bununla belə, ABŞ xüsusi xidmət orqanları hədəf olaraq nə üçün Lana Marksın seçildiyini tam şəkildə bilmirlər. Lakin bunda Lana Marksın Donald Trampla dost olmasının böyük rolu olduğu istisna edilmir.

## GÜNÜN LƏTİFƏSİ

Sovet vaxtıdı, bir yəhudini KQB-yə satırlar ki, valyuta alveri ilə məşğuldu. KQB itli-pişikli tökülür yəhudinin mənzilinə, nə qədər axtarırlar heç nə tapmırlar, başlayırlar parketləri sökməyə. Ordan da heç nə tapmırlar və görürlər ki, böyük bir qayka var.

Deyirlər, aha, burda nəsə gizlədib. Başlayırlar qaykanı açmağa. Qayka açılanda böyük bir deşik yaranır, aşağıdan gur işıq vurur yuxarı, bərk tappıltı və səs-küy eşidilir.

Keqebeşnik:

**- Aha, bu nədi?**

Yəhudi:

**- Heç, mənzilimin altındakı konsert zalının lüstrünün qaykasını açdınız.**

# Prezident açılışlar etdi



**”Sumqayıt Kimya Sənaye Parkı” Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində Peşə Təhsil Mərkəzinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.**

Dövlətimizin başçısı mərkəzdə yaradılan şəraitlə tanış olub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və ”Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin direktoru Nazim Talıbov Prezident İlham Əliyevə Təhsil Mərkəzi barədə məlumat veriblər.

Bildirilib ki, Peşə Təhsil Mərkəzinin binası 500 tələbənin təhsil alması üçün nəzərdə tutulub. Mərkəzin binası 6 korpusdan ibarətdir. Korpuslarda 23 tədris otağı, 13 laboratoriya, 154 nəfərlik akt zalı, 184 nəfərlik yeməkxana, kitabxana, kompüter otağı, idman zalı və 24 inzibati otaq var.

Hazırda Peşə Təhsil Mərkəzinə 2020/2021-ci tədris ili üzrə torna və frezer dəzgahlarının, proqramla idarə olunan dəzgahların operatorları, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, sənayedə quraşdırma işləri üzrə usta, veb-dizayner və proqram təminatçısı ixtisasları üzrə tələbə qəbulu həyata keçirilir.

Mərkəzin təhsil proqramı beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb. Tədris prosesinə Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinin mütəxəssisləri cəlb olunub. Tələbələrin ixtisas fənləri üzrə dərslərinin 80 faizi Sumqayıt Kimya Sənaye Parkının müəssisələrində keçiriləcək. Həmçinin praktiki dərslərin təşkili məqsədilə mərkəzdə təlim avadanlıqları stendləri quraşdırılıb.

Qeyd edək ki, sənayeləşmə Prezident İlham Əliyevin iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Əsas məqsəd tələbatın ödənilməsində yerli məhsulların payının artırılması, ixrac potensialının yüksəldilməsi, ümumilikdə neft-qaz amilindən asılılığın daha da azaldılmasıdır. Bu strategiyanın uğurlarını Sumqayıt Kimya Sənaye Parkının timsalında real rəqəmləri əks etdirən statistikada görmək olar. Belə ki, 2019-cu ilin birinci yarım ili ərzində burada 258 milyon manatlıq məhsul istehsal edilmişdisə, 2020-ci ilin müvafiq dövründə 2 dəfə çox - 534 milyon manatlıq məhsul buraxılıb. İxrac isə 2019-cu ilin ilk 6 ayındakı rəqəmlə (121 milyon manat) müqayisədə 1,5 dəfə artaraq 2020-ci ilin birinci yarısında 182 milyon manat təşkil edib.

***

**Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində Murtuza Muxtarov adına park istifadəyə verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev parkın açılışında iştirak edib.

Dövlətimizin başçısı məşhur neft milyonçusu və görkəmli mesenat Murtuza Muxtarovun parkdakı büstünün önünə gül dəstəsi qoyub.

Azərbaycan Prezidentinə parkda görülən işlər və yaradılan şərait barədə məlumat verilib.

Bildirilib ki, qəsəbənin Cabir Əliyev küçəsində yerləşən keçmiş ”7 Qoç” parkı 1992-ci ildə salınıb. Uzun illər parkın ərazisində heç bir təmir işləri görülməyib. Qəsəbə sakinlərinin müraciəti nəzərə alınaraq parka əslən Əmircandan olan, XIX əsrdə ilk qazma avadanlığı zavodu açan və qazma dəzgahı ixtira edən xeyriyyəçi Murtuza Muxtarovun adı verilib, burada onun büstü qoyulub.

Heydər Əliyev Fondunun dəstəyi ilə iki ay ərzində burada genişmiqyaslı abadlıq işləri aparılıb, gözəl və müasir park yaradılıb.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində Milli Qəhrəman Albert Aqarunovun adını daşıyan 154 nömrəli məktəbin yeni binasının açılışında iştirak edib.**

Dövlətimizin başçısı Milli Qəhrəman, cəsur tankçı Albert Aqarunovun məktəbin həyətindəki büstünün önünə gül dəstəsi qoyub.

Məktəbdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə bu təhsil ocağı haqqında məlumat verilib.

Bildirilib ki, məktəbin əvvəlki binası 1936-cı ildə inşa edilmişdi. Məktəbin 460 şagird yerlik binasında 22 sinif otağı var idi. Məktəbin binası yararsız vəziyyətdə olduğundan sökülərək yerində 58 sinif otağından ibarət 960 şagird yerlik müasir bina inşa olunub və yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək.

Məktəbdə tikinti işləri 2019-cu ilin aprelində başlayıb və bu ilin avqust ayında başa çatdırılıb. Yeni binada sinif otaqları ilə yanaşı, kimya, fizika laboratoriyaları, informatika kabineti, kitabxana, bufet və idman zalı var. Yeni təhsil ocağında şagirdlərin təlim-tərbiyəsi ilə 52 nəfərdən ibarət pedaqoji heyət məşğul olacaq. Sinif otaqları və laboratoriyalar müasir zəruri avadanlıqlarla təchiz olunub. Məktəbin həyətində geniş abadlıq işləri aparılıb.

Qeyd edək ki, bu təhsil ocağının şərəfli həyat yolu hər bir məktəbli üçün nümunə olan Albert Aqarunovun adını daşıması gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi işində mühüm rola malikdir.

# Ərdoğan: Türkiyə-Azərbaycan dostluğu əbədidir

**Sentyabrın 12-də Milli Məclisin Sədri Sahibə Qafarova İstanbulda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.**

Milli Məclisdən Adalet.az-a verilən məlumata görə, Türkiyə prezidentinə görüş imkanı üçün təşəkkür edən **Milli Məclisin Sədri Sahibə Qafarova** Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını Türkiyənin dövlət başçısına çatdırdı.

Milli Məclisin Sədri bildirdi ki, Azərbaycan və Türkiyə bütün taleyüklü məsələlərdə bir-birini dəstəkləyir və bir-birinə arxalanırlar. Ermənistanın iyulun 12-də Tovuz rayonu istiqamətində törətdiyi təxribatla bağlı şəxsən Sizin, xarici işlər naziri cənab Mövlud Çavuşoğlunun, Milli müdafiə naziri cənab Hulusi Akarın bəyanatları Azərbaycan xalqı tərəfindən çox böyük təqdirlə qarşılandı. Biz qardaş Türkiyənin dəstəyini hər zaman hiss etmişik və bu dəstəyin birmənalı şəkildə ifadə olunmasına görə Sizə və Türkiyə hökumətinin üzvlərinə dərindən təşəkkür edirik.

Sahibə Qafarova bildirdi ki, ”Bölgədə baş verən hadisələrin Türkiyə üçün doğurduğu təhdidlər ciddidir, biz bunu görürük. Bununla belə, Türkiyə dövlətinin, ən əsası isə Zati-alinizin bu təhdidlərə qarşı qətiyyətli mövqeyiniz Azərbaycan ictimaiyyəti tərəfindən də təqdir olunur. Suriya, İraq, Liviya, Qaradəniz, Aralıq dənizi və Egey dənizində vermiş olduğunuz mücadilə Türk xalqının haqlı maraqlarını



qorumaq üçün verilən milli mücadələdir. Biz bunun fərqindəyik. Bir neçə gün əvvəl Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edərkən də dediyi kimi, biz Azərbaycan olaraq bu haqlı mübarizəsində qardaş Türkiyənin yanındayıq və nə olursa olsun, qardaş Türkiyə Cümhuriyyətini dəstəkləyəcəyik. Çünki Türkiyə sadəcə bizim strateji tərəfdaşımız deyil, qardaş dövlətimizdir. Azərbaycan və Türkiyə Cümhuriyyətlərinin liderləri olaraq cənab İlham Əliyevlə Sizin aranızda mövcud olan səmimi dostluq və qardaşlıq ölkələrimiz arasında da olan münasibətlərə və dəstəyə əlavə təkan verir”.

Milli Məclisin Sədri Qara dənizdə kəşf edilən təbii qaz yatağı ilə bağlı Prezident Rəcəb Tayyib Ərdoğanı təbrik etdi və bunun qardaş ölkənin enerji ehtiyaclarının təmin olunmasında mühüm rolunu vurğuladı.

Öz növbəsində **Prezident Rəcəb Tayyib Ərdoğan** yeni seçilmiş parlamentə uğurlar arzuladı. Türkiyənin dövlət başçısı Onun salamlarını və ən xoş arzularını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırmağı xahiş etdi. Bildirdi ki, Türkiyə və Azərbaycan iki qardaş ölkələrdir. Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Ölkələrimiz beynəlxalq platformalarda daim eyni mövqedən çıxış edir, taleyüklü məsələlərdə bir-birilərini dəstəkləyirlər. Bu günlərdə Prezident İlham Əliyevin Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən söylədiyi sözlər buna bariz nümunədir. Buna görə başda Prezident İlham Əliyev olmaqla bütün qardaş Azərbaycan xalqına bir daha təşəkkürümüzü bildiririk.

Prezident Ərdoğan Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu və bundan sonra da hər zaman belə olacağını diqqətə çatdırdı.

**İki ölkənin bölgədə birgə həyata keçirdikləri iqtisadi layihələrə toxunan Rəcəb Tayyib Ərdoğan bildirdi ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars layihələri strateji əməkdaşlığımızın bir parçasıdır. Prezident iki qardaş ölkənin parlamentləri arasındakı münasibətlərdən də məmnunluğunu ifadə etdi. Beynəlxalq təşkilatlarda Azərbaycan və Türkiyə parlamentarilərinin birlikdə və çiyin-çiyinə fəaliyyət göstərməsi üçün geniş imkanların olduğunu diqqətə çatdırdı.**

**Nicat Novruzoğlu**

## *DYP yeni dərs ilinin başlaması ilə bağlı hərəkət iştirakçılarına müraciət edib*

***Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsi yeni dərs ilinin başlaması ilə əlaqədar hərəkət iştirakçılarına müraciət edib.***

***İdarənin ictimaiyyətlə əlaqələr şöbəsindən Adalet.az-a daxil olan müraciətdə bildirilib ki, yeni dərs ilinin başlanması ilə əlaqədar sentyabrın 15-də orta təhsil müəssisələrinin yerləşdiyi küçə və yollarda, xüsusilə də paytaxt ərazisində nəqliyyat vasitələrinin və piyadaların hərəkət intensivliyinin artacağı ehtimal olunur.***

***Bunu nəzərə alaraq, DİN Baş Dövlət Yol Polisi İdarəsi hərəkət iştirakçılarından xahiş edir ki, şagirdləri məktəbə aparan valideynlər küçə və yollarda təhlükəsiz hərəkət qaydalarına, övladlarını məktəbə avtomobillərlə aparan sürücülər həmin ərazidəki dayanma, durma və parklanma qaydalarına, ictimai nəqliyyat vasitələrindən istifadə edən valideynlər isə tövsiyə olunan sosial məsafəni saxlamaqla tənəffüs yollarını qoruyan tibbi maskalardan istifadə qaydalarına ciddi riayət etsinlər.***

***"Ümid edirik ki, azyaşlıların təhlükəsizliklərinin təmin olunması, paytaxtda nəqliyyat sıxlığının yaranmaması, digər hərəkət iştirakçılarının rahat və fasiləsiz hərəkətinin təmin olunması üçün hər bir hərəkət iştirakçısı müraciətimizə düşünülmüş şəkildə yanaşacaq və üzərinə düşən vəzifəni yerinə yetirməklə ilk dərs günündə azyaşlı məktəblilərə yollarda çətinlik yaşatmayacaq, eləcə də polisin gördüyü tədbirlərə yardımçı olmaqla koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınmasında vətəndaşlıq mövqeyini nümayiş etdirəcək", - deyə müraciətdə qeyd olunub.***

## Polad Bülbüloğlu rusiyalı yazıçıya "Dostluq" ordenini təqdim edib



**Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Beynəlxalq Uşaq Fondları Assosiasiyasının prezidenti, Rusiya Uşaq Fondunun sədri, yazıçı Albert Lixanova ”Dostluq” ordenini təqdim edib.**

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında humanitar əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə Albert Lixanov ”Dostluq” ordeni ilə təltif edilib.

AZƏRTAC xəbər verir ki, P.Bülbüloğlu yazıçını 85 illik yubileyi münasibətilə təbrik edib və Azərbaycan dövlətinin başçısının təbrik məktubunu oxuyub. Məktubda qeyd edildiyi kimi, artıq otuz ildən çoxdur ki, Rusiya Uşaq Fondu A.Lixanovun rəhbərliyi ilə ailə institutunun və ailə dəyərlərinin möhkəmləndirilməsinə, uşaq hüquqlarının müdafiəsinə, çətin vəziyyətə düşmüş uşaqların dəstəklənməsinə yönəlmiş mühüm iş aparır.

Məktubda deyilir: ”Azərbaycan xalqının görkəmli oğlu Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsinə, binəsib uşaqların müdafiəsi kimi nəcib işə onun sanballı töhfəsinə, onunla birgə apardığınız, Sovet Uşaq Fondunun yaradılması ilə nəticələnmiş işə sizin qayğıkeş münasibətinizi Azərbaycanda yüksək qiymətləndirirlər”.

Sonra P.Bülbüloğlu akademik A.Lixanovun ”Dostluq” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamını oxuyub. Diplomat ordeni təqdim edərək deyib:

”Sizin töhfəniz olduqca böyükdür. Bu barədə çox danışır, çox yazırlar.

Siz həqiqətən barənizdə deyilənlərin hamısına layiqsiniz. Sizin insani mahiyyətiniz, insanlara münasibətiniz, hər hansı mühüm tədbirdə iştirakınız həmişə bizim hamımız üçün böyük bayramdır. Mən bu tədbirdə iştirak edən hər kəsə, təbii ki, özümə də arzulamaq istərdim ki, biz Albert Anatolyeviçin 100 illiyini bu zalda qeyd edək və mən səfir qismində onu Azərbaycanın növbəti ordeni ilə təltif edim”.

A.Lixanov ümummilli lider Heydər Əliyev barədə xatirələrini bölüşüb:

”Bizi Heydər Əliyev ilə çoxillik dostluq telləri bağlayırdı. 1984-cü ildə mənim Sovet İttifaqında valideynlərini itirmiş uşaqların vəziyyəti barədə məktubum dəstəkləndi. Bu məsələ ilə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev məşğul olurdu.

Biz onunla görüşdük, SSRİ-də valideynlərini itirmiş uşaqların vəziyyəti barədə xeyli danışdıq, yeni sənəd hazırladıq.

1985-ci ildə çox mühüm qərar qəbul edildi və indiyədək bu qərar qüvvədədir. Sənəddə valideynlərini itirmiş uşaqlara yeni münasibət müəyyən edilmişdi. O dövrdə belə uşaqların sayı bir milyonu keçirdi”.

Albert Lixanov qeyd edib ki, Heydər Əliyev ilə onun dostluğu ümummilli lider Azərbaycana qayıtdıqdan sonra da uzun illər davam edib:

”Mən ideyalarıma xoş münasibət göstərdiyinə görə daim ona minnətdar olmuşam. Bu, bütün Sovet İttifaqındakı uşaqlara əsl dövlət münasibəti idi. Qərar qəbul olundu, iş yerinə yetirildi. Mən onun xatirəsi qarşısında baş əyirəm, ruhu şad olsun”.

# Səməd Seyidov hesabat verdi

**Dünən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi payız sessiyasında ilk iclasına toplaşıb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən Adalet.az -a verilən məlumata görə, komitənin sədri Səməd Seyidov Milli Məclisin payız sessiyasının başlanması münasibətilə deputatları təbrik edib, VI çağırış dövründə parlamentdə aparılan islahatları təqdir edib.

Milli Məclisin Sədri xanım Sahibə Qafarovanın ilk rəsmi səfərinin başa çatdığını bildirib. Vurğulayıb ki, xanım Spiker Azərbaycanda mövcud olan ənənəyə əsasən, ilk rəsmi səfərinə Türkiyədən başlayıb. Sahibə Qafarovanın qardaş ölkənin Prezidenti R.T.Ərdoğanla, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopla, nazirlərlə və bir sıra digər rəsmilərlə görüşləri göstərib ki, Azərbaycan-Türkiyə əlaqələri ən yüksək müstəvidədir.

Sonra iclasda gündəlik barədə məlumat verən Səməd Seyidov öncə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2020-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində gördüyü işlər barədə hesabatı təqdim edib. Bildirib ki, hesabat dövründə komitənin 6 iclası keçirilib, 22 məsələyə baxılıb, onlardan 20-si Milli Məclisin müzakirəsinə tövsiyə olunub. Həmin məsələlər arasında qardaş Türkiyə ilə, Bolqarıstan, İtaliya, Türkmənistan və digər ölkələrlə müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsinə xidmət edən sazişləri xüsusi qeyd etmək olar.

Səməd Seyidov qeyd edib ki, sessiyalar dövründə komitə üzvləri parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində böyük fəallıqla çalışıblar. Baş verən ictimai-siyasi proseslərlə, iyul ayında Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti təxribatla əlaqədar həm ölkə mətbuatında, həm xarici mətbuatda hadisələrin mahiyyətini açıb göstərən məqalələrlə çıxış ediblər. Sosial şəbəkələrdə mühüm məlumatlar yerləşdiriblər; beynəlxalq təşkilatlarla, xarici ölkələrin parlamentarları ilə zəruri yazışmalar apararaq Tovuz rayonundakı sərhəddə ermənilərin təxribatçı hücumlarının əsl mahiyyətini açıqlayıblar. Təsadüfi deyil ki, yaz və növbədənkənar sessiyalar dövründə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinə 2 min 429 müraciət daxil olub və bunların hamısı cavablandırılıb. Pandemiya şəraitinə baxmayaraq komitə üzvləri seçicilərlə müntəzəm əlaqə saxlayıb, görüşlər keçiriblər. COVİD-19-la əlaqədar yaranmış vəziyyətdə yerlərə səfər edərək daim seçicilərin yanında olub, maarifləndirmə işləri aparıb, lazımi köməklik göstəriblər.

Məlumat dinlənildikdən sonra deputatlar hesabatı məqbul sayıblar və komitənin 2020-ci ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planını təsdiqləyiblər. Sonra komitə sədri "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əqli mülkiyyət obyektlərinə hüquqların qorunması sahəsində gömrük orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Sazişin təsdiq edilməsi barədə" qanun layihəsini şərh edib. Deputatlar bu qanun layihəsini də plenar iclasa tövsiyə ediblər.

Komitənin iclasında cari məsələlərə baxılıb. Aparılan fikir mübadiləsində komitənin sədr müavini Sevinc Fətəliyeva, deputatlar Asim Mollazadə, Elman Nəsirov, Kamran Bayramov, Rasim Musabəyov, Sabir Rüstəmxanlı, Sevil Mikayılova, Tural Gəncəliyev, Nəsib Məhəməliyev, Ramil Həsən, Ramin Məmmədov, Sahib Alıyev beynəlxalq təşkilatlarla münasibətlərin daha səmərəli qurulması, xaricdə yaşayan azərbaycanlılarla daha sıx əlaqələrin yaradılması, Ermənistanın işğalçılıq niyyətlərinin və əməllərinin beynəlxalq miqyasda ifşa olunması, Livan ermənilərinin qeyri-qanuni olaraq Dağlıq Qarabağa köçürülməsnin və məskunlaşmasının qarşısının alınması və s. aktual məsələlərə dair rəy və təkliflərini bildiriblər.

**İclasın gündəliyində baxılan məsələlər Milli Məclisin plenar iclasına tövsiyə olunub.**

**Nicat**

## *Çavuşoğludan Lavrova cavab*



***Cənubi Kipr Türkiyə ilə deyil, Şimali Kiprlə danışıqlar aparacaq səviyyədə bir ölkədir.***

***Bunu Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu NTV-yə açıqlamasında deyib.***

***"Rusiya istəyirsə, Şimali Kiprlə Cənubi Kipr arasında vasitəçilik etsin. Lavrova daha əvvəl də demişdim. Vasitəçilik etmək istəyirsinizsə, adanın türk tərəfinə keçib onları da dinləyəcəksiniz", - Çavuşoğlu bildirib.***

***Qeyd edək ki, Rusiya Xarici İşlər naziri Sergey Lavrov Cənubi Kiprə səfəri zamanı "Əgər istəsələr, Türkiyə ilə Cənubi Kipr arasında vasitəçilik etməyə hazırıq" açıqlamasını verib.***

**MEHRİBAN**

## BDU-nun vəzifəli şəxsi tələbənin ölümünə görə hakim qarşısına çıxarıldı

**Yasamal Rayon Məhkəməsində səhlənkarlıq nəticəsində Bakı Dövlət Universitetinin (BDU) iki tələbəsinin zəhərlənməsinə, bir tələbənin isə ölümünə səbəb olmaqda təqsirləndirilən Pərvaz Əsgərovun cinayət işi üzrə hazırlıq iclası keçirilib.**



”Report”un xəbərinə görə, hakim Günel Ələkbərlinin sədrlik etdiyi iclasda anket məlumatları dəqiqləşdirilib.

Baxış iclası sentyabrın 25-nə təyin edilib.

Qeyd edək ki, hadisə ötən il noyabrın 21-də Bakı Dövlət Universitetinin (BDU) 2 saylı yataqxanasında baş verib.

Universitetin tələbələri - 1999-cu il təvəllüdlü Şəkər Xasmətova zəhərlənərək vəfat edib, 1998-ci il təvəllüdlü Dilrubə Quliyeva və Həmidə İbadova isə zəhərlənərək həyat üçün təhlükəli olan vəziyyətə düşüblər.

Faktla bağlı Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanmaqla Baş Prokurorluğun İstintaq İdarəsində istintaq aparılıb.

İstintaqla yataqxananın komendantı və tələbə şəhərciyinin direktoru vəzifəsini icra edən Pərvaz Əsgərovun işinə və xidməti vəzifəsinə vicdansız və laqeyd münasibət bəsləyib vəzifəsini yerinə yetirməyərək yataqxananın birinci mərtəbəsində yerləşən ümumi hamam otağında özbaşına axar su qızdırıcılarının və onlara birləşdirilmiş tüstü bacalarının düzgün quraşdırılmasını, onlara müvafiq texniki xidmət göstərilməsini təmin etməyərək ehtiyatsızlıqdan iki nəfərin ağır zərər vurmaya aid xəsarət almalarına, bir nəfərin isə ölümünə səbəb olmasına əsaslı şübhələr müəyyən edilib.

**Pərvaz Əsgərov Cinayət Məcəlləsinin 314.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunub, ona ittiham elan edilib və barəsində başqa yerə getməmək haqqında iltizam növündə qətimkan tədbiri seçilib.**

# Aqil Abbas: "Aqrotexniki qaydada narkotik əkənlərin arxasında güclü qüvvələr var"

**Ölkənin kriminal xronikasını izləmək kifayətdir ki, hər gün ölkədə nə qədər adamın həyətində narkotik bitkilər əkdiyi üçün həbsə girdiyi aydın olsun. Bu gedişlə cəzaçəkmə yerləri narkobağbanlıqla məşğul olanlarla dolacaq. Dövlət aqrar sahədə əkin-biçini təbliğ edib, bu sahəyə milyonlarla sərmayə ayırır, amma kartof-soğanın yerinə narkotik tərkibli bitkilər əkənlərin sayı çoxalır. Bunun səbəbi nədir? Asan qazanc yoxsa tələbat?**

Daxili işlər orqanlarının əməkdaşları kultivasiya yolu ilə yetişdirilən narkotik tərkibli bitkilərin aşkarlanması və bu qanunsuz fəaliyyətlə məşğul olan şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb olunmaları istiqamətində tədbirləri fasiləsiz həyata keçirirlər. Hər gün cinayət xronikasında bu qəbildən olan xəbərlərin bolluğu diqqət çəkir. Baş Narkotiklərlə Mübarizə İdarəsinin Qərb Bölgəsində Regional Şöbəsi əməkdaşları Yevlax şəhər sakini, əvvəllər məhkum olunmuş S.Cabbarova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 9 çətənə kolu aşkar edərək götürüb.

Sabirabad Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini G.Əsgərova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 19 ədəd çətənə kolu aşkarlanıb. Lənkəran Şəhər Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində isə şəhər sakini R.Əliyevə məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 13 ədəd çətənə kolu götürülüb.

Narkotik tərkibli bitkiləri aqrotexniki qaydada qulluq edərək yetişdirən şəxs Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. Baş İdarənin əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında keçirdikləri tədbir zamanı Abşeron rayonu, Qobu qəsəbəsi sakini Elşən Muxtarov tutulub.

Onun üzərində şəxsi axtarış aparılan zaman 15 qram narkotik vasitə qurudulmuş marixuana aşkar edilib.

Elşən Muxtarovun Qobu qəsəbəsindəki evinə baxış zamanı əlavə olaraq 2 kiloqram 800 qram qurudulmuş marixuana və həyətində kultivasiya yolu ilə yetişdirdiyi yaş halda çəkisi 9 kiloqram yaxın olan 8 ədəd çətənə kolu aşkar olunaraq götürülüb. Saxlanılan şəxs ifadəsində narkotik tərkibli bitkiləri satmaq məqsədi ilə əkdiyini bildirib.

Ağstafa Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolları aşkar edilərək götürülüb.

Ağstafa RPŞ əməkdaşları daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayonun Göycəli kənd sakini 36 yaşlı Vaqif Mehdiyevə məxsus evin həyətyanı sahəsində xüsusi aqrotexniki qaydada qulluq edilmiş narkotik



xassəli çətənə - kannabis bitkiləri aşkarlanaraq götürülüb. Həyətyanı sahəyə baxış zamanı oradan 30 ədəd ümumi çəkisi 5.675 kq olan çətənə kolu aşkar olunub. Vaqif Rafiq oğlu Mehdiyev Mədəniyyət Nazirliyinin Ağstafa Rayon Mədəniyyət Evinin direktorudur. Daxili İşlər Nazirliyi Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin hazırladığı və 2020-ci ilin 1-ci yarımilini əhatə edən təhlildə narkotiklərlə bağlı bəndə diqqət edək.

**Sitat:**

"Transmilli mütəşəkkil cinayətlərdən olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri də səmərəli olmaqla, əsas diqqət qeyri-leqal dövriyyədən daha böyük çəkidə narkotik vasitələrin çıxarılmasına yönəlib. Nəticədə narkotiklərlə əlaqədar müəyyən edilmiş 2785 (+475), o cümlədən onların satışı ilə bağlı 913 (+206) fakt üzrə cinayətkarlardan ötən ilin 6 ayı ilə müqayisədə 256,5 kiloqram çox, bütövlükdə 1 ton 67 kiloqram narkotik vasitə götürülüb. Həmçinin ümumi çəkisi 91 tona yaxın olan çətənə və xaş-xaş kolu aşkarlanaraq yaşıl kütlə halında məhv edilib. Bu növ cinayətləri törətmiş 1840 nəfərdən 1226-sı (66,6%) əmək qabiliyyətli işləməyən və oxumayan, 541-i (29,4%) əvvəllər cinayət törətmiş şəxs, 36-sı (2%) qadınlardır".

Göründüyü kimi narkotik becərilməsi halları artıb.

**Milli Məclisin üzvü Aqil Abbas "Yeni Müsavat" deyib ki, narkotiklərlə bağlı mübarizə aparılır. Dövlət aqrar sahəyə ildən-ilə diqqəti artırır:**

"Dövlət taxıl əkininə, digər əkinlərə subsidiyalar verir. Amma xüsusi və müəyyən insanlar var ki, bundan başqa cür istifadə edir, narkotikləri əkib-becərirlər. Hüquq mühafizə orqanları bununla məşğul olur, yeri gəldikcə, zaman-zaman üzə çıxarır və cəzalandırır. Belə adamlar cəzalandırılmalıdır. Hər gün narkotik əkənlərin cəzalandırılması haqda məlumatlar verilir. Bununla belə narkotik əkini davam edir".

Deputat bunun səbəbini belə izah edir: "Bir hektar torpaqda pambıq əkib, taxıl əkib 10-12 min qazanc əldə etmək mümkündür. Amma deyək ki, kimsə 3-cə sotda narkotik əkəndə onun pulu bir az daha çoxdur. Ona görə də indi bəzi insanlar narkotik əkininə meyllənirlər. Burada əsas məsələ onlara şərait yaradanların olmasıdır. Azərbaycanda arxasında hansısa bir imkanlı adam durmasa, heç kəs qələt edib narkotik əkə bilməz. Uzaqbaşı özü üçün həyətdə 10 kol əkər. Amma aqrotexniki qaydada becərmə, yəni ona qulluq etmək sıradan bir məsələ deyil. Bizim bəlamız odur ki, həmin işləri görən, aqrotexniki qaydada narkotik becərən adamları tuturlar, amma arxasında duranları tuta bilmirlər".

**"Bunun səbəbi nədir? Yəni qanunlarda boşluq var, yoxsa digər amillər mövcuddur" sualına deputat belə cavab verib:**

"Qanunlarda boşluq yoxdur, qanunlarda var ki, həmin adamlar nəzarət altında olmalıdırlar.

Sadəcə olaraq o işlərin arxasında duran oğlanlar var. Onları tutmurlar. Məsələn, Zaqatalada əməliyyat keçirilir, aqrotexniki qaydada narkotik becərən tutulur. Onun arxasında olan isə kənarda qalır. Həmin arxada dayanan Qaxda olan başqa birinə deyir ki, durmuşam dalında, ək. O da narkoplantasiya salır. 2-3 ildən sonra onu tuturlar. Yenidən başqa rayonda narkotik əkdirir! 1 hektarda, yarım hektarda aqrotexniki qaydada narkotik becərənlər həbs olunur, şəkilləri, videoları göstərilir, cəzalarını verirlər. Bu işlərin arxasında duran adamların birinin tutulduğunu eşitmisiz? Bax o adamların axtarmalıdır hüquq mühafizə orqanları. Bu işin arxasında elə adam durur ki, gücü çatmır".

**"Belə anlaşılır ki, siz konkret informasiyaya maliksiz, yəni bildiyiniz faktlar var" sualına isə deputatın cavabı belə olub:**

"90-cı illərdə qohumum Aydın Alıyev Ağcabədi rayon Partiya Komitəsinin rəhbəri idi. "Sovet Kəndi" qəzetində işləyirdim, Ağcabədiyə ezam olunmuşdum. Qayda belə idi ki, rayona ezam olunan mətbuat nümayəndəsi 1-ci katiblə görüşüb gəlişinin səbəbi haqda məlumat verməli idi. Aydın müəllim iş yerində yox idi, ona görə də getdim Aydın müəllimi axtarmağa. Dedilər ki, Aydın müəllim vertolyotla ərazini gəzir. Yaşıl ərazi görüb və vertolyotu endirib baxıb ki, narkotik plantasiyasıdır. Tez polisi çağırır, traktorlar gətizdirib, ərazini dağıdır. Mən də ora çatanda traktorlar işləyirdi. Aydın müəllimə dedim ki, iki-üç aydan sonra səni bu rayondan qovacaqlar. Sənin burda işin bitdi. Səbəbini soruşdu. Dedim, burda narkotik plantasiyası saldıran oğlanlar var, çox güclüdürlər. Sən bu rayonda işləyə bilməyəcəksən, çünki sən iki hektar narkotik sahəsini dağıtdın, məhv etdin. Əkən adamı tutdular. 2 ay sonra həmin adamı buraxdılar. Ən dəhşətlisi odur ki, Aydın müəllimi işdən çıxarandan sonra həmin adamı gətirib 3 gün icra başçısı da elədilər. Həmin adam özü ağıllı çıxmışdı, demişdi ki, məndən icra başçısı olmaz, özü çıxıb getmişdi işinin dalınca. Bu gün də həmin adamlar sağdır. Aydın Alıyev qeyrətli insan idi, belə şeylərə qarşı mübariz insan idi. Aqrotexniki qaydada narkotik əkənlərin arxasında güclü qüvvələr var".

**Deputat deyir ki, bu gün də durum fərqli deyil: "Hələ də narkoplantasiya becərənlərə himayədarlıq edən qüvvələr var və onlar güclüdürlər. Mübarizə həmin qüvvələrlə aparılmasa, bu yöndə köklü dəyişikliklər baş verməyəcək".**

**E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

İlham İsmayıl

# Bir gün Zaman, ya da Amerika prezidenti bizi də yaxalayacaq...



*Dövlətlərarası və ya millətlərarası konfliktlərin həllinin zaman məsafəsi uzandıqca hadisələrin əvvəlki gərginliyi tədricən aşağı düşür. Birinci şərt odur ki, nəsil dəyişimi baş verir, dövləti idarə edənlər də dəyişir və konfliktə artıq yeni yanaşma prinsipləri formalaşmağa başlayır. Ətrafdakılar da məsələni sülh yolu ilə həll etmək üçün öz mənafeləri, maraqları naminə tərəfləri sülh imzalamağa çağırır, bəzən də məcbur edir. Burda ilk razılıq verən təbii ki, konflikt boyu uduşlu çıxmış tərəf olacaq. Uduzan tərəf isə sülhə yox, faktiki təslimçiliyə razılıq verəcək. Dünya belə nümunələrlə çox olub.*

*Yaxın tarixdə az qala XVI əsrdən başlayan ingilis-irland qarşıdurması XX əsrin sonlarında demək olar ki, bir növ həll olundu və Şimali İrlandiya tərəfindən bu işə razılıq verən Olster gənclər partiyasının lideri, Şimali İrlandiyanın 1995-2005-ci illərdə ilk Baş naziri Uilyam Devid Trimbl Nobel sülh mükafatı aldı. Birləşmiş Krallıq istədiyinə çatdı, uzun müddət irland millətçiləri tərəfindən terrora məruz qalsalar da istədiklərinə nail oldular- Şimali İrlandiya Krallığın tərkibi olaraq qaldı. Sülhə razılıq verən isə tələsik Nobellə mükafatlandırıldı.*

*Gələk bu günlərimizə. Serbiya ilə Kosova arasında konfliktin tarixi Yuqoslaviya dağılandan davam edir. Kosova özünü müstəqil elan edib və 100-dən çox dövlət tərəfindən tanınıb, amma Serbiya bu ölkəni tanımır və heç bir əlaqəsi yoxdur. 4 sentyabr 2020-ci ilə qədər. Qeyd olunan tarixdə Vaşinqtonda Ağ evdə ABŞ prezidenti Donald Trampın vasitəçiliyi ilə, Serbiya prezidenti Aleksandr Vuçiç və Kosovanın Baş naziri Avdulla Xoti ölkələri arasında iqtisadi əməkdaşlığın anonsunu verən razılaşma imzaladılar və Ağ evin indiki sahibinə bu təşəbbüsünə görə təşəkkür etdilər. Məsələ bununla bitmədi. Kosovanın əhalisinin böyük hissəsi müsəlmanlardır. Kosovanın Baş nazirinə də tapşırıldı ki, İsrailli tanıyacaqsan, Yerusəlimdə diplomatik nümayəndəlik açacaqsan. Serbiya isə İsraildəki səfirliyini Tel-Əvivdən Yerusəlimə köçürəcək. Serbiya prezidenti yalnız onu deyə bilib ki, Kosova ilə siyasi fikir ayrılığı qüvvəsində qalır. Əvəzində Serbiyanın, Kosovanın, Albaniyanın, Makedoniyanın Avropa Birliyinə hazırlamaq məsələsi və Şengen zonasına qoşulacaqları da sürətlənəcək.*

*Yenə bitmədi. İsveç deputatı Maqnus Yakobson ABŞ, Serbiya, Kosova hökümətlərini 4 sentyabr sazişinə görə Nobel sülh mükafatına irəli sürüb. (bəzi namizədlərin ciddi rəqibləri meydana çıxıb).*

*Serbiyanı bu işə kim razı saldı? Amerika Birləşmiş Ştatları. İndiyədək Serbiyanı özünün Avropadakı forpostu kim hesab edirdi? Rusiya. Rusiya heç nə edə bilmədi. Ərəb ölkələrini də İsrailə qarşı qızışdıran da zaman -zaman SSRİ, sonra Rusiya olub. İndi ABŞ-ın patronajlığı ilə Birləşmiş Ərəb Əmirliyi və Bəhreyn İsraillə sülh və əməkdaşlıq müqavilələri imzalamağa hazırlaşır. Rusiya yenə heç bir maneə törədə bilmədi. Yaxın Şərq məsələsi də yavaş-yavaş həllinə yaxınlaşır.*

*Bütün bu dediklərimiz birbaşa bizim problemimizlə-Qarabağla bağlıdır. Sabah kim zəmanət verir ki, Cənubi Qafqazda sülh adı ilə ABŞ bizi ilk olaraq Stepanakertlə( məhz Stepanakertlə!) iqtisadi əlaqələri inkişaf etdirməyin zəruriliyinə məcbur etməyəcək. Deyəcək ki, fikir ayrılığınız öz yerində, amma dəmir yolunu bərpa edəcəksən, Stepanakertə neft, qaz verəcəksən, birgə müəssisələr yaradacaqsan, zatən gizli birgə müəssisə yaradanlar onsuz da var. Stepanakertlə bitməyəcək, İrəvana da yolları açmağımızı, iqtisadi əməkdaşlıq etməyimizi tələb edəcəklər. Növbəti boru kəmərinin Ermənistan ərazisindən keçə biləcəyinin məqsədəuyğunluğuna da bizi inandırmağa çalışacaqlar.*

*Əlbəttə, bu gün mövcud vəziyyət, bizə belə bir təklif olunmasını imkan vermir. Xalq Qarabağı tələb edir, illər keçsə də gərginlik məhz son aylarda daha da artıb. Bunu dünya da görür. Deməli, bizi iqtisadi əməkdaşlıq tələsinə heç bir Nobelin qarşılığında sala bilməzlər. Bu gün belədir, bəs sabah necə olacaq? Fikrimizin əvvəlində dedik ki, zaman dəyişdikcə, nəsil dəyişdikcə vəziyyətin gərginlik əmsalı da dəyişəcək və bilmirik ki, yeni nəsil və o nəslin nümayəndəsi olacaq səlahiyyətli şəxs, Devid Trimbl kimi Nobel mükafatı qarşılığında təslimçi razılaşmalara qol çəkməyəcək?*

*Ermənistan bu gün Rusiyanın forpostudur, amma Rusiyanın zəiflədiyini, daxili böhran keçirdiyini də birinci elə ermənilər bilir və Paşinyan hakimiyyətinin qərbyönümlü siyasət apardığını Rusiya hələ ki, yalnız müşayət edir. ABŞ Ermənistana təsirini getdikcə artırır və sabah qucağına alanda Serbiya ssenarisinin bizim də başımıza açılmayacağına zəmanət yoxdur. Rusiya onsuz da bizə olan siyasətini dəyişməyib və Tovuz döyüşləri bunu sübut elədi. Biz yelkənsiz qayıq kimi okeanın ortasındayıq. Ümidimiz Türkiyə ilə hərbi əlaqələri genişləndirməyədir.Təəssüf ki, burda da daxildə arabanın çarxına dəyənək uzadanlar haqqında tez-tez məlumatlar daxil olur. Türkiyəli mütəxəssisləri yaxşı qarşılamaq belə bəzilərində qısqanclıq yaradır.*

*Biz- xalq və dövlət olaraq yaranmış situasiyanı düzgün qiymətləndirməli, tezliklə düşmənə gücümüzü göstərib torpaqlarımızı azad etməliyik. Zaman birmənalı şəkildə əleyhimizə işləyir.*

Salih Bozok

# Atatürkə meydan oxuyanın həzin sonu

Yavəri danışır:

Baş komandan düşmənin caynağından qurtardığı İzmirdə keçirəcəyi ilk gecəni yaşayırdı. Zəngin bir süfrə hazırlandığı halda, yüngülvari yeməklə kifayətləndi və bütün gecəni işlədi. Ertəsi gün tezdən oyandıq. Xəfif bir səhər yeməyindən sonra vilayətə getdik. Vali ingilis səfirlə söhbət edirdi. Biz gələn kimi ayağa qalxdı və səfirlə Mustafa Kamal Paşanı tanış elədi. Səfir türkcə yaxşı bilirdi. Paşa Validən soruşdu:

**- Mövzu nədir?**

Vali izah eləməyə başladı:

**- Hörmətli səfir, ingilis vətəndaşkarla yunan və erməni azlığın təhlükəsiz şəraitdə olub-olmadığından narahatdırlar. Özlərinə hər kəsin təhlükəsizlikdə olduğunu bildirdim.**

Mustafa Kamal Paşa səfirin türkcə bildiyini bildirdi. Buna rəğmən Valiyə dedi:

**- Aha, bəs, yaxşı daha nə istəyir?**

Bu suala səfir türkcə cavab verdi:

**- Vətəndaşlarımız üçün hökümətinizdən yazılı təminart istəyirəm.**

Mustafa Kamal Paşa:

**- Yəni nə? Yunanların zamanında siz özünüzküləri daha çox təhlükəsizlikdə görürdünüz ki?**

Səfir:

**- Bəli.**

**- O zaman adamlarınızla birlikdə Yunanıstana gedin, əfəndim.**

Səfir:

**- Yəni savaşmı elan edirsiniz?**

M. Kamal Paşa:

**- Siz kiminlə nəyi danışdığınızın fərqindəsinizmi? Mən Milli Məclisin sədri və türk ordularının baş komandanıyam. Savaş açmağa da, sülhə də səlahiyyətim çatır. Bəs, siz kimsiniz? Hökümətiniz adına savaş və sülh barədə görüşməyə, danışmağa səlahiyyətiniz varmı? Varsa, danışaq. Yoxsa (əliylə qapını göstərir) buyurun çölə, əfəndim!**

Səfir Atatürkün son sözünü eşidən kimi sapsarı oldu və bir söz də demədən qapıdan çıxıb getdi.

Atatürk adamın arxasınca Valiyə tərəf çevrildi:

**- Bunlara üz verməyin, Vali bəy! Bir donanma önündə geri çəkiləcək, bir blef qarşısında yelkənləri suya salacaq bir dövlət hesab edirlər bizi. Alçaqlığın dərəcəsinə baxın. Barıt qoxan bir**



**otaqda adamın soruşduğu şeyə bax. Sanki müharibə şəraitində deyilik.**

Bir neçə saat sonra ingilis donanma komandanı hökümət evinin qapısından içəri girərək Atatürkün otağına tərəf üz qoydu. İncə, fəqət hirsli bir halı vardı. Ruşen Eşref ondan nə istədiyini soruşdu.

**- Baş komandan Atatürklə görüşmək istəyirəm.**

Birlikdə otağa getdilər, qapı bağlandı.

Amiral:

**- Çox çətin şərtlər altında müharibəni qazandınız. Sizi əsgər olaraq səmimi qəlbdən təbrik edirəm. Çanaqqaladakı qələbənizin təsadüfən olmadığını sübut etdiniz. Böyük bir əsgərlə tanış olduğum üçün məmnunam.**

Paşa bu təriflərdən bezmiş halda:

**- Bunları keçin, Amiral. Çox işimiz var. Sözünüzün canına gəlin.**

Amiral bu tövr qarşısında çaşbaş qalıb sözünə davam elədi:

**- İzmirdə bizimkilər və sizin azlıqlarınız ermənilər, yunanlar var. Yəni hərbi idarəçilik altında bu insanları statusu nədir? Təhlükəsizlikdədirlərmi?**

Paşa :

**- Heç şübhəniz olmasın, Amiral, sizinkilər və azlıqlar təhlükəsizlikdədirlər. Hökümətimiz bu təhlükəsizliyi təmin edir. Cinayət törətməyənlər özlərini təhlükəsizlikdə hiss edə bilərlər.**

Bəs, cinayət törədənlər?

Paşa:

**- Cinayətkarlar sizin də ölkənizdə olduğu kimi ədalətin hüzuruna çıxarılır. Günahı olanlar cəzalarını alır.**

**- Paşa Həzrətləri, fəqət, fövqəladə günlər keçirtmişik. Yunan ordusundan güc alan rumlar (yunanlar) bu gün yerli xalqın düşmənliyi ilə üz-üzədir. Erməniləri bilirsiniz, böyük bir toplumu köçə məcbur elədi və vacib olan qismi öldü. Bu ruh halı ilə yunan ordusu ilə iş birliyi etmiş bəzi türklərə çətin günlər yaşatmış ola bilərlər. Bunlar çətin günlərin hadisələridir, bağışlana bilərlər. Əgər bu adamlar xalqın öhdəsinə buraxılarsa, bütün dünya əleyhinizə qiyamət qoparar.**

Son cümləsinə qədər amiralı sakitcə dinləyən Atatürk "dünyanın qoparacağı qiyamət"lə təhdid edildə amiralın sözünü kəsdi:

**- Üstünlük ədanızı dərhal bir yana qoyun. Təhdid etməkdən də əl çəkin. İngiltərə və müttəfiqlərin qiyamət qoparıb-qoparmayacağını düşünmürəm. Bunlar məmləkətin daxili işləridir və sizin bu işlərə qarışmağınıza icazə verməm. Dövlətiniz bizim azlıqlara əlləşməkdən əl çəksin. Kim ki bizə sayğı göstərməz, bizdən də sayğı gözləməyə haqqı olmaz.**

Amiralın üzü ağappaq oldu:

**- İngilis hökümətinin təbəqəsini hər yerdə qorumaq haqüı dövlətlər hüququ təminatı altındadır. Avropa ölkələri ilə birlikdə arxasında durduğumuz rum və ermənilərin təhlükəsizlikdə olmağını sadəcə rica etdik. Yoxsa biz bu təhlükəsizliyi təmin edəcək gücdəyik.**

Paşa:

**- Arxasında durduğunuz yunan ordusunun dənizdə üzən cəsədlərini hər halda görmüsünüz. Ordumuz asayişi qoruyub. İzmir limanını donanmanızın üzünə bağlayıram. İstəsəniz təbəqənizi gəmilərinizə doldura bilərsiniz. Donanmanızın ən qısa zamanda limanı tərk etməsini istəyirəm.**

Sərt sözlər qarşısında amiral nə edəcəyini bilmədi:

**- İngiltərəyə savaş elan edirsiniz?**

Paşa:

**- Savaş? Siz yoxsa Sevr müqaviləzinin hələ də qüvvədə olduğunu zənn edirsiniz? Biz onu çoxdan cırıb tulladıq. Qarşımda sərbəst oturuşunuzu sizi qonaq saymağıma borclusunuz. Fəqət nəzakətimizi pis yerə istifadə etməyinizə icazə vermərəm. Bu anda hüquqən sülh müqaviləsi etməyən iki dövlətik. Savaş hüququ hələ də qüvvədədor. Gəmilərinizi dərhal geri çəkməyinizi sizə son dəfə təkrar edirəm.**

Amiral heykəl kimi donub qaldı. Sərt addımlarla girdiyi Atatürkün otağında, oturduğu kresloda büzüşdü, kiçildi və kəkələyərək dedi:

**- Bağışlayın. Yerə əyilə-əyilə geri gedə-gedə çölə çıxdı.**

İngilis və fransızlar öz adamlarını gəmilərə mindirməyə başladılar. Bir neçə saat sonra da səssizcə çıxıb getdilər.

**Dilimizə uyğunlaşdıran: Eminquey**

## İlon Mask: Bill Qeyts bu mövzuda heç nə bilmir



*Texnologiya dünyasının 2 ən böyük ismi - İlon Mask və Bill Qeyts elektrikli nəqliyyat vasitələri ilə bağlı fərqli fikirdədirlər.*

*"Maykrosoft" şirkətinin təsisçisi B.Qeyts elektriklə işləyən TIR-ların praktik metod olmayacağını iddia edib. O bildirib ki, elektriklə işləyən nəqliyyat vasitələri ancaq qısa məsafələr üçün yararlıdır. Qeytsin bu açıqlamasına "Tesla" və "SpeysX" şirkətlərinin qurucusu İlon Mask biganə qalmayıb. İ.Mask qeyd edib ki, B.Qeyts bu mövzuda heç nə bilmir.*

## Fələstindən islam aləminə şok çağırış



*Bəhreyn və Birləşmiş Ərəb Əmirliklərinin İsraillə münasibətləri normallaşdırmasına görə bir günlük milli matəm elan edilməlidir.Bu barədə Fələstin Xalq Müqavimət Komandanlığı bəyanat yayıb. Təşkilat Fələstin xalqına və islam dünyasına səslənərək matəm çağırışı edib. "Sentyabrın 18-i milli matəm elan edilməlidir və ölkənin hər yerində qara bayraqlar asılmalıdır", - bəyanatda bildirilib.*

**MEHRİBAN**

## Berlin böhranı dərinləşdirir



**"Navalnı" böhranı ilə bağlı Rusiya -Almaniya münasibətləri arzuolunmaz fazaya çatır. Çoxdandır ki, iki ölkə bir-biri ilə bu tərzdə danışmırdı.**

Əvvəllər Federal Kəşviyyat Xidmətinin vitse prezidenti vəzifəsində çalışmış, hazırda Almaniyanın Rusiyadakı səfiri fon Qayr, təmsil etdiyi hökumətin Rusiyanın əleyhinə ağır ittihamlar və ultimatumlar ünvandırdlıqlarına görə RF-nın Xarici işlər nazirliyinə çağtılıb və ona məsələ ilə bağlı rəsmi etiraz bildirilib. Hovalnı işi bəhanə edilərək, beynəlxalq arenada Rusiyanın gözdən salınması cəhdləri səfirin nəzərinə çatdırılıb.

Həmçinin , səfirə bu işlə bağlı əldə edilən sənədlərin əsassız olaraq Rusiya tərəfinə verilməməsini, açıqdan-açığa düşmənçilik mövqeyi kimi qiymətləndirildiyi bildirilib.

Bildiyimiz kimi, XX əsdə Almaniya iki dəfə Rusiya ilə ağır nəticəələrə səbəb olan müharibələr aparıb. 1914-18 və 1941-45-ci iillərdə. Münasibətlərin gərginləşdirilməsi bu ölkələr arasında üçüncü dəfə qarşıdurmaya gətirib çıxara bilər. Hələki məsələ "Şimal axını -2" -nin taleyi üzərindən qurulur. Rusiya tərəfi bununla qurtarsa, itkiləri o qədərdə çox olmaya bilər. Əks təqdirdə isə, necə deyərlər "yanğın, ölü üçün qorxulu deyil".

**Rüstəm Hacıyev**



Sercan Meriç

# İnsanla meymunun mayalanmasından yeni canlı növü

Yazar Halit Kakınç son kitabı "İnsaymun"da "İnsan 46, şimpanze 48 xromosoma sahibdir.Onların mayalanmasından yenic cins əldə etmək mümkündürmü?" sualına cavab axtarır.

Elm adamları insanla meymunu mayalandırmaq təşəbbüsünə nə vaxt başladı?

Ən ciddi ilk təşəbbüs SSRİ-də Stalinlə başlayır. Bu məsələnin həlli Qırmızı Frankşteyn Dr. İlya İvanoviçə tapşırılır. Moskva qəzetlərində bu barədə ciddi bir xə-




bər çıxır. Stalin belə deyirdi: "Yenilməz bir insan cinsi istəyirəm. Ağrını hiss etməyən. İnadcıl. Hər nə olursa, olsa problem etmədən yeyə bilən..."

Sonra?

1926-cı ildə Elmlər Akademiyası Siyasi Bürodan əmr alır: "Canlı döyüş makinaları yaradacaqsınız. Hədəf İnsaymundur." Bu işin öhdəsindən meymunla insanın mayalanmasından yaranan bir canlının gələ biləcəyi düşünülürdü. Başladılar, amma bir nəticə olmadı.

### *Bu təşəbbüslər təkcə SSRİ ilə yekunlaşır?*

Bu təşəbbüs Avropaya və ABŞ-a sıçrayır. Fransanın Lion şəhəri yaxınlığında 18 oktyabr 1713-cü ildə bir uşaq doğulur. Deyilənlərə görə, gənc qız 18 yaşında vəfat edir. Qeydlərə görə, yekə dişləri, yarıq dodaqları, uzun qolları və ayaqları, qıllı vücudu var idi. Anası isə bir meymunun baxıcısı idi. 1757-ci ildə Fransa qəzetlərinə bir xəbər çıxır. "Bir neçə il öncə meymuna bənzəyən və meymun kimi davranan 5 yaşında bir qız uşağı can verir. Danışmağı öyrənə bilmir, amma meymun kimi bağırır.

### *İnsanları meymunlarla cütləşdirmək insanlıqdan kənar əməldir?*

Biz şimpanzeyə hər nə qədər meymun desək də, elmi baxımdan şimpanze oranqutan, ya da qorilla kimi meymun deyil. Keçmiş dünya meymunları və yeni



dünya meymunaları ilə "meymunlar komandası"nın bir üzvüdürlər.

Meymun kəliməsi günümüzdə bir qrupu deyil, ortaq əcdaddan törəmə bir qrupu ifadə etməkdədir. İnsan növü yeni inkişaf edən, elmi terminlə bir primatdır. Bir meymun cinsidir və daha spesifik olaraq bir insan-meymundur.

Yeni insan zatən meymundur. Şimpanze ilə ortaq əcdadı Orrorindir.

### *İnsaymundan üçün ilk təşəbbüs Stalindən gəldi*

Sovet lideri Stalin insan ilə meymunun mayalanması üçün dr. İvanovu vəzifələndirir. O dövr üçün yüksək məbləğ sayılan 200 min dollarlıq təsisat ayırır. İvanov öncə dişi meymunları insan spermasi ilə döllendirməyi planlayır. Üç şimpanze ilə ilk sınaqlarına başlayır.

### *Modern meymunlar modern insanların əcdadları deyil*

İnsan meymun növüdürsə, digər meymun növləri niyə insan olmur sualı ən çox verilənlərdəndir.

İnsan günümüzdəki heç bir meymundan törəməyib. Bu təkamüllə keçilir. Hazırda yaşayan canlıların heç biri digərindən törəməyib. Modern cinslər bir-birindən təkamül keçməzlər. Sadəcə eyni əcdada sahibdirlər.

İnsanın yaşayan ən yaxın əmi uşaqları bonobo meymunları və şimpanzelərdir. Yaşamayan növlər arasındasa ən yaxın qohumları neandertallardır. Var olan bütün canlılar ilə insan arasındakı əlaqəyə Çarlz Darvin "Yaşam ağacı" deyib. Meymunlar niyə birbaşa insana çevrilmədi? Çünki modern meymunlar modern insanın əcdadı deyil.

Dilimizə uyğunlaşdıran:
Emin Piri

# Pandemiya dövrünə hazırlıq kursları necə hazırlaşıb?

**Yeni tədris ilində kurslar da fəaliyyətə başlayıb. Pandemiya dövründə hazırlıq kursları işlərini necə planlayır, virusdan həm şagirdlərini, həm də müəllimlərini qorumaqçün hansı tədbirləri həyata keçirir?**

**Bu barədə "Hədəf" hazırlıq kurslarının icraçı direktoru Emin Sadıqovla danışdıq.**

O, adalet.az-a verdiyi açıqlamada bildirib ki, kurs daxilində bütün dezinfeksiya tədbirlərinə əməl edilir. Müəllimlər sipərdən istifadə edir, eyni zamanda sosial məsafə saxlanılır və hazırlığa gələnlər qoruyucu maskadan istifadə edir. "12 ildir ki, Azərbaycan təhsilinə, gəncliyinə xidmət göstərənlır. Lakin buna baxmayaraq, hazırda da onlayn dərslərimiz mövcuddur.

Distant hazırlıqda fənnlər üzrə dərs saatları ənənəvi tədris forması üçün qurulan dərs cədvəlinə uyğun olaraq hazırlanır, dərslərin keyfiyyətinə nəzarət etmək məqsədi ilə filiallar tərəfindən təyin edilmiş məsul şəxslərdə dərsə qoşulur. Məsul şəxs dərslərin qrafikinin uyğun və keyfiyyətli olması, abituriyentin dərsə davamiyyətinin yoxlanılması, nizam-intizam qaydalarına riayət olunması, online dərs zamanı abituriyentlərin canlı görüntünü açıq saxlamasına nəzarət edir.

Tədris zamanı Microsoft Teams və ya Zoom proqramı üzərindən keçirilən

Hədəf Kursları MMC 2019-2020 tədris ilinə yaranmış şəraitə uyğun olaraq yekunlaşdırdı, qəbulda isə ürəyimiz istəyən nəticələri ala bildik.

Hədəf Kurslarında Yeni tədris ili üçün pandemiya şəraitinə uyğun olaraq bütün tədbirlər görülmüş, sanitar-epidemoloji qaydalara riayət edilərək filiallarımız dezinfeksiya edilmişdir.Yeni tədris ilindən başlayaraq ayda 2 dəfə tədris otaqları və kurs binasının bütün ərazisinin dezinfeksiya edilməsi planlaşdırılmışdır.



Filiallarımıza qoruyucu maskasız daxil olmaq qəti qadağandır. İşçilər və müəllimlər isə maska ilə yanaşı qoruyucu sipərlərdən də istifadə edir.

Dərslərin ənənəvi keçirilməsi şəraitində dərslər başlamadan öncə abituriyent və müəllimlərin qoruyucu maska taxması yoxlanılır və hər birinin qızdırması ölçülür. 37.1 və daha çox tempraturu olan şagird və müəllimlər evə göndərilərək dərsə buraxılmır. Zərurət yaranmayacağı halda valdieynlərin sıxlıq yaranamaması üçün binaya buraxılması qadağandır. Girişdə və hər mərtəbənin dəhlizində əllərin gigiyenası üçün dezinfeksiya məhlulları olan qablar yerləşdirilmişdir. Hava şəraiti imkan verdiyi təqdirdə sinif otaqlarında qapı və pəncərənin havalandırma şəraitini təmin etmək məqsədi ilə açıq saxlanılması nəzərdə tutulmuşdur.

Abituriyentlər arasında ən az 2 metr məsafə qorunmaqla sinif otaqlarında partalar buna uyğun olaraq yerləşdirilmişdir.

Filiallarımızda sıxlığın aradan qaldırılması üçün səhər növbəsi qrupları da açılmışdır."

Emin Sadıqovun sözlərinə görə, onlayn tədrisə də hazırdılar və indidən bu prosesə qoşulublar.

"Tədris prosesinin yalnız online şəkildə keçirilməsi zərurəti yaranarsa , Hədəf Kurslarında dərslərin təşkili Microsoft Teams və ya Zoom proqramı üzərindən keçirilməsi planlaşdırıonline dərs video görüntüləri yadda saxlanılır və ehtiyac yaranacağı halda abituriyentlərin təkrar istifadəsi üçün proqrama yüklənilməsi nəzərdə tutulur. Online dərslərdən əlavə abituriyentlərin elektron poçt ünvanlarına müəllimlər tərəfindən qısa dərs icmaları və test tapşırıqları göndəriləcəkdir. Hər ayın sonunda isə abituriyetlər üçün Microsoft Teams proqramı vasitəsilə online sinaq imtahanlarının keçirilməsi planlaşdırılır.

Bundan başqa Hazırda Kursumuz tərəfindən evdetehsil.az portalı istifadəyə verilmişdir. Evdə təhsil layihəsi istənilən təhsil forması, təlimi öz evində, iş yerində, olduğun məkanı tərk etmədən tədris ala bilmə imkanı əldə etməkdir. Bu hazırlığa qoşulmaq istəyən hər bir şagird saytda qeydiyyat bölməsini doldurmalıdır.

Evdə tədris yalnız təhsil yox həmdə sənət hazırlığı öyrənmək istəyənlər üçün yaradılmışdır.

Hazırda evdə təhsil iki konsept əsasında fəaliyyət göstərir :

Ənənəvi şəkildə -Bu zaman müəllim həmin fənn və ya sənətdən hazırlıq keçmək istəyən şagirdin evində razılaşdırılmış müddət ərzində dərs keçir.

Online şəkildə - Müəllim şagirdin kurs almaq istədiyi istiqamət üzrə online şəkildə dərs keçir.

Distant tədris zamanı hər hansı əlavə bir proqram yükləməyə ehtiyac yaranmır. Dərslər evdetehsil.az üzərindən keçirilir."

**Emin Piri**

# BNA: Sərnişin axınında azalma olsa, ekspres avtobusların fəaliyyəti dayandırılacaq

**Metroda sərnişindaşımanın bərpa olunmasına baxmayaraq, əvvəlcədən də bildirdiyimiz kimi ekspres xətlər üzrə avtobuslarla daşımalar davam etdirilir.**

Bu barədə mətbuata açıqlamasında Bakı Nəqliyyat Agentliyinin Mətbuat katibi Mais Ağayev deyib.

Onun sözlərinə görə, qərar həm mövcud epidemioloji vəziyyət, həm də sərnişinlərimizdən daxil olan çoxsaylı müraciətlər nəzərə alınaraq verilib: "Hazırda isə bu xətlər üzrə gündə-




lik xəttə çıxan avtobus sayı isə tələbata uyğun olaraq tənzimlənir.

Eyni zamanda qeyd edim ki, ekspres xətlərin sonrakı fəaliyyəti aparılan təhlillər və sərnişindaşımalara dair statistik məlumatlar əsasında müəyyən ediləcəkdir. Sərnişin axınında azalma müşahidə olunarsa bu xətlərin fəaliyyəti dayandırılacaq. Xatırladım ki, 9 may tarixində metronun fəaliyyətə başlaması ilə ekspres xətlərə tələbat tədricən 84 %-dək azaldı. Həmin vaxt ekspres xətlərin fəaliyyətinin dayandırılmasından sonra qısa vaxtda ən çox şikayət olunan 3 xətt üzrə sərnişindaşımaları "BakuBus" MMC-yə həvalə olundu. Metronun fəaliyyətinin məhdudlaşdırılması bildiyiniz kimi ekspres xətlərin bərpası zərurətini ortaya çıxardı və marşrut xətlərinin yenilənməsi prosesi müvəqqəti olaraq dayandırıldı. Lakin artıq qeyd etdiyim kimi bu istiqamətdə işlər qaldığı nöqtədən davam edəcək. Tədricən ekspres xətlərdən çıxarılacaq avtobuslar müsabiqə nəticəsində "BakuBus" MMC-yə həvalə edilən xətlər üzrə sərnişindaşımalara cəlb ediləcək. Bununla da istismara müddətini başa vuran, texniki baxımdan yarasız avtobusların bir qismi sərnişindaşımalardan kənarlaşdırılacaq".

BNA rəsmisi deyib ki, metronun fəaliyyət göstərmədiyi 6 iyul-11 sentyabr tarixlərində bildiyiniz kimi sərnişindaşımaları yalnız avtobuslarla icra olunurdu: **"Ötən 72 gündə müntəzəm və ekspres xətlər üzrə ümumilikdə 72.500.000-dən artıq sərnişin səfər sayı qeydə alınıb. Təkcə ekspres xətlər üzrə qeydə alınan sərnişin səfər sayı 3.946.209 . Avqust ayında tətbiq olunan yumşaldılmalarla gündəlik sərnişin səfər sayında ciddi artımlar müşahidə olunurdu. Ən maksimal göstərici isə 11 sentyabr tarixində qeydə alındı 2.081.661 sərnişin səfər sayı. Ötən 72 gündə digər bir maksimal göstərici gündəlik xəttə çıxan avtobusların sayı ilə bağlı oldu. Son 10 gündə artıq xəttə gündəlik 2260 avtobus çıxarılırdı. Bütün avtobus parkı tam gücü ilə daşımalara cəlb olunmuşdu. Daşımaların təşkilində Bakı Nəqliyyat Agentliyinin 150 nəfərdən artıq əməkdaşı iştirak edirdi. Ən vacib məsələ daşımaların təhlükəsizliyi ilə bağlı idi. Vaxtında görülən işlərin nəticəsidir ki, ötən müddətdə sərnişinlərimizin ciddi xəsarət alması ilə nəticələnən hər hansı bir yol nəqliyyat hadisəsi qeydə alınmayıb ki, bu da olduqca vacib məsələdir".**

Mehman Cavadoğlu

# Müstəqilliyin 30 illiyi və bizim polemikamız



*Bax, görürsən, o adamlar o tərəfə gedir, bu adamlar bu tərəfə gedir; mən bu işi başa düşmürəm. Yəqin ki, dəli olublar.*

*(Mirzə Cəlil, "Anamın kitabı")*

Ölkəmizin ötən əsrin əvvəllərində qazandığı ilk müstəqilliyi dönəmində ən böyük problemlərindən biri milli kadrların azlığıydı. Rusiya imperiyasında məcburi orta təhsilin olmaması və mentalitetimizin dünyəvi təhsilə yava baxışı nəticəsində kütləvi savadsızlıq baş alıb gedirdi. Gənc respublika təhsilə önəm verən bəzi imkanlı ailələrdən çıxmış və yaxud maarifpərvər mesenatların yardımıyla təhsil almış bir ovuc milli ziyalının ümidinə qalmışdı. Əsasən Rusiyada və Avropada oxumuş bu ziyalıların mütləq əksəriyyəti təhsil aldıqları və böyüyüb boya-başa çatdıqları siyasi coğrafiyada mövcud olan aparıcı dillərin, yəni Şərq dillərinin ən azı biriylə yanaşı, öz ana dillərini də mükəmməl bilirdilər. Buna baxmayaraq milli kadr qıtlığı o səviyyədəydi ki, ana dilini yaxşı bilməmək elə də böyük qəbahət sayılmır, məsələn, öz dilində səlis danışmağa çətinlik çəkən Səmədağa Mehmandarov kimi peşəkarlar qınaq obyektinə çevrilmirdilər.

İkinci müstəqillik dövrünə qədəm basmağa hazırlaşdığımız dövrdəsə cəmiyyətdə savadlı kadr problemi deyə bir əndişə yox idi. Sovetin gətirdiyi məcburi orta təhsil, çoxsaylı ali və orta ixtisas məktəbləri bu problemi ən azından kəmiyyət baxımından həll etmişdi. İmperiyanın neft paytaxtına çevrilməsi ucbatından beynəlmiləl şəhərə dönmüş Bakının milli tərkibi də bu dəfə artıq öz əyalətlərimizdən axışanların hesabına xeyli dəyişmiş, yerli xalq itirilmiş üstün mövqeyini bərpa eləmişdi. Ancaq bütün bu müsbət tendensiyalara rəğmən bu xalq hələ də öz paytaxtında "ikinci sort vətəndaş" kimi yaşamaqda davam eləyirdi. Görünür, "ikinci sort vətəndaş" epiteti vaxtilə alnımıza necə həkk olunubsa indinin özünə kimi ondan yaxa qurtara bilmirik. Həmin vaxt bizi öz ölkəmizdə "ikinci sorta" çevirən əsas amil mövcud qanunların ziddinə olaraq rus dilinin şəhərdəki hakim mövqeyini qoruyub saxlamasıyla bağlıydısa, bu gün sosial səbəblərdən qaynaqlanır. Vaxtilə Bakının beynəlmiləlləşməsinin kökündə də neft amilinin həlledici rol oynadğını nəzərə alsaq, hər iki halda günahkar istisinə qızınmadığımız, tüstüsünə kor olduğumuz neftdir - fəxrlə şəninə nəğmələr qoşduğumuz, adına dastanlar bağladığımız Qara qızıl!

Ötən əsrin sonlarında başlayan xalq hərəkatının ilk dönəmlərindən, Azərbaycan hələ müstəqilliyini əldə etməmişdən rus dili məsələsi sanki təbii şəkildə öz həllini tapmışdı. Rayonları demirəm, rayonlarda ana dilində təhsil həmişə, elə bu günün özündə də mütləq üstünlüyünü qoruyub saxlayıb. Söhbət Bakıda da milli məktəblərin dəbə minməsindən, ön plana keçməsindən gedir. Mən ailələr tanıyıram ki, həmin illərdə hətta yuxarı sinifdə oxuyan uşaqlarını belə rus bölməsindən çıxardıb, Azərbaycan bölməsinə keçirirdi. Bəs, bidən-birə nə baş verdi, hansı yellər əsdi ki, bir müddətdən sonra yenidən əks axın başladı və müstəqilliyimizin 30 illiyi ərəfəsində "Azərbaycan, yoxsa rus bölməsi" diskussiyası yenidən cəmiyyətin əsas müzakirə movzusuna çevrildi?

Səbəblər çoxdur, ən birinci səbəb isə heç şübhəsiz, rus bölməsindəki təhsilin keyfiyyətcə üstünlüyüdür. Bizdə hər iki bölmədə tədris aparan çoxsaylı məktəblər, bu məktəblərdə hər iki dildə dərs deyən eyni müəllimlər var. Həmin məktəblərin ayrı-ayrı bölmələrində təhsil alan, eyni dərəcədə əqli və fiziki göstəricilərə malik şagirdlərin ümumi səviyyəsini yoxlasanız bu sözlərin həqiqətdən uzaq olmadığının şahidi ola bilərsiniz. Bəli, ana dilində tədrisin səviyyəsi aşağıdır və müstəqilliyimizin yaşı artdıqca daha yüksək templə aşağı düşməkdə davam eləyir. Üstəlik, ana dilli məktəblərdəki ab-hava, davranış, pedaqoq-şagird və pedaqoq-valideyn münasibətləri, alış-verişlər, nə bilim daha nələr, insanların gözünü əməlli-başlı qırıb. Əlbəttə, rus məktəbləri də bu cür neqativlərdən xali deyil, sadəcə, hər bir problem kimi bunun da böyüyü-kiçiyi var.

İkinci əsas səbəb ölkənin idarəetmə strukturlarında hökm sürən anormal vəziyyətlə bağlıdır. Orda işə girmək, işdə irəli getmək istəyənlərin qarşısına qoyulan birinci tələb rus dilini, ikinci tələbsə ingilis və ya hər hansı xarici dili bilib-bilməməkləriylə bağlıdır. Azərbaycan dilini, yəni dövlət dilini bilib-bilməmək isə heç kimi maraqlandırmır. Elə bunun nəticəsidir ki, bu ölkədə nəinki orta səviyyəli məmurların, hətta ən yüksək vəzifələrdə çalışan rəhbər işçilərin belə Azərbaycanca danışıqları zaman-zaman mətbuatın qınaq və gülüş obyektinə çevrilir, camaatın dilində dastan olur. Özü də söhbət təkcə keçmiş baş nazir Artur Rəsizadədən və keçmiş xarici işlər naziri Elmar Məmmədyarovdan getmir. Bu yaxınlarda internetdə, yalan olmasın, on beş nəfərə yaxın yüksək çinli məmurun ana dilini necə ağlar qoyması barədə maraqlı bir süjet paylaşılmışdı. Halbuki, hansı postda əyləşməsindən asılı olmayaraq dövlət dilini mükəmməl bilmək hətta fenomenal peşəkarlığa malik istənilən vəzifəli şəxsin qarşısına qoyulan ilkin tələb olmalıdır.

Azərbaycan hələ ki, rus dilinin hakim olduğu geosiyasi və mədəni məkanda yerləşdiyi üçün həmin dili bilmək bu ölkənin vətəndaşları üçün hələ uzun müddət, yəni Rusiya regionun böyük dövləti kimi öz mahiyyətini itirdiyi dövrə kimi aktual olaraq qalacaq. Düşməndir, qoy olsun, düşmənin dilini bilməyin xeyrinin ziyanından çox olması min illərin aksiomudur. Üstəlik, qonşu ölkədə bir ordu qastarbayterlərin mövcudluğunu da nəzərdən qaçırmaq olmaz. Bu ölkə hələ də xalqımızın əsas dolanışıq subyekti kimi öz birinciliyini qoruyub saxlamaqdadır. Hərçənd, bizim əmək mühacirlərinin heç kimdə olmayan müstəsna qabiliyyətləri də var. Məsələn, mən bir dəfə Rusiyadan gələrkən rusca həqiqətən "salam-sağol" səviyyəsində anlayışı olmayan cavan bir həmyerlimizin 6 ay Volqoqradda qaldıqdan sonra bir torba pulla geri qayıtdığının şahidi olmuşam. Amma bunlar istisnalardır, üstəlik, adam həmin pulu qazanınca öz milləti haqqında nə qədər aşağılayıcı kəlmələrin işlədilməsinə bais olub, bunu bir allah bilir - özü anlamasa da.

Rus məktəblərinin guya ölkəmizdə "beşinci kolon" formalaşdıran bir məkan olduğunu söyləyənlər də yanılır, Azərbaycanın ötən əsrdəki hər iki müstəqillik mücadiləsində rusdillilərin və rustəhsillilərin oynadığı rolu, yumşaq desək, unudurlar. Vətənpərvərlik həm də mükəmməl təhsil hadisəsidir. Belə təhsilin olmadğı cəmiyyətlərdə bu hiss qıy-qışqırığa çevrilir ki, onun da ziyanı xeyrindən qat-qat çoxdur. Yeri gəlmişkən, son vaxtlar dilimizdə bitmiş bu "beşinci kolon" söhbəti stalinizm dövrünün "kim neçə dil bilirsə o qədər ölkənin cəsusudur" formullu məşhur ittihamını xatırladır. Bütün dövlətlərin əlləri çatan başqa dövlətlərdə cəsusları olub, var və bundan sonra da olacaq. Böyük dövlətlərin əlləri uzun olduqlarına görə onların cəsus şəbəkələri dünyanın hər yerində fəaliyyət göstərir. Odur ki, cəmiyyətin siyasi, sosial-mədəni problemlərini bu cür yayğın tezislərə söykənməklə cözmək olmaz.

Bu fikirləri eyniylə rus təhsilinin guya daha müasir insan yetişdirilməsinə səbəb olduğunu söyləyən əks qütbün nümayəndələrinə də şamil etmək olar. Mühafizəkar dünyagörüşünə malik adamların, eləcə də bir çox radikal təriqətlərin üzvləri arasında rustəhsillilərin xüsusi çəkisinin heç də az olmaması bunun əyani sübutudur. Bu mənzərəni görmək bizim ölkənin timsalında bir az çətin olsa da, təhsilin büsbütün rusca olduğu qonşu Dağıstan və Şimali Qafqaz muxtariyyatlarında, rusca təhsilin bizdən qat-qat geniş yayıldığı Orta Asiyanın müstəqil dövlətlərində daha aydın müşahidə etmək mümkündür.

Bir vaxtlar oxumuşlarının ana dili farsca, çox oxumuşlarının ana dili ərəbcə olan bu diyarın müxtəlif dillər arasında giriftar günə qalması tale yazısıdır. Sonralar ərəbcə sıradan çıxdı, fars, osmanlı və rus dilləri hakim mövqeyə qalxdı, lap sonralarsa, osmanlı dilinin yerini türkcə tutdu, fars dilini ingiliscə əvəzlədi. Ötən zəmanələrdə baş verənləri anladıq, həmişə özgə yedəklərdə sürünən bir məmləkətin başqa taleyi ola bilməz. Bəs indi dilimizi üstün mövqeyə çıxarmağa hansı amillər mane olur? Otuz illik müstəqillik dövründə biz bu vacib, vacib olduğu qədər də sadə bir milli məsələni niyə həll edə bilmirik? Həll edə bilməmək bir yana qalsın, yuxarıda dediyimiz kimi günbəgün geri gedirik. Axı, biz birincidən fərqli olaraq, ikinci müstəqillik dövrünə artıq 70 il idi ki, milli məktəblərdə oxumuş, üstəlik, hərəsinə haqlı-haqsız bir vedrə bağladığımız Sovet ədəbiyyatı klassiklərinin hesabına xeyli inkişaf etmiş, cilalanmış, durulmuş ana dilində oxumuş kadrlarla qədəm qoymuşduq. Özü də indi-indi məlum olur ki, hər fürsətdə ağız büzdüyümüz sovet məktəblərindəki təhsilin səviyyəsi də, mühiti də bugünkündən qat-qat yuxarıydı. Bu 30 ildə mükəmməl təhsil sistemi yaratmaq bir yana qalsın, saysız-hesabsız qanun, fərman, sərəncam, qərar, göstəriş və nə bilim, daha nələrə baxmayaraq biz hələ Bakının dövlət dilinə həqarətlə, ən azından ondan xala -xətrin istifadə olunmaqla hazırlanmış lövhə, reklam və elanlarından yaxa qurtara bilməmişik. Bu da Qarabağ deyil ki, taleyi özümüzün, öz hökumətimizin əlində olmasın?! Yoxsa yenədəmi Kreml günahkardır?

Yazının əvvəlində rus dilinə marağın artmasına gətirib çıxardan xeyli arqument sadalamağıma rəğmən mən orta tədrisin tam dövlət dilində keçirilməsinin tərəfdarıyam. Xarici dillərdə tədris yalnız özəl məktəblərdə olmalıdır. Amma bu sənin-mənim istəyimizlə yox, hökumətin iradəsi və peşəkarlığıyla, ana dilində yüksək səviyyəli təhsilə nail olmaqla əmələ gələn bir işdir. Nə qədər ki, vəziyyət beləcə davam edəcək valideynləri qınamağın yeri yoxdur.

Valideyn uşağını "beşinci kolon"un nümayəndəsi kimi yetişdirmək üçün yox, yaxşı təhsil naminə rusdilli məktəblərə üz tutur, övladının normal pedaqoq-şagird münasibətlərinin hökm sürdüyü mühütdə yetişməsini istəyir. Bununçün rəsmilərimiz hər fürsətdə Rusiya rəsmilərinə ölkəmizdə gün-gündən sayı çoxalan rus məktəbləri haqqında hesabat vermək əvəzinə milli təhsil sistemini qaydaya salmaq, burda baş alıb gedən hərcmərcliyin qarşısını almaq haqqında düşünməlidirlər.

Rus bölmələrində tədrisin Rusiya məktəblərinin proqramları və dərslikləri əsasında aparılmasısa bir ayrı dərddir. Riyaziyyatı, fizikanı-filanı başa düşdük, bəs humanitar fənlər? Həmin fənlərin də ordan gələn dərsliklərlə keçildiyini nəzərə alanda adam bu biabırçılığa ad qoymaqda, sadəcə, çətinlik çəkir.

# MƏKTƏBƏ BİZNES GÖZÜ İLƏ BAXAN DİREKTORLAR...

**Zamanından və məkanından asılı olmayaraq, məktəb həmişə müqəddəs yer sayılıb. Çünki orda kimliyindən asılı olmayaraq, insanlara elm öyrədilir, tərbiyə verilir və həyatda atacaqları yol onlara göstərilir. Və müəllim peşəsi də dünyanın ən müqəddəs sayılıb-seçilən peşələrindən biridir. Çünki müəllim məktəbə gəlir, şagirdə dərs keçir, onların hər cür şıltaqlığına, nazına dözür və ömrünü, gününü o şagirdlərə xərcləyir.**

Bəlkə də dünyada müəllim peşəsi qədər çətin və ağır bir iş yoxdur. Ən azından ona görə ki, bütün günü onlar məktəbdə olur, əsəb gərginliyi keçirir, stress yaşayır və axırda da mükafatı dərs dediyi şagirdin qazandığı, əldə etdiyi uğurlar olur. Elə müəllim də 11 il dərs dediyi, tərbiyə verdiyi şagirdlərinin arzularına qovuşduğunu görəndə sanki ona yeni bir nəfəs, yeni bir ömür bəxş edilir.

### *Həyatını, ömrünü təhsilə həsr edən*

***və bu yolda saçlarını ağardan, müxtəlif xəstəliklər tapan müəllimlər öz məzunlarının uğurlarını görəndə çox rahat və sakit həyat tərzlərini yaşayırlar.***

Çox təəssüf ki, son 20 ildə cəmiyyətimizdə müəllimə münasibət bir o qədər də ədalətli, yaxşı olmayıb. Yəni müəllimlərin əziyyəti, zəhməti, onların çəkdiyi



sıxıntılar əfsuslar olsun ki, cəmiyyət tərəfindən obyektiv qiymətləndirilməyib. Məhz buna görə də bir çoxları bu sıxıntılara, bu əziyyətlərə və bəzən haqsızlıqlara dözməyərək, o müqəddəs peşəni ataraq başqa bir işin qulpundan yapışıblar. Əgər bir cəmiyyətdə ki, müəllimə dəyər verilmirsə, onun əziyyəti qiymətləndirilmirsə, bu, o müəllimin günahı deyil. Bu, cəmiyyətin faciəsi və xəstəliyidir.

Gör nə günə qalmışıq ki, müraciət edəndə sürücüyə, qəssaba, hətta müğənniyə müəllim deyillər. Məgər bir çoxları bilmir ki, müəllim deyə kimə müraciət etmək lazımdır? Biz orta məktəbdə oxuyanda "müəllim" sözünü ancaq müəllimlərə və bir də o rayonun, o kəndin ən sayılıb-seçilən savadlı, hörmətli, dəyərli ziyalılarına deyərdilər. Və həmin o savadlı, o ziyalı, o hörmətli adam da bu sözə görə, onu deyənlərə hörmətlə yanaşardı. Başqa sözlə demiş olsaq, "müəllim" sözü o vaxtlar çox müqəddəs sayılırdı.

### *Mənim düşüncəmə görə,*

dünyada Allahdan və valideyndən sonra insana ən yaxın olan varlıq müəllimdir. Ona görə ki, müəllim hər hansı şagirdin üzərində onun valideynindən az əziyyət çəkmir. Bizim sinifdə hamımızdan dəcəl bir oğlan vardı, Allah rəhmətinə gedib - Şiraslan! Və bu Şiraslan heç vaxt ipə-sapa yatmazdı. Nə dədəsinin sözünə baxardı, nə anasının, nə də əmilərinin. Və məktəbə də çox vaxt gəlməzdi. Bir dəfə atası rəhmətlik Təvəkkül kişi Şiraslanın qulağından yapışıb məktəbə gətirdi. Düz aparıb məktəbin direktoru Əvəz müəllimin kabinetinə saldı və dedi ki, Əvəz müəllim, mən bu uşaqla bacara bilmirəm. Bunu adam eləsən sən eləyəcəksən. Əvəz müəllim də Şiraslan kimi çox ipə-sapa yatmayan dəcəl uşaqların "fısını" almışdı və onları adam eləmişdi. Onun bir baxışı ilə, bir sözü ilə ən çətin tərbiyə olunun uşaq özünü yığışdırardı. Orda Şiraslana nə deyib, nə demədiyini bilməsək də, bir onu gördük ki, Şiraslan hər gün dərsə gəlir, dava-dalaş salmır və özünü sakit aparır. Və hətta bəzi dəcəl uşaqların təhrikinə baxmayaraq, cızığından çıxmırdı.

***Əvəz müəllim ona nə demişdi, bir kəlmə də bizə danışmadı. Amma onu görürdük ki, tay o dəcəllikdən, o ipə-***



***sapa yatmamaqdan bir əsər-əlamət qalmayıb. Yəni Əvəz müəllim digər şagirdlər kimi ipə-sapa yatmayan Şiraslanı da adam elədi.***

Bax, indi bizim məktəblərdə Əvəz müəllim kimi direktorlar çox azdır. Bəlkə də barmaqla sayıla bilər. Bu gün Bəhmənlidə elə həmin məktəb və aşağı hissədəki məhəllədə də məktəb var. Və o direktorlar da insaf naminə deyək ki, yaxşı işləyirlər. Elə bu da rəhmətlik Əvəz müəllimin qoyduğu ənənənin hesabına. Amma onlar heç biri Əvəz müəllimin yerini verə bilməzlər. Heç özləri də deməz ki, biz Əvəz müəllim kimi direktoruq.

40-50 il bundan əvvəl direktorlar indiki kimi təyin olunmurdu. Kollektivdə ən çox nüfuzu, hörməti, savadı və əxlaqı, tərbiyəsi olan müəllimlər direktor təyin olunurdu. Və bəzən heç direktor seçilən adam işin ağırlığından və çətinliyindən o vəzifədə qalmaq istəmirdi. Məsələn, mənim bibim oğlu Fəxrəddin Məmmədov Allahyar Əliyev adına Böyük Bəhmənli tam orta məktəbin direktoru vəzifəsindən öz ərizəsi ilə gedib. Hətta Təhsil Şöbəsindən razılıq verilməsə də, o, inadından dönməyib və getmək istədiyini bildirib.

### *Son 15-20 ildə*

**isə direktor təyinatında müəllimlərin istedadı, təcrübəsi, savadı və kollektivdəki nüfuzu bir o qədər də nəzərə alınmayıb. Bir çox direktorlar halal yolla deyil, müxtəlif yollarla bu vəzifədə əyləşiblər. Xüsusən də Bakı şəhərində məktəb direktoru olmaq üçün kimlərsə dəridən-qabıqdan çıxıb və axırda da gəlib bu vəzifədə əyləşib. Və həmin vəzifədə əyləşəndən sonra məktəbə təhsil gözü ilə deyil, biznes gözü ilə baxıb. Ona görə də**

Bakıda bəzi məktəb direktorları 10-15 ilin içərisində böyük var-dövlət əldə edib, ev-eşik qazanıb, qiymətli maşınlar alıb. Bakının Yeni Günəşli yaşayış sahəsinin "D" massivində 282 nömrəli tam orta məktəb var. Valideynlər həmin məktəbin direktoru Camal müəllimdən çox narazılıq eləyirlər. Bir dəfə yolunuz o məktəbə düşsə görərsiniz ki, orda vəziyyət necədir və hansı ab-hava var. Məktəbin həyətində və stadionunda məişət tullantılarının əlindən tərpənmək mümkün deyil.

Görəsən, Camal müəllim bir dəfə kabinetindən çıxıb məktəbin həyətinə və stadionuna göz gəzdiribmi? Yəqin başı o qədər vacib işlərə qarışıb ki, heç olmasa sentyabrın 15-nə qədər məktəbin həyətindəki və stadionundakı tullantıları görməyib. Nə isə...

### *Əfsuslar olsun ki,*

**bəzi məktəb direktorları təhsil ocağına elm, savad ocağı kimi deyil, biznes mərkəzi kimi baxır. Və düşünür ki, hansı addımları atmaqla pul qazanmaq olar. Buna dərs saatları, sinif rəhbərliyi və digər məsələlər daxil edilir... Biz bu barədə çox danışıb hörmətli oxucularımızı yormaq istəmirik. Görünən odur ki, bəzi məktəb direktorları boş vakant yerlərini vaxtında Təhsil Nazirliyinə bildirmək istəmirlər. Rayon təhsil şöbələri və məktəb direktorları əlaqəyə girərək bu yerləri bir müddət gizli saxlayırlar. Çünki həmin yerləri digər müəllimlərə verməklə öz şəxsi maraqlarını təmin edirlər.**

Yeni Təhsil naziri Emin Əmrullayev çox islahatçı, savadlı və təcrübəli bir ziyalıdır. Çünki fəaliyyətə başaladığı ilk gündən Azərbaycan təhsilində şəffaflığı, obyektivliyi və ədaləti önə çəkib. Üstəlik də çıxışlarında çox səmimidi və hər şeyə olduğu kimi münasibət bəsləməyə maraq göstərir. Təbii ki, bu addımlar da cəmiyyət tərəfindən hörmətlə qarşılanır və cənab nazirə inam daha da artır. Nazir Emin Əmrullayev təhsildəki vakant yerlərlə bağlı deyib: "Müəllimlərin işə qəbulu müsabiqəsi üçün bu il təqdim edilən vakant yerlərin sayı ötən ildəkindən çoxdur". Cənab nazirin sözlərinə görə, bu il 8322 vakant yer təqdim edilib ki, bu da ötən il təqdim edilən yerlərdən 1014 yer və ya 14 faiz çoxdur. Bəzi ixtisaslarda vakant yerlərin sayı azalıb, bəzilərində isə sabit qalıb.

Cənab nazirin çıxışından göründüyü kimi, əvvəlki vaxtlarda məktəb direktorları və rayon təhsil şöbələri vakant yerləri gizlədiblər. Görünür, təzə nazir gələndən sonra bir çox təhsil şöbələri və məktəb direktorları ehtiyat edərək hər şeyi olduğu kimi və dəqiq Təhsil Nazirliyinə çatdırıblar.

### *Amma bizim aldığımız qeyri-rəsmi məlumata görə,*

bu gün də elə təhsil şöbələri və məktəb direktorları var ki, onlar yenə vakant yerlərinin sayını dəqiq bildirmirlər. Bax, bu məsələlər də Təhsil Nazirliyinin nəzarətində olmalı, vakant yerlərini gizlədən təhsil şöbələri və məktəb direktorları məsuliyyətə cəlb edilməlidirlər.

**Yazımızın sonunu nikbin notlarla bitirmək istəyirik. Axı sentyabrın 15-i Azərbaycanda yeni dərs ilinin başlanğıcıdır. Bu il 1-ci sinifə minlərlə şagird gedəcək. Və eyni zamanda onlar "ilk zəng"in səsini eşidəcəklər. Düzdür, əvvəlki kimi dərs ili təmtəraqlı, haylı-küylü olmayacaq və "Bilik günü" də keçirilməyəcək. Buna baxmayaraq, Azərbaycanda dərs ili başlayır və biz bu münasibətlə bütün Azərbaycan müəllimlərini və şagirdləri, tələbələri təbrik eləyirik. Qoy onlar yeni dərs ilinin sevincini elə əvvəlki kimi yaşasınlar və heç bir sıxıntı və çətinliklə üzləşmədən dərs ilini başa vursunlar. Bir daha müəllimlərə və şagirdlərə "Yeni dərs iliniz mübarək olsun!" - deyirik.**

**Faiq QİSMƏTOĞLU**

### *BMT Türkiyəni müdafiə etdi*



***Yunanıstanın quru və dənizdən miqratları Türkiyə tərəfinə geri qaytarması düzgün deyil.***

***Bunu BMT-nin İnsan haqları üzrə ali komissarı Mişel Baçelet deyib.***

***"AB ölkələrinin həm quru, həm də dənizdən miqrantları geri qaytarması və kütləvi şəkildə deportasiya etməsi qanuni öhdəliklərin pozulması deməkdir. Bu, miqrantların həyatı və hüquqları üçün ağır nəticələrə səbəb ola bilər. Miqrantlara qarşı bu cür münasibətlər müstəqil şəkildə araşdırılmalıdır", - M.Baçelet bildirib.***

### *Qırğızıstan prezidenti Çindən vaxt istədi*

***Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov Çindən alınan borcu geri qaytarılması üçün güzəşt və vaxt istəyib.***

***S.Jeenbekov Qırğızıstana səfər edən Çinin Xarici İşlər naziri Vanq Yini qəbul edib. Görüşdə Prezident COVİD-19-un ölkənin makroiqtisadi vəziyyət üzərində mənfi təsirlərindən söz açaraq, Qırğızıstanın Çinə olan xarici borc ödənişlərinin asanlaşdırılmasını istəyib. S.Jeenbekov eyni zamanda nazirdən ödənişlərin geri qaytarılması üçün vaxt verilməsini xahiş edib.***

***Məlumata görə, qəbul zamanı iki ölkə arasındakı əlaqələrin daha da inkişaf etdirilməsi məsələsi müzakirə edilib.***

***Qeyd edək ki, Qırğızıstanın mövcud 3 milyard 874 milyon dollarlıq xarici borcunun 1 milyard 794 milyon dollarlıq hissəsi Çinin İxrac-İdxal Bankına məxsusdur.***

**MEHRİBAN**

# "Ticarəti bacarsaydım, şeir yazmazdım"

***Həmsöhbətimiz şair Xəttat Kilimçi və ya əsl adıyla Mirbağır Bünyatovdur.***

**-Yalançı seyidlərdənsən, ya doğrudan ərəbsən?**

-Deyəsən, Şah Abbasın dövründə olub, gəncliyindən istifadə edib üsyana qalxmış tayfalardan bəziləri sonralar təqiblərdən yaxa qurtarmaq üçün özlərini seyid tayfaları kimi qələmə vermişdilər. İndi bilmirəm, mən doğurdan da, yalançı seyidlərdənəm, yoxsa, həqiqətən, ərəb kökənliyəm.Heç maraqlanmamışam, açığı bunu araşdırmaq mənim üçün maraqlı olmayıb. Ən düzünü babam bilər, ancaq hal - hazırda ondan soruşmaq imkanım da yoxdu. Ümumiyyətlə, bu sualı verməkdə məqsədin nədir, bilmirəm, elə düşün ki, cavab verməmişəm.

### *Gördüm şeir yaza bilmirəm, dedim, heç olmasa, imzam maraqlı olsun*

**-Xəttat Kilimçi kimdir?**

-Maraqlı sualdır.Heç vaxt adımdan xoşum gəlməyib, uşaq vaxtı məni heç kim öz adımla çağırmırdı, demək olar.Biri Mirçığır deyirdi, biri Miranqır, ancaq məndə ən çox travma yaradan Mirzoppa çağrılmağım idi. Az - çox şair kimi tanınandan sonra dedim buna bir əncam çəkmək lazımdır. Hardasa, bir həftə sərasər fikirləşdim ki, görəsən, adımı necə dəyişim, nə edim biraz maraqlı olsun.Fb səhifəmi Xəttat Kilimçi kimi yenilədim, şeirlərdə həmin imzadan istifadə etməyə başladım. Xəttat sözünün mənasını aşağı - yuxarı çox adam bilir. Kilimçi sözü də bir vaxtlar dilimizdə məşhur olub. İndi demək olar ki, heç bir sözdən istifadə olunmur. Ölü sözlər sırasına daxildir, burda bir az simvoldan da istifadə etmişəm, düzü, indi mənasını özüm də unutmuşam.Gördüm şeir yaza bilmirəm, dedim, heç olmasa, maraqlı bir imza olsun.O da alınmadı.

**- Səhv etmirəmsə bir neçə kərə ədəbi sayt işinə girişdiniz. Yaratdınız, fəaliyyət göstərdi, sonrasa yoxluğa yuvarlandı. Bu yaxınlarda yenə eynisi. Bütün bu alınmazlıqlar nəyə lazımdır? Problem nədədir? Sizin bu işi yarada bilməməyinizdə, yoxsa ayrı səbəb?**

-Bilirsən, indiki durumda ədəbiyyat saytlarını işlətmək çox çətindir. Öncə maliyyə məsələsi böyük önəm daşıyır. Bu gün Azərbaycanda fəaliyyət göstərən ən sanballı ədəbi saytlar belə dəfələrlə ya bağlanıb, ya da bağlanmaq təhlükəsi ilə üz - üzə qalıb.Azərbaycanda populyarlıq qazanan saytlara və digər internet platformalarına baxsaq, görərik ki, daha çox gündəlik xəbər və şou xarakterli yazılar gedir. Əvvəlcə, elə bir mühit formalaşmalıdır ki, vətəndaşlarımızın həm oxumağa marağı, həm də vaxtı olsun.Yazılarını sənin saytına verən yazarlara heç olmasa cüzi də olsa qonorar verə biləsən, bunların heç biri olmur, dostsan deyə sənə bir dəfə şeir atarlar, iki dəfə yazı verərlər, sonra özün də utanarsan, çəkinərsən, axı sənin missiyan həm də sosial cəhətdən ağır vəziyyətdə olan yazarlara dəstək olmaq olmalıdır. Bir də fəaliyyət azadlığı olmayan yerdə qərar tuta bilmirəm, ədəbiyyat saytlarının dövlət idarələri kimi distansiya dəyişməsinin əleyhinəyəm, ona görə boğuluram, yoruluram və bezirəm.

**-SSRİ dövrünün sərhəd blokadası, əhalinin isə daha çox təsərrüfatla məşğul olması Cəlilabad rayonunu ədəbi fəaliyyətdən uzaqda saxlayırdı. SSRİ dağıldıqdan sonra əhalinin bir hissəsi ticarətlə məşğul olmağa başladı. Qəribədir ki, ticarəti bacarmayanların bir çoxu şair oldu.**

- Hardasa, 1996 - cı ildən 2000 - ci ilə kimi rayonda İran bazarı kimi tanınan bir bazarda əlimdə dondurma sataraq ailəmizə kömək etməyə çalışırdım.Mən uşaqlığımı çox az yaşadım, bir də gördüm ki, artıq böyük insanlar kimi evə çörək gətirmək, ailənin qayğısına qalmaq kimi hislərin əsirinə çevrilmişəm. Bir dəfə necə oldusa, satmaq üçün götürdüyüm dondurmalar istidə əridi, uğursuz bir gün idi, bazarda çoxlu adam olsa da, sanki heç kim məni görmürdü, dondurmaların hamısı əriyib suya döndü, kor - peşman mənə satmaq üçün dondurma verən sahibkarın yanına getdim, evə gəlmək üçün cibimdə qara qəpik də yox idi. Ona dedim ki, mənə bir "nizami" pul ver, sabah alver edib qaytararam, yanında boydan balaca, pısıq bir oğlan vardı, mənə dedi bununla güləş, yıxsan sənə bir nizami yox, bir məmməd verəcəm, boyuna baxıb gülümsədim, əlbətə, razılaşdım.Ayılanda özümü bir ağacın altında, üst - başı yaman gündə, dizləri qan içində gördüm, ağlamışdım.Payi piyada yola düzəlib evə gəldim, bir daha bazara getmədim, oxudum, universitetə qəbul oldum, bir də gördüm artıq şeir də yazıram.Yəqin ki, ticarətdə uğur qazansaydım, bunların heç biri olmazdı.Ancaq həm ticarətdə, həm də şeirdə uğur qazanmış



adamlar da var.Onlardan biri də Rüstəm Behrudidir. Boynunda bir kiloluq qızıl seplə, qədim Roma imperiyasını andıran təmtəraq və mənsəblə dar ağacına salam demək hər şairin işi deyil.

**- Sovet ədəbiyyatından danışanda daha Abbasağa Abbastürk yada düşür. Onu küçümsəmək fikrim yoxdur. Rayonda kifayət qədər sevilib, hörmət olunub. Amma o boyda rayonda, xüsusən keçmiş tarixi zəngin olan bir yerdə danışmaq üçün heçmi isbatlı digər şairlər yoxdur?**

-Bir dəfə şəhərdə kimsə mənə dedi ki, sizin Cəlilabadda Abbasağa Azərtürk adında bir şair olub, tanımırsan!? Tutulub qaldım, biraz da utandım ki, 200 km aralıda sənin yerlin olan bir şairi tanıyalar, sən tanımayasan.Sonra heç yadıma düşmədi, bəlkə də şairdən bir bəndin özünü belə oxumamışam, elə bir hissim olmayıb ki, görüm adam nə yazıb, necə yazıb.Ancaq harda olmuşamsa, deyiblər gözəl şairdi.Çox güman ki, başqa şairlər və yazarlarda olub, ama tarix Abbasağa üçün elə bir tale hazırlayıb ki, yaddaqalan olub.

### *O adamlar bir dəstədirlər, həmişə topa gəzirlər,*

**-Son dövrlər şair bolluğu, yaradıcı insanların çoxalması rayonda qəribə "kruq"laşma yaradıb. Bizdən öncəkilər özündən başqası olan yaşıdlarının uğurunu istəmir. Özündən sonra gələnlərinsə onun reklamçısı, süfrə yoldaşı olmadan ümumiyyətlə, guya tanımır. Gənclərisə hərəsi bir kölgədə özünə sərinlik axtarır. Bir rayon daxilində şairlərinin belə eqoistcə lokal düşmənçiliyi ilə hara gedirsiniz?**

-İnan ki, yaşlı adamlar gənclər üçün o sərinliyi də çox görürlər. Deyirlər, siz yelpiklə də sərinlənə bilərsiz. O adamlar bir dəstədirlər, həmişə topa gəzirlər, ciblərini eşsən hərəsinin cibindən 5 - 10 kart çıxar, büdcəni əmdikləri azmış kimi, bütün tədbirlərdə başdadırlar. Çünki, onlar üçün ölənin kim olduğu maraqlı deyil, əsas odur ehsan olsun. Ancaq bir məsələ də var, nisbətən, yaşlı olanların içərisində Bilal Alarlı müəllim həmişə mənimlə maraqlanıb, məktəbdə keçirdiyim ən xırda tədbirlərdə belə ədəbiyyat adına sevə - sevə iştirak edib, maddi - mənəvi həmişə yanımda olduğunu deyib, bunu həm də hiss etdirib. Belə yeniliyə açıq, ruhu cavan adamları görəndə ruhlanırsan, ümidlənirsən, çox heyf ki, belə insanlar da çox azdırlar, hər tərəf qaragüruhla doludur.Səni əzib üstündən keçmək üçün bəhanə axtarırlar.İkinci kitabın çıxanda Rayon İcra Hakimiyyətində işləyən bir dostumuz dedi ki, bir kitab ver, sənin tədbirini keçirək, rayon ictimaiyyəti tanısın. Bir həftədən sonra xəbər çıxdı ki, bəs rəhbərlik icazə vermir.Mən bunun nəticəsinin necə olacağını zatən əvvəlcədən bilirdim, yenə də o dostu qırmadım kitabı verdim, axrı da belə. Nə var nə var, şeirlərin bir neçəsi üsyan xarakterli idi. Bunu deməkdə məqsədim odur ki, bu xarakterdə olan idarəçilər üçün mənim kimi insanlar yox, həmin o alqış çalan ünsürlər lazımdır.Deyəsən, uzun danışıram, zəhləni töksəm...

### *Şair olduğumu kəndimizdə bilən yoxdur*

**-İki kitab müəllifisən. Gerçəklikdən danışsaq, o kitablardan ədəbi mühit müəyyən qədər xəbərsizdir.**

-Ədəbi mühit nəinki o kitablardan, özündən də xəbərsizdir. Mənim şair olduğumu kəndimizdə bilən yoxdur, ədəbi mühit neyləsin. Bilmirəm, burda yəqin ki, günah özümdədir, mənə elə gəlir, həqiqəti bağıraraq deməyə ehtiyac yoxdur, eşitmək istəyən pıçıltını da duyacaq.Yəqin hələ ki, həqiqəti yazmağı, onunla rəftar etməyi öyrənməmişəm. Əgər doğurdan da ortalığa həqiqi mətnlər qoya bilsəydim, ədəbi mühitin xəbəri olardı.Deməli, ya yazmamalıyam, ya da çox işləməliyəm, mütaliə etməliyəm, tələsməməliyəm, özümə qapılmamalıyam.

**-Tarix müəllimi və şair. Mirbağır müəllim kimi uğurludur, yoxsa şair kimi?**

-Mənə qalsa, nə tarix müəllimi Mirbağır, nə də şair Mirbağır uğurludur.Etiraf edirəm ki, tarix müəllimi kimi uğur qazansaydım şeirin, şair kimi uğur qazansaydım tarixin daşını atardım. Heç birini yerində edə bilmirəm, bir də gördün tarix müəllimi olmalı olduğum yerdə şair, şair olmalı olduğum yerdə tarix müəllimi oluram. Bu get - gəllərin arasında vurnuxuram.Özümü bəzən aldadıram ki, guya qiymətimi bilmirlər, əslində belə deyil. Hərdən özümə sual verirəm, axı tarix müəllimi kimi nə etmişəm və ya şair kimi nəyə yiyələnmişəm?!

Cavabını da verim, heç nəyə, özümü dağ başından aşağı yuvarlanan boş qazan kimi hiss edirəm.

**-Yaralarını təzələmək istəmirəm, amma atan vəfat etdiyi halda onu məhkəməyə vermişdilər. O işin axırı necə oldu?**

-Yadıma gəlir, həmin məhkəmə məsələsi xeyli saytda getdi, hətta Xəzər tv - yə bununla bağlı açıqlama da verdim. Bəli, atam vəfat etdikdən bir xeyli sonra bizə məhkəmədən bir məktub gəldi. Bank olmayan kredit təşkilatı sığortanın ödəməli olduğu borca görə atamı məhkəmə vermişdi.

Halbuki, dəfələrlə bununla bağlı onlara həm rəsmi, həm də adi formada bildirmişdim ki, atam vəfat edib, bu onun ölüm haqqında şəhadətnaməsi, bu da birbaşa sizin iştirakınızla bağlanmış sığorta müqaviləsi, bəs bu nə biabırçılıqdır.Sonradan o vaxt bizim məhkəmənin sədri olan Əliəjdər müəllim mənə zəng edib üzr istədi, ittihamı rədd etdiyini dedi, ancaq bu sonralar dəfələrlə təkrar olundu, hələ də öz həllini tapmayıb.

**-"Onda hələ daş deyildi çəpərlər…"şeirin mənə Şəhriyarı xatırladır. Fikir eyniliyi olmasa da, keçmişə yanaşma tərzi, avaz və.s və yaxud digər şeirlərində Ramiz Rövşən, Salam Sarvan avazları görürəm.**

-Tamamilə razıyam, bir dəfə səhifələrin biri Şəhriyarın bir şeirini paylaşmışdı.Lakin, müəllifi qeyd etməmişdi.Yadıma gəlir ki, bir neçə insan ora mənim adımı qeyd etmişdilər.Şəhriyar mənim ən sevdiyim şairlərdəndir, onu ağrısını bəzən canımda hiss etmişəm.Salam isə ayrı bir həngamədir.

Həmişə hansısa misrasını dilimin altında pıçıldayıram.Salam çox doğmadır, həmişə onun sakit, həlim - həlim söhbətlərindən sarı darıxıram, günlərlə ədəbiyyat haqqında danışsa, qulaq asaram.Bu şairlərdən təsirlənməyin nəyi pisdir ki, niyə də olmasın.Birdə ki, məsələyə bu kontekstdən yanaşsaq, hamıdan başqa bir şairi dartıb çıxarmaq olar.Hətta Nobel mükafatçılarının özü də bu məsələdən yan qaça bilməyiblər.

**- Sənə baxanda yadıma şeir yox, yeyib-içmək düşür. Bununçün də şeirlərin barəsində əlavə danışmayacam. Üç ildi, hinduşka sözün var. Ona görə birinci suald dedim ki, yalançı seyidsən?**

-Sən də məni potensial kabab kimi görürsən. İnanırsan, sevdiyim adamları görməkdən sarı hərəsinə bir söz demişəm, halbuki hinduşka nədir, heç əyriqıç ördəyim də yoxdur.Çox vaxt dostlarla yeyib içmək məclislərində sivişib aradan çıxmışam.

Səni də çağırıram ki, aldığın qonorarlardan gəlib qonaqlıq verəsən. Əslində, bütün bunlar əlbəttə bir zarafatdır, özümdən məlumatlı adamlarla ünsiyyət qurmağı çox sevirəm, həmişə onlardan nəsə yaxşı məna da çırpışdırıram, mahiyyəti olan, özülü olan bilgiləri qazanmağın acıyam, hinduşka bir bəhanədir.

**Söhbətləşdi:**
**Emin Piri**



Nüşabə Əsəd Məmmədli
yazıçı-publisist

# SƏNƏT NAMİNƏ

## Teatrşünas-tənqidçi Anar Burcəliyevin kitabları haqqında düşünərkən

**Mənim üçün teatr bir nağıl idi. Orda işləyən aktyorlar sanki bu dünyanın adamları deyildi. Əslində bu doğrudan da belə idi. Onlar öz yaşam tərzləri, fikir və hissləri ilə gerçəkliyin fövgündə dayanırdılar. Onları heç məişət promblemləri də maraqlandırmırdı. Onlar bu millətə böyük sənət işığının gətirilməsi üçün mücadilə edirdilər. Teatra gələn axın-axın insanlar elə bil ki, bu işığa və SÖZƏ həsrət idilər.**

İlk dəfə məni, bacım Süsənbəri, qardaşım Cümşüdü teatra anam aparmışdı. Biz teatrın sehrindən çıxa bilmirdik. Yadımdadır "Vaqif" tamaşısına baxırdıq. Vaqif - Əşrəf Yusifzadə səhnəyə çıxanda zal ayağa qalxdı və sürəkli alqışlarla qarşıladı böyük aktyoru.

Əşrəf Yusifzadə pauza gözlədi, sonra tamaşaçılara baş əyib sözlərinə başladı. Səhnədən zala bir sərinlik gəlirdi. Elə bilirdim ki, səhnə arxası bizim tanımadığımız nağılvari bir aləmdir.

Həmin illərdə korifey sənətkarlarımız, hər birinin varlığından qürur duyduğum Ələkbər Seyfi, Məhəmməd Burcəliyev, Rəmziyyə Veysəlova, Sədayə Mustafayeva, İsmayıl Talıblı, Səməd Tağızadə, Ələddin Abbasov, Kərim Sultanov, Zülfuqar Baratzadə, Reyhan Tağıyeva, Rza Nadirov, Məmmədəli Balayev kimi sənətkarlar çıxışlar edirdilər.

Anar Burcəliyevin "Məqalələrim, ressenziyalarım, oçerklərim və müsahibələrim" adlı iki ciltlik kitabını oxuyanda sanki vaxt toranlığından artıq bu dünyadan çoxdan köçən və adları, xatirələri unudulmağa başlayan sənət fədailərini görürəm. Məmməd Cəfərov, Firuzə Bədirbəyli, Ağa Məmmədov, Zakir Babayev, şəhid Nadir Hüseynov, Əli Məmmədov, Əmir Dadaşlı, Sona Vəliyeva və digərləri, digərləri. Maraqlı quruluşlar verən rejissorlar Mehdi Məmmədov, Nəsir Sadıqzadə, Yusif Bağırov, Vaqif Şərifov, Oruc Qurbanov, Ələddin İsmaylov, Hilal Nəsənov. Adam inana bilmir ki, vaxtı ilə Gəncə Dövlət Dram Teatrında Mirzə Fətəli Axundzadənin, Ədürrəhim bəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun, Hüseyn Cavidin, Cəfər Cabbarlının pyesləri ilə yanaşı Evripidin, Molyerin, Şekspirin, Lev Tolstoyun, Ostrovskinin pyesləri oynanılırdı. Anar teatra öz əsərlərini təqdim edən, Gəncədə yaşayan görkəmli yazıçılarımız haqqında da maraqlı, dolğun oçerklər yazıb.

Vaxtı ilə bu teatrın repertuarı əsasən görkəmli dramaturqumuz Altay Məmmədovun əsərləri ilə zənginləşirdi. Səhnədə onun 11 pyesi qoyulmuşdu. Gəncədə ilk dramaturq qadın, tanınmış şairə Fəridə Əliyarbəylinin 2 pyesi, Qərib Mehdinin, Novruz Gəncəlinin, Xəzangülün, Sahib İbrahimlinin, Rövşən Ağayevin, Aydın Murovdağlının da əsərləri öz səhnə təcəssümünü Gəncə teatrında tapmışdı.




Mənim heç ağlıma da gəlməzdi ki, özüm nə vaxtsa dram əsərləri yazacam və bu böyük sənətkarlar mənim əsərlərimdə rol alacaqlar. Mən xətrini çox istədiyim, əziz bildiyim, uşaqlığı və gəncliyi gözümün qarşısında keçən teatrşünas-tənqidçi Anar Burcəliyevin Gəncə Dövlət Dram Teatrının yaradıcılıq yolu və qüdrətli səhnə fədailərinin sənət yoluna həsr etdiyi kitabları açanda, elə zənn etdim ki, gözlərim önündə yenidən teatr pərdəsi açıldı və mən pərdə arxasını gördüm. Hər bir oçerk elə dolğun yazılıb ki, özünü dərhal o mühitdə, bu dünyanı tərk etmiş o insanların içində hiss edirsən.

Yadımdadır, 1991-ci il aprel ayının 29-da "Cavad xan" tamaşasına içtimai baxış keçiriləndə çox dəyərli teatrşünas, o vaxt Mədəniyyət Nzirliyinin idarə rəisi Elmira Əliyeva Məhəmməd Burcəliyev haqqında dedi ki, bu aktyorun ifası nəinki Azərbaycanın, həm də SSR-i sərhədlərini aşıb keçəsidi.

...Sadəcə insanların çoxu yanlarından keçən sənət adamlarını layiqincə dəyərləndirə bilmirlər. Ancaq səhnə bir kaleydoskopa bənzəyir. Müxtəlif insan xarakterləri, fikirləri qəlblərdə ixtişaş yaradır, xoş arzular oyadır.

Teatrşünas Anar Burcəliyevin yazdığı sənət oçerkləri məhz onları özündə ehtiva edir. Onun iki ciltlik kitabında nəinki dünən yaşayan aktyorlarımızı, həm də sonradan böyük uğurlara sahib olan sənətkarlarımız sayılan Məhəmməd Burcəliyev, Yusif Bağırov, Bağır Bağırov, Altay Məmmədov, Vaqif Şərifov, Şirin Rzayev, Küşvər Şərifova, Ella Yaqubova, Xəzangül, Məmmədəli Balayev, Fizulət Rzayeva, Qurban Abbasov, Sevda Orucova, Rəhilə Məmmədova, Ramiz Vəliyev və başqaları haqqında geniş məqalələri bu sənət yoluna işıqlar salıb.

**Mədəniyyət və İncəsənət Universitetində təhsil alan sənətşünaslar və teatrşünasların ilkin mənbə olaraq istifadəsinə verilən bu iki ciltlik vəsait Anar Burcəliyevin yaratdığı teatr ensiklopediyasıdır. Elə bilirəm ki, Anar hər hansı bir sahədə işləsəydi yenə böyük uğur qazana bilərdi. Ancaq o, doğma insanları, Respublikamızın Xalq artistləri Məhəmməd Burcəliyev və Sədayə Mustafayeva kimi sənəti seçdi, sənət naminə SÖZ demək istədi, və dedi də. Mən istərdim ki, dəyərli Anar Burcəliyev yenə də davamlı olaraq yeni-yeni kitablar yazsın. Gəncəmizin içtimai həyatında fəal iştirak etsin, sözün bitdiyi yerdə yenidən öz SÖZÜNÜ desin, sənətin, o cümlədən teatrın bundan sonrada da nüfuzunun qalxmasına yardımçı olsun.**

Belə-belə işlər

# Paşinyanın arvadının əyilməkliyi



*Vahid MƏHƏRRƏMOV*

**Gül kimi vaxtımı sərf edib bu cızma-qaranı eləməyimə səbəb o günləri qəzetlərin birində gördüyüm şəkil oldu. Yoxsa bu yazı meydana gəlib yaranmayacaqdı, ağ vərəqlər üzərində sıralanıb daranmayacaqdı. Sonra öyrəndim ki, həmin o mən gördüyüm şəkli qəzetlərlə bərabər saytlar da verilib. Ona baxanlar dillərini və əllərini bekar qoymayıb müxtəlif səpkili, fərqli çeşidli, bənzərsiz məzmunlu şərhlər yazıblar.**

Oxucuları çox intizarda saxlamayıb deyim ki, həmin şəkil babası Böyük Vətən müharibəsində silahını götürüb nemes tərəfə keçərək bizim atalarımıza, əmi və dayılarımıza güllə atmış Ermənistanın baş naziri Nikol Paşinyanın arvadının şəkli idi. İndiyə qədər Poşinyanın arvadının şəkilləri az-çox qəzet və jurnallarda gözümə dəymişdi. Amma o cür heyvərə vəziyyətdə şəklini birinci dəfəydi gördüm.

Erməni harsın özünü vətənpərvər göstərmək üçün Qarabağa gələrək hərbi forma geyinib, əlinə silah alıb və guya ki, başlayıb təlim keçməyə.

Onu təlim keçən yerdə şəkillərini çəkib qəzetlərdə dərc ediblər, saytlara yerləşdiriblər. Bəlkə də ermənilər bu şəkillə bizə xox gəlmək istəyiblər ki, baxın ha, qadınlarımız da döyüşə hazırlaşırlar. Qarabağ savaşında onlar kişilərlə bərabər vuruşacaqlar. Şəklə baxanda məni həm gülmək tutdu, həm də bəzi qaranlıq mətləblər xeyli aydınlaşdı. Poşinyanın arvadı təlim zamanı əlində silah müxtəlif pozalarda əyilə-əyilə qaçır. Telli harsının bu cür əyilməkliyi dünya ictimaiyyətini indiyə qədər bilmədikləri və yaxud bilmək istəmədikləri bir çox həqiqətlərdən agah edir.

Tarixin lap dərinliyinə-filanına getmədən şəklə baxan kimi bilinir ki, fotodakı şəxs bu torpağın əsl sahibindən daha çox, bura oğurluğa, quldurluğa, banditliyə gələnə oxşayır. Şəklə diqqətlə baxsanız dediklərimin yüz faiz həqiqət olduğuna inanacaqsınız. Adam atədən harada əyilə-əyilə gedir, yaxud harada qorxa-qorxa qaçır?

Təbiidir ki, başqasının evinə, həyətinə oğurluğa girəndə. Heç öz həyətində, evində əyilə-əyilə, oğrun-oğrun gedən birisini görmüsünüzmü? Yəqin ki, yox! Heç inanmıram ki, bu gündən sonra da görəsiniz. Elə harsının əyilə-əyilə, qorxa-qorxa hərəkət etməsi bir daha sübut edir ki, o, bu torpağın, bu ərazinin əsl sahibi deyil.

O, bura başqasının ərazisini tutmağa, torpağını işğal etməyə gəlib.

Əgər harsın bu yerlərin yiyəsi olsaydı, heç vaxt əyilə-əyilə, oğrun-oğrun getməzdi.

Bütün dünya ictimaiyyəti açıq-aydın gördü ki, harsın başını dik tutub gedə bilmir. Çünki başını dik tutsa torpağın sahibi onu vurub öldürəcək.

Yadıma hörmət bəslədiyim bir zabit döyüşçünün dedikləri düşdü. Bu zabit əməliyyatlar zamanı heç vaxt əyilməz, düşmən üzərinə başını dik tutub gedərdi. Səbəbini soruşanda deyərdi ki, nəyə görə mən doğma torpağımda başımı aşağı əyməliyəm. Nə üçün danakların üstünə əyilə-əyilə getməliyəm. Torpaq kimin deyilsə, qoy o əyilsin! Zabit çox düzgün deyirmiş. Bu məqamda Ernest Heminqueyin mövzumuza uyğun olan babat bir sözü yadıma düşdü. Məşhur yazıçı deyirmiş ki, əyilə-əyilə yaşamaqdansa, ayaq üstə ölmək yaxşıdı. Amma gərək onu bacarasan də. Bacarmadınsa, elə bütün ömrün boyu əyilə-əyilə qalacaqsan.

Deməli, Qarabağın əsl sahibi olmadıqlarına görə Poşinyanın arvadı silahdan atəş açmağı mənimsəməzdən əvvəl müxtəlif vəziyyətlərdə əyilməyi, əyilə-əyilə qaçmağı, dizin-dizin sürünməyi öyrənir. Bu harsın nə qədər əyilib bükülməyi öyrənsə də, onun döyüşlərdə sağ qalmaq şansı sıfıra bərabərdir.

Çünki sərrast atan snayperlərimiz döyüşlər zamanı hansı pozada əyilməsindən asılı olmayaraq Poşinyanın arvadını dəqiq zərbə ilə, patron korlamadan bircə güllə ilə vurub o dünyalıq edəcəklər.

Mən bilən ataların belə bir məsəli də var: "Qırxında öyrənən yetmizində çalar, yetmişində öyrənənsə gorunda çalar!" Yəqin Paşinyanın arvadının yaşı qırxdan çox olar.

Harsın nə qədər əyilə-əyilə təlim keçib atəş açmağı öyrənsə də, yüz faiz yalnız yetmişində çala biləcək. Yetmiş yaşa da, o harsın çata bilməyəcək.

Çünki snayperlərimiz əyilə-əyilə üstümüzə gələndə onu bircə patronla alnından vurub "Fatihə"sini verəcəklər.

Tarix boyu ermənilər bir çətinə-filana düşəndə arvadlarını və qızlarını qabağa veriblər. Əgər bu gün başda baş nazir olmaqla ermənilər arvadlarını qabağa veriblərsə, deməli, daşnaklar çıxılmaz vəziyyətə düşüblər.

Hələlik gördüyümüz Poşinyanın arvadıdır. Allah bilir, hələ nə qədər erməni arvadları əllərində silah Qarabağda əyilə-əyilə, bükülə-bükülə qalıblar.

**Biz ermənilərin kişiləri ilə döyüşmək istəyirdik. Bu yaramazlarsa qadınlarını qabağa veriblər. Amma yox, o günləri bir bir heyvərə zabitləri üstümüzə gəlmişdi. Səngərə girən kimi mövqeyində ayıq-sayıq dayanan hərbçilərimiz srazı onu tutub əl-ayağını bağlamışdılar. Bundan məyus olan Paşinyan indi də arvadına təlim keçirtdirib əyilə-əyilə üstümüzə göndərmək istəyir. Bizim üçünsə fərqi yoxdu, kişidi, yoxsa qadındı, ermədi, yoxsa başqa millətdi! Üstümüzə kim gəlsə tətikdəki barmaqlarımızı sıxıb atəş açacağıq, işğal altında olan torpaqlarımızı ermənilərdən geri alacağıq!**

# Əbülfət Mədətoğlu və "Ancaq o"

**Bu vaxta kimi tanıdığım şairlərin xarakter və şəxsiyyətlərindən aslı olmayaraq özlərinin mənəvi keyfiyyətinə baxmadan şeirlərini bəyənmişəmsə,o şeirlərdə özümü görürəmsə sevə-sevə oxuyuram. Çünki şairin sənətinə dəyər verməyi sevirəm. Bu gün haqqında yazmaq istədiyim dəyərli şairlərdən biri, şeirlərində öz ömründən başqa minlərlə insan ömrü yaşayan Əbülfət Mədətoğludur.**







Əbülfət Mədətoğlunun şeirləri oxucuları üçün bir ömür aynasıdır. Bir şair üçün də bundan gözəl sənət əsəri ola bilməz. Çünki sənətdən söz yaratmaq asandır amma sözdən sənət yaratmaq üçün hər kəs öz işində gərək sənətkar ola... Məhz Əbülfət Mədətoğlu yazıları ilə şairliyin sənətkarıdır. "Ancaq o" adlı yeni kitabını oxuduqca buna daha da əmin oldum və bu kitabı əldə etməyim mənimçün çox sevindirici oldu. Kitabda bir oxucu şairin sevincində öz sevincini, kədərini, yaşamını görə bilirsə, demək ki, ərsəyə gətirdiyi şeirlər öz ampulasında dəsti xəttini tapmışdır.

Türk şairlərinin birindən soruşurlar ki, siz niyə şeirlərinizdə həsr etdiyiniz insanların adlarını qeyd etmirsiniz?...Şair belə cavab verir:

"Mən şeirlərimi nömrəsiz eynəyə bənzədib yazıram, hansı oxucu oxuyarsa hər biri oxuyanda eyni gözlə görə bilsin".

Bəli "Ancaq o" kitabını oxuyub bitirdikdə Əbülfət Mədətoğlunun şeirlərində məhz özünün gördüklərini onun eynəyi ilə mən də görə bildim.Və onunçün də sevə - sevə oxudum bu kitabı. Şairin bu kitabında şeirlərində ruhunun ovçu kimi şikarını ovlamağa hazır olduğu duyulur.Şair ruhu bu imiş demək...Bir ömrü deyil, min ömrü yaşar şair ruhu....

*Elə günüm olmur ki,*
*ölüb-dirilməyim...*
*Möcüzədi vallah*
*hər gün*
*ölməyim,*
*həm dirilməyim.*

Bəli, şeirində də bu gözəl misralarda əks etdirdiyi kimi hər gün digər ömürlər üçün ölüb dirilir şair. Əbulfət Mədətoğlu məhz bu ruhuna görə seçilir şeirləri ilə.

*Xəyalimda nə varsa,*
*Üst-üstə çinləyirəm...*
*Özümlə danışanda*
*Səni də dinləyirəm...*

*İçimdəki sükutun*
*Bağrın yardı pıçıltın...*
*Nəsə düşdü yadına*
*Nə üçünsə hıçqırdın...*

*Çaşdım,yaşadıqlarım*
*Həm gerçəkdi,həm nağıl...*
*Bunlardan baş açmağa_*
*Qoymadın məndə ağıl!...*

**"Həm gerçək,həm nağıl"...Şeirində təsvir etdiyi kimi, şair hər kəsi öz ruhunda dinləməyi, duymağı bacarır. Buna görə oxuduqca bu kitabdakı şeirlər ruhumu oxşadı, qələmini incəliklə şeirlərində muncuq kimi sıralayan Əbulfət Mədətoğlunun ruhu haqqında öz təəsüratlarımı sizlərlə paylaşmağı özümə borc bildim.Bu kitabı sizlərə də oxumağı tövsiyyə edirəm , çünki bir şair hər kəsdən fərqli olduğunu başqalarına hiss elətdirə bilirsə demək o doğrudan da şairdir...**

**Əbülfət Mədətoğlu kimi.**

**Gülnar Ümid**

# SÖZƏ VERİLƏN KÖNÜL

**Masamın üstündə nəşrini gözləyən bir kitabın əlyazmaları var. Doğrusunu deyim ki, o imzanı əvvəldən tanımamışam. Sadəcə olaraq, mənim üçün çox dəyərli olan araşdırmaçı, yazıçı-publisist Vasif Quliyevin təqdim etdiyi əlyazmalarla tanış olanda hiss etdim ki, bu misraların müəllifi könlünü sözə verib, iç dünyasını şeirlə bölüşüb, misralara çevirib. Özü də bunu bacardığı şəkildə, səmimi bir istəklə həyata keçirir. Yazır ki:**

*Payızda qızılı bir don geyinər,*
*Hüsnünə yaraşar yağış da, qar da.*
*Lakin daha gözəl, qəşəng görünər,*
*Mənim doğma yurdum Şuşa baharda.*

*Övlada qayğısı, istəyi birdi,*
*Dağların başında sanki sehrdi.*
*Qəlbləri coşduran şirin şeirdi,*
*Mənim doğma yurdum Şuşa baharda.*

*Ətirli çiçəklər yolumu kəsdi,*
*Xəstəyə bir damla suyu da bəsdi.*
*Ürəklərə axan həzin bir səsdi,*
*Mənim doğma yurdum Şuşa baharda.*



*Gözəl Şuşam, nə gözəlsən, qaytar məni özünə.*

Buradaca xatırladım ki, hələ Şuşalı günlərdə qələmə alınmış bu şeir müəllifin həzin pıçıltısına bənzəyir. Sanki o, üzünü göylərə tutub Şuşanın mənzərəsini, özəllikərini dilə gətirir.

Və yaxud:

*Sinəm dağlı, yolum bağlı,*
*Özüm dərdli Qarabağlı.*
*Bir an ayrı qala bilməz,*
*Şuşam, qəlbim sənə bağlı.*

Fikir verdinizsə, bu şeir artıq Şuşasız günlərin acısını özünə hopdurubdu. Əlyazmalarını vərəqlədikcə diqqətimi bu misralar da çəkir:

*Çəmənlər güllü xəli,*
*İşləyib rəssam əli.*
*Gəzirəm dəli-dəli,*
*Şuşamı axtarıram.*

Ümumiyyətlə, bu əlyazmaların böyük əksəriyyəti yurd nisgili və vətən həsrətinin cizgilərini özündə ifadə edir. Hər bir şeirin damarında mütləq Şuşa, Qarabağ çaları boy göstərir. Məsələn:

*Şən lalələr boya çəkər dodağına, düzünə,*
*Bənövşələr sürmə sürtər qaşına, həm gözünə.*
*Yaz dumanı şeh çiləyər səhər-səhər düzünə,*
*Qurban olum dolamana, cığırına, rizinə.*

Və yaxud başqa bir şeirdə:

*Bu gün vaxtdı, sabahsa gec,*
*Ayılmasam, sonluqdu heç.*
*Zaman yetib, canımdan keç,*
*Yol gözləyir Ana Vətən.*

Bəli, mən Tamella Bəhmənqızının əlyazmaları ilə tanış olarkən bir daha açıq-aşkar gördüklərimə də inandım ki, bir Qarabağsız, Şuşasız sadəcə olara mövcuduq, yaşamırıq. Bu möcduluq biz həmin torpaqlara qayıdanda artıq yaşamağa çevriləcəkdi. Ona görə də indi əlimizi Tanrıya açıb deyirik ki:

*Könlümün kamanı, qəlbimin sazı,*
*Vətən notu üstə etdi pərvazı.*
*Ümidim ürəyə gətirdi yazı,*
*Qoyma həsrətimi həddini aşa,*
*Tanrım, yardım elə, sevinsin Şuşa.*

Buradakı sonuncu misra mənim üçün xüsusilə yaddaqalan oldu. Bu, müəllifin ən səsmimi pıçıltılarından biridi. Söhbət burada təkcə bimiz yox, həm də Şuşanın sevinməyindən gedir.

Bəli, əl içi boyda bir kitabın içərisindəki səmimi pıçıltılar, səmimi ifadələr həqiqətən də maraq doğurur, diqqət çəkir. Düşünürəm ki, Tamilla Bəhmənqızının şəhidlərimizin ruhuna Azərbaycan əsgərinə, yurd nisgilimizə, bütövlükdə yaxından tanıdığı doğmalarına, dostlarına ünvanladığı misralar həqiqətən onun yaşantılarıdı. Və o da bu yaşantıları şeirləşdirib, bütövləşdirib və bütünləşdiribdi. Bu yolda mən Tamilla Bəhmənqızına uğurlar diləyir və demək istəyirəm ki, onun sözə verdiyi könülü inşallah, Şuşada sevinər!

**Əbülfət MƏDƏTOĞLU**

## *Qanunsuz balıq ovlayan şəxslər cəzalandırıldı*



**Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən 12-13 sentyabr 2020-ci il tarixlərində keçirilən növbəti nəzarət tədbirləri zamanı Xəzər dənizinin Qaradağ rayonu və Sumqayıt şəhərinin sahil sularında, İmişli, Saatlı rayonlarının ərazisindəki göllərdə, Baş Mil-Muğan kollektorunda və Pirsaatçay çayında qanunsuz balıq ovlayan şəxslər saxlanılıb. Onlardan istifadəsi qadağan olunan ov alətləri, müxtəlif növ balıqlar götürülüb. Bunu Xidmətin rəisi Hikmət Əlizadə bildirib. O qeyd edib ki, araşdırma zamanı qanun pozucularının Qaradağ rayon sakinləri İmran və Teymur İsayev, Sumqayıt şəhər sakini Əkrəm Əliyev, İmişli rayon sakini Ramal Mirzəyev, Saatlı rayon sakinləri İltizam və Nizamət Məhərrəmov, Asif Yunusov, Samit Nəcəfov, Müslüm Aslanov, Səlimcan Fərəməzov, Fikrət Əliyev və Şamaxı rayon sakini Eyvaz Qənbərov olduğu müəyyən edilib.**

**Faktla bağlı təqsirkarlar barəsində protokol tərtib edilib və onlar ümumilikdə 12 757 manat məbləğində cərimə olunublar.**

## OPEC Azərbaycanda neft hasilatı ilə bağlı proqnozlarını açıqlayıb

**2020-ci ildə OPEC+un neft hasilatının tənzimlənməsi ilə bağlı qərarlarına uyğun olaraq Azərbaycanda maye karbohidrogenlərin hasilatı 0,07 milyon barel/sutka azalaraq ortalama 0,72 milyon barel/sutka təşkil edəcək.**

Bu barədə OPEC-in neft bazarı üzrə aylıq hesabatında bildirilir.

Hesabata əsasən, 2021-ci ildə 0,01 milyon barel/sutka azalma gözlənilir:

"Azərbaycanda maye karbohidrogenlərin hasilatı iyun ayında əvvəlki ayla müqayisədə 0,02 milyon barel/sutka azalaraq orta hesabla 0,68 milyon barel/sutka təşkil edəcək. Bu göstərici, iyul ayında da təxminən eyni səviyyədə qalıb. Avqust ayı üzrə ilkin hasilat göstəriciləri əvvəlki ayla müqayisədə 0,03 milyon barel/sutka artım və orta hesabla 0,7 milyon barel/sutka hasilat nümayiş etdirir".

Qeyd edək ki, Energetika Nazirliyinin məlumatlarına əsasən, 2020-ci ilin avqust ayında kondensatla birgə neft hasilatı 669,1 min barel/sutkaya bərabər olub. Bunun 584,6 min bareli neftin, 84,5 min bareli kondensatın payına düşüb.

**Xam neftin 460,4 min bareli "Azəri-Çıraq-Günəşli" yatağının, 124,2 min bareli SOCAR-ın payına düşüb.**

**Layihənin istiqaməti: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**№ 104 (2138) 15 sentyabr 2020-ci il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# ERMƏNİ HƏYASIZLIĞININ PİK HƏDDİ

**Bu gün baş verən hadisələrin bütün mənzərəsini göz önündə canlandıranda həqiqətən başqa söz tapmaq çətin olur. Çünki tarixi gerçəkliyi, min illərin reallığını görməmək, ona etinasızlıq göstərmək və bununla da kifayətlənməyib həyasızcasına dünya ictimaiyyətinin gözünə kül üfürmək həqiqətən də şərəfsizliyin pik həddidi. Bu mənada düşünmək, danışmaq, fikir söyləmək adamın əsəblərini tarıma çəkir. Ona görə ki, həqiqəti görməyənə, daha doğrusu, onu görmək istəməyənə başa salmaq adamın səbr kasasını daşdırır. Ağı qara görən deməli, doğuşdan şikəstdi. Onun müalicəsi yalnız öz yerində oturtmaq və təkcə sözlə yox, həm silahla başa salmaqdan ibarətdir. Biz 1988-ci ildən başlayan və hələ də böyük dünyanın münaqişə hesab etdiyi bir müharibəyə cəlb olunmuşuq. Özü də bu müharibə soyqırımla, insanların öz yurd-yuvasından köçürülməsi ilə müşahidə edilibdi. Bu barədə fikir söyləyən Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandanımız İlham Əliyev cənabları dəfələrlə vurğulayıb ki, Ermənistan işğalçı dövlət beynəlxalq hüquqa, BMT-nin məlum qərarlarına hörmətsizlik, saygısızlıq göstərir.**

Təbii ki, biz baş verənlərin əvvəlinə üz tutsaq görərik ki, zaman-zaman Azərbaycanın bir parçası olmuş İrəvan xanlığının ərazisində bu gün bir nəfər də olsun torpağın əsl sahibi qalmayıb. Onların hamısı silah gücünə departasiya edilibdi. Özü də bu departasiya insanlara təkcə mənəvi sarsıntı yox, həm də böyük maddi itkilər hesabına nəticələnibdi.

Konkret rəqəmlərə üz tutsaq görərik ki, Ermənistan ərazisindən zorla köçürülmüş insanların bütün maddi sərvətləri, ev əşyalarından tutmuş onlara məxsus heyvanlara, avtomobillərə, bütövlükdə texniki vasitələrə aid nə varsa, hamısı düşmən tərəfindən silah gücünə mənimsənilbdi. Üstəlik, bu insanların həmin dövrdə Ermənistan banklarında olan əmanətləri də düşmən tərəfindən qamarlanıbdı. Bu rəqəmərin Dağlıq Qarabağın azərbaycanlılar yaşayan ərazilərinə, eləcə də işğal olunmuş digər 6 rayonumuzun mənzərəsinə əlavə etsək, onda görərik ki, erməni vandallar azərbaycanlıların alın təri hesabına qazandıqları böyük məbləğdə vəsaitləri talamış, yağmalamışdı.

Əgər həmin ərazilərdə qalan maddi mədəniyyət nümunələrini, mineral yataqlarını, ekoloji sərvətlərimizi, qızıl yataqlarımızı və digərlərini də bura əlavə etsək, onda görərik ki, bu gün düşmən bizə aid olan var-dövlətin hesabına silahlanır və üstəlik də özünü dünyanın ən məzlum və ən əzabkeş xalqı kimi göstərməyə çalışır.

Sözsüz ki, bütün bu baş verənlər təkcə ermənilərin özlərinin gücü deyil, onlar arxalandıqları güclərə söykənərək bu addımları atırlar.



***Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Xarici Siyasət Məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin də vurğuladığı kimi "Ermənilərin atdığı hər bir addım danışıqlar prosesini süni şəkildə uzatmağa və bununla da öz məkrli istəklərini gerçəkləşdirməyə hesablanıbdı. Təəssüf ki, bunu problemin çözümünü öz üzərinə götürmüş Minsk qrupu da, onların aid olduğu böyük dövlətlər də görürlər".***

Təkcə son günlərdə baş verən hadisələrə diqqət yetirsək, onda görərik ki, ermənilər bütün vasitələrdən, bütün məqamlardan istifadə etməkdə, yararlanmaqda nə qədər pərgardırlar.



Onlar hətta faciələrdən fəndgirliklə istifadə edirlər. Beləki, Beyrutda baş vermiş partlayış barədə dünya ictimaiyyəti artıq məlumatlıdı. Hər bir dövlət bu faciə ilə bağlı müəyyən xoş, təsəlliverici addımlar atır. Təəssüf ki, Ermənistan tərəfi yenə də özünü maskalanmış şəkildə ortaya atıbdı. Beynəlxalq qanunlara hörmətsizlik edən Ermənistan Beyrutda zərər çəkmiş və ermənilərin məntiqinə görə sığınacaq ehtiyacı olan Livan ermənilərini Azərbaycanın işğal olunmuş ərazilərinə köçürməyə başlayıblar. Özü də bu tədbiri sülhməramlı bir aksiya kimi dünya mediasına çıxarmağa başlayıblar. Doğrudur, artıq onların iç üzünə bələd olan dövlətlər, ölkələr, insanlar bunun nə qədər çirkin bir oyun olduğunu bəyan etməkdədilər. Azərbaycanın Xarici İşlər Nazirliyi, Azərbaycanın Dağlıq Qarabağ İcması, ölkə rəhbərliyi artıq bunula bağlı artıq bütün beynəlxalq qurumlara müraciətlər ünvanlayıblar. Həmin müraciətlərdə bildirilir ki, ermənilərin bu addımları yolverilməzdir və ən azından Minsk qrupunun həmsədri olan ölkələrə meydan oxumaq və hörmətsizlikdir.

Dağlıq Qarabağ Azərbaycanlıları İcmasının rəhbəri Tural Gəncəliyev öz açıqlamasında bildirib ki, "Ermənistanın təcavüzkar kimi məsuliyyətə cəlb edilməsi bütün səviyyələrdə araşdırılmalı və onların cinayətləri öz həqiqi qiymətini almalıdır.

**Əgər bu ilin may ayında siyasi müstəvidə baş verən bir olaya diqqət yetirsək, onda görərik ki, ermənilər həqiqətən özlərindən daha çox güvəndikləri, arxalandıqları güclərin diqtəsilə hərəkət edirlər. Bu ilin may ayında gündəmə gəlmiş bir məqama diqqət yetirək. Belə ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məsələlərdən danışarkən bildirmişdi ki, guya Dağlıq Qarabağın erməni icması öz təhlükəsizliyini qorumaq üçün Ermənistan ordusundan istifadə edir. Bu, təbii ki, Azərbaycan tərəfindən birmənalı olaraq çox kəskin açıqlamalarla qarşılandı. Hətta Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Tural Gəncəliyev vurğuladı ki, "Mən Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin hüquqi əsaslarla seçilən nümayəndəsi olaraq bildirirəm ki, belə fikirlər tam əhəmiyyətsizdir və işğal faktını örtbasdır etmək məqsədlərinə xidmət edir". Qeyd etmək istəyirəm ki, münaqişə istənilən halda Azərbaycan Respublikasının 11-ci maddəsinə uyğun şəkildə nizamlanacaq. Həmin maddədə isə aydın şəkildə bildirilir ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir".**

Bəli, bu gün Azərbaycan prezidentinin, Heydər Əliyev Fondunun, xüsusilə bu fondun rəhbərlərinin ən yüksək səviyyəli görüşlərdə, xarici səfərlərində və ölkə hüdudlarından kənarda keçirilən bütün tədbirlərdə Xocalı, Qaradağlı soyqırımları, Şuşanın işğalı, bütövlükdə Azərbaycan mədəniyyətinə, tarixinə vurulan zərbələr konkret faktlarla diqqətə təqdim olunmuşdu. Məhz bunun nəticəsidir ki, artıq dünya ölkələrinin bir çoxunda Azərbaycan həqiqətləri birmənalı şəkildə qəbul edilir, Xocalı faciəsi anılır.

Sözsüz ki, bütün bunlar Azərbaycanın apardığı uğurlu xarici siyasətin nəticəsidir.

**Dünyanın indiki durumunda, yəni pandemiyanın tüğyan etdiyi bir məqamda öz çirkin əməllərindən əl çəkməyən Ermənistanın Azərbaycan torpaqlarında qeyri-qanuni məskunlaşma aparması zənnimcə, bizim səbrimizin sonunun gəlib çatdığını göstərməlidir. Biz artıq düşmənlə masa arxasında yox, səngərdə üz-üzə gəlməyə qərar verməliyik. Azərbaycan Prezidentinin də dediyi kimi, xalqımızın səbri hüdudsuz deyil. Onun bir gün daşacağı qaçılmazdır!..**

*Əbülfət MƏDƏTOĞLU*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Heykəlləşən ömür

**Hekayə**



*Gülnaz Qubalı*

***"Olma qane elmdə hər rütbəyə çatsan da,bil,***
***Səyin artdıqca bu yolda,artacaqdır qiymətin"***

"Məni atamın yanında dəfn edib, məzar daşımda bu beyti həkk edərsiniz"-deyərdi,həmişə Salatın xanım.Dilinin əzbəri olmuşdu bu məşhur beyt.Nə bahalı məzar daşı istədi, nə də təmtəraq.Sadəcə olaraq Məhəmməd Fizulinin bir beyt şerini.Hər dəfə bu sözləri eşitdikdə ürəyim səssiz haray çəkir, için-için göz yaşı tökürdü.Vəsiyyəti bu oldu bizlərə.Belə də edəcəyimizə söz verdik, çünki, vəsiyyətə əməl etməmək böyük günahdır.Belə də etdik.

2020-ci ilin ikinci ayının iyirmisi və o müdhiş hadisə.Rəqəmlərin qeyri-adı düzülüşü məni çox cəlb etdi.Ancaq iki rəqəmdən, "ikilər və sıfırlardan" ibarət olan tarix.Bu rəqəmlər görəsən belə düzülüşü ilə bizə nə demək istəyirdi?Nəyi başa salırdı?Müəmma, müəmma.Tarix doğrudan da danışmayan natiqdır və çox sərt hökümləri vardır.İnsan həyatı isə gizli bir boxça."Numeralogiya" elmi adlanan elm və rəqəmlər üzərində qurulan, müxtəlifliyi ilə seçilən, ağ və qara cizgili insan taleləri. Yaradılış qayəsi.Səsimdəki və surətimdəki dərin kədərin bariz nümunəsi. Əvvəl bir cahana, sonra bir elə, sonra bir otağa, daha sonra isə, bir yatağa sığınan və sonda isə köhnə, buz kimi soyuq bir məzarda qərar tutub, əbədi həyata qovuşan ömür.Həyatın yazılmamış qanunu.Nə geci,nə tezi, vaxtında-vədəsində və üzü qibləyə baxan məzar daşları. Yüksək səslə, xüsusi avaz və ahənglə oxunan şərəfli "Yasin" surəsinin ətrafa yayılan sədaları."Torpaqdan əmələ gəlmişik, torpağa da dönəcəyik", "hər nəfəs insanı ölümə yaxınlaşdırır", "hər bir canlı ölümü dadacaqdır"-deyir,-Xüdavəndi aləm.Doğrudan da bu sözlərdə böyük hikmət var. Dünyasını dəyişən insan, artıq şəkillərdə və dillərdə yaşayır. Ürəklərdə məskən salıb yaşayanlar isə, həmişə azlıq təşkil edirlər.

Dahi Fizuli, Şeyx Nizami Gəncəvi, Sədi Şirazi vurğunu, eyni zamanda Həzrəti Əli aşiqi.Salatın xanım elmə, insanlığa bəzək vuran yaradıcılığa, yaradıcı insanlara və ən dəyərli xəzinə olan, heç vaxt köhnəlməyən sözə böyük qiymət verər, yüksək mədəniyyəti ilə, səmimi qəlbdən onları alqışlayardı.Qar dənəciyi kimi zərif, yüksək zövq sahibi, eyni zamanda incə və dərin, qəlbi təbii zənginliklərlə dolu olan bu xanım, qısa və məntiqli söhbətləri ilə bizlərə təkan verər, müvazinət və inam bağışlayaraq, yeni və sanballı əsərlərin yaranmasına vəsilə olardı. Danışarkən səsi axar suyun kiçik dalğalarının səsi kimi xoş gəlirdi insana, elə bil sözün ruhuna sığal çəkə-çəkə danışardı. İncə və aydın nitqi ilə qəlbinin çeşməsindən gələn, ruha sirayət edərək, məni məndən alan ifadə və fikirləri isə ürəyimizin qapılarından çox ehmallıca içəriyə daxil olar, könül dünyamızı oxşayardı.Elə bil bu xanım, insanın qəlbini, daxili aləmini görür, sahib olduğu illərin təcrübələri əsasında çox məharətlə, ən incə detallara vara-vara birbaşa insanın beyninə sirayət etməyi bacarırdı.Həyata real gözlə baxar, heç vaxt şikayət etməzdi, narazılığını isə, elə üzündən, baxışlarından bəlli edərdi.Bəzən də səsində bir kövrəklik duyular, səssizliyə bürünərək gözləri yol çəkər, duyğularına yenik düşərək ağarmış kirpiklərində nəm görünərdu.Bəzən də sözün ecazkar təsirindən sükut içərisində göz yaşlarına hakim ola bilməz, yaş yanaqlarında iz buraxardı.Mənə də ilk qiyməti elə Salatın xanım vermişdi.Böyük bir şövq və əzmlə,-"yazılarını çox bəyəndim,yaz, yarat,- demişdi.Sən gələcəyin yazıçısısan,sadə və şirin yazırsan".

Tam səmimiyyətimlə deyə bilərəm ki, yazdığım yazıların bir çoxu məhəbbətin kökündə dayanan sevgidən yaransa da, məhz elə onun verdiyi yüksək rəylərin nəticəsidir.

Qadın, qadın..."Həyatda qadın qədər maraqlı heç nə yoxdur", "dahilər anası qadın", "qadınlar danışan çiçəklərdir", "yer üzünün bəzəyi qadındır", Allahdan sonra ən qiymətli varlıq qadındır", "qadın möcüzədir", "qadın dünyaya övlad gətirməklə daha yeni bir möcüzə göstərir".

Ta keçmişdən üzü bu yana, "Dünyadakı hər şey məhz qadınlar üçün yaradılıb, şəhərlər salınıb, qalalar, qəsrlər tikilib", "pis qadın yoxdur, pis münasibət var"- deyən və "qadın" sözünü xüsusi vurğu ilə vurğulayan Salatın xanım, öz qəlb aynası ilə qadını, qadınlığı ən yüksək pillədə, ucalarda görər və həmişə barəsində olduqca bəlağətli ifadələrlə fikir yürüdər, dönə-dönə, bizdə qadına hörmət, qiqqət və ehtiram hissini aşılayardı. Ümumiyyətlə mühütünü gözəlliklər əhatələyən bu xanımın evinin iki açarı vardır və olmuşdur;-biri sevgi, o biri isə hörmət. Qadınlardan danışmağı bilavasitə özünə şərəf, borc bilərdi. Mənə də bu barədə yazmağı məsləhət görmüşdü.Və nə yaxşı ki, mən, onun bu arzusunu həyata keçirtdim,-"Fövqəlbəşər qadın" başlığı altında yazdığım bir esse ilə bu canlı əfsanə xanımın görüşünə getdim və onu ürəkdən sevindirdim. O, qulaq asdı, özü də dəfələrlə.

Salatın, sən özün, bu qadınlı, analı dünyamıza möhür vuran, adını yazdıran qadınların ən ilkisən. Həm də, qızıl hərflərlə. Sən ata-anana sevgi dolu övlad olmaqla yanaşı-bu dünyada mənə qalan ən dəyərli xəzinəm, ailəmdir-deyərək, övladların ilə nəfəs aldın. Müqəddəs bildiyin, könül bağı ilə bağlandığın ailənə də, vəfa, sədaqət göstərərək bir ömür boyu birlikdə həyat sürdün. Beləliklə üç xeyirli övlad, altı nəvə və yeddi nəticə sahibi olaraq bir nəsil şəcərəsi yaratdın. Fədakar ana simvolunu özündə əks etdirib, eyni zamanda nüfuz qazanan hörmətli qaynana oldun. Qayğıkeş nənə, canıyanan bacı, ən əsası isə ömrə bəzək verən, ümdə vəzifə olan, bir çoxlarının qazana bilmədiyi, əsl qadın adını qazanaraq çoxusunun idealına çevrilib ürəkləri fəth etdin. Bir niyyət ulduzuna çevrilib qəlblərdə parladın.Tam məsuliyyətimlə deyə bilərəm ki, eyni zamanda güclü, qüdrətli, cəsur qadın xarakterini nümayiş etdirərək, öz zəhmətkeşliyin, öz fərasətin, öz idrakın sayəsində bir "Ailə Allahı"-na çevrilub, xoşbəxtlik xəzinəsinin açarını tapdın və sonadək əlində qoruyub saxlaya bildin.Gözəllik vurğunu oldun, gözəlliklər yaratdın.Yeniliklər yaradaraq novator qadına çevrildin. Bir içim suda belə gözəllik axtarıb tapa bildın. Sağlam ömür, sağlam həyat tərzi, sağlam düşüncə ilə yaşayaraq kamilliyin zirvələrini fəth edib örnək insana çevrildin. Eyni zamanda Allahın sənə bəxş etdiyi gözəlliyini də sonadək qoruyub saxladın. Və "Sizdə yaş qocalığı olsun, üz qocalığı olmasın, üz qocalığı dəhşətdir- deyərək gözəllik təntənəsi ilə dolu olan bu kəlamını bizə də tövsiyə etdin.

Onun gözündə dunyadakı ən yaxşı insan qədirbilən, ən pis insan isə qədirbilməz insan idi. Maraq dairəsi geniş olan bu xanım, son nəfəsinədək insanda müqəddəs hisslər oyadan, ruhu coşduran, insanı hərəkətə gətirən poeziya ilə nəfəs aldı, nəsr oxudu.Kitablar aləminə daldı.Filosof, şair, eyni zamanda ailə dostu Bəxtiyar Vahabzadə hər dəfə, nəşrdən yeni çıxan ilk şerlər kitabını şəxsən özü, məhz elə bu ailəyə təqdim edib.Belə demək olar ki, nəzm, bu xanımın həyatının bir parçası olub. Poeziya vurğunu olan Salatın xanıma, telefonda saatlarla şer oxuduğum vaxtlar, heç yadımdan çıxmaz.Həftənin cümə günləri isə bizim üçün çox əlamətdar poeziya günləri sayılırdı və biz poeziya atmosferi altında, zövqü-səfanın ənginliklərində üzərdik.Başdan-ayağadək şer olan bu xanımın özünə də, bir çox şairlər, şerlər, vəsflər tərənnüm etdilər, mahnılar bəstələdilər, müğənnilər oxudular. Ələkbər Tağıyevin və bir sıra bəstəkarın "Sənin gülüşlərin", "Sən gəlməz oldun", "Qal, sənə qurban", "İstəyirəm görəm səni", "Dinə bilmədim", "Qonşu qız", "Təki, sən səslə məni" və s. adlı mahnılarının cazibə mərkəzi məhz elə Salatın xanımdır. Nəqaratı ölümə söykənən həyat isə bütün bunları yarımçıq qoydu, tarımar etdi.Sən olmasan belə, o şerlər də oxunacaq,o şerlərə yazılan mahnılar da.Sən nəğmələrin qanadlarında qanadlanıb ev-ev, oba-oba dünyanı dolaşacaqsan.Gözlərimizdə bir mavi yuxuya çevrilib yuxularımıza qarışacaqsan. Sən belə yaşayacaqsan, həmişə qəlbimizdə, xəyallarımızda, dualarımızda əbədi olaraq.Atana, qızına qovuşmusan, səndən bəxtəvər qadın varmı?-ən azından bizim gözümüzdə.

Keçmiş zamanda danışmağımın bir səbəbi var.O da, Salatın xanımın, aramızdan saf bir mələyin nurlu qiyafəsinə bürünərək, gözlərimin önündən bir bəyaz mələk kimi uçaraq göylərdə, ruhlar aləmində məskən salmasıdır.Həmin günü gözəgörünmədən lətif bir ruh yüksəlirdi göylərə, təxti-rəvanla.Parlaq nura bürünərək.Ulu və pak göylərə aid olan mələklərin əhatəsində. Zahiri bəlli, batini bilinməyən ayrı bir dünyaya.Yerlə-göy arasındakı müqəddəs ruh sonsuz ərşin sirli qapısından Allah dərgahına daxil olur.Bu da havada cərayan edən insanın Tanrıya dönüşünün son təzahürləri və bütün həyatımıza sirayət edən, ölüm.Göz yaşlarıma sahib ola bilmirəm və elə bu vaxt dodaqlarımda ikicə kəlmə söz titrədi,-çox heyif.Həyat eşqi və sevgi ilə döyünən hərarətli bir ürək anıdən dayandı.Xəyallarımıza belə sığışdıra bilmədiyimiz ölüm gerçəkləşdi.Elə bil, dünya boşaldı birdən-birə.Elə bil, qaynayan həyat səssizliyə gömüldü.Eyni zamanda, bu xanımın fədakarlığı da ağzından son nəfəsi ilə bərabər çıxdı, özü ilə apardı.O gözəlliyi də, o gülüşləri də, o məlahəti də, o qızıl əlləri də.Geriyə həzin xatirələri qaldı, şirin, kövrək anları ilə dopdolu.Səndən yadigar qalan şəkillərinlə təsəlli tapır, özün yaratdığın, hər addım başı insana hava, su kimi lazım olan, müdrük kəlamlarınla səni, yad edirik-"yarpaq qədər ömrümüz var", "insan torpaq xasiyyətli olmalıdır, həm kövrək, həm məhsuldar","iki şeyi itirəndə kədərlənirik, gəncliyimizi və dincliyimizi", "özünü hər gün güzgü önündə imtahan et", "hər bir insanı əməlinə və əməyinə görə qiymətləndirin", özünə hörmət et, özünü sev və qoru", "heç vaxt səsinin tonunu qaldırma", "inandım aldandım, utandım aldandım", "hər ehtimala qarşı", "yüz il yaşa, yüz il öyrən"- deyə-deyə, bu fəlsəfi fikirlərinlə bizi, çətin həyata hazırlaşdırır, yaşamımıza məna qatır və həyat şansı qazandırırdın. Sevdiyin insanlara isə həmişə "gecə qaranlığında qabağına günəş çıxsın", "yanından küləklər belə ötməsin", "səni görüm, dünya durduqca durasan", "neyləyim, necə edim dərdi çəkməyəsən"-deyərək insanlığa bəzək verən, bu behişt ətirli sözlərinlə, dua və diləklər edərdin.Haqqında yazdığım "Fotoportret"inlə sən, ikinci ömrünü yaşayırsan. Səndən qalan xatirələr də əzizdir bizə, o kövrək anlar da.Hara baxırıqsa səni görürük, səni anırıq.

Neyləyim, dərd adamı dilləndirir.Dərdi verən Allah dərmanın da verir, deyirlər.Amma, bu dərdin dərmanı tapılmır.Axtarmağım əbəsdir. Həyatda hər çətinliyə alışmaq, dözmək olur, amma dost itkisinə, dost yoxluğuna heç cürə alışa bilmirsən.Dost həsrəti də çətin, ağır olur, dost sınağı da.Qələmim də çətin yazır bu yerdə.Hərflər bir-birinə qarışır. Kəlmələr dilimdə düyünlənib.Hər dərdi də, hər qələm anlada bilmir axı?! Yəqin, o da mənim kimi, bu dərdin ağırlığına tablaşa bilmir, için-için ağlayır, sızlayır...Bəzən, insan həyatda bir dəfə yox, bir neçə dəfə ölüb-dirilir.Bəzən də, lap qiyamət qopur.Göz görə-görə.Belə vaxtlarda insanı heç nə sevindirə bilmir.Kaş ki, qəlbimin dili olsaydı!Bir çağlayan bulaq kimi özü danışa bilsəydi!Salatın, kaş ki, bu iqtidar əlimdə olsaydı, ömrünə, ömür qata bilsəydim! Kaş ki, dünyanın məhvərini tərsinə çevirib, bu hökmü verən zamanın axarını əllərimlə bərk-bərk tutub saxlaya, həyatı yenidən başlada, o sənli günləri geri qaytara bilsəydim?Kaş ki! Bu bir qəlbin üsyanı deyilmi?Kiçicik bir qəlbə hədsiz hüzün necə sığar?

Dünyanı dəyişəndən üç gün sonra məzarını ziyarət etdim.Hər tərəfi allı-güllü tər qərənfillər ilə bəzədilmişdi.Elə bil üzərinə güllü, ipək parça sərilmişdi.Həzin bir mənzərə açılmışdı gözlərimin qarşısında. Bilirsənmi, bunu, ən çox sevdiyin nəvən etmişdi, Kamran.Ürəyi çırpına-çırpına, öz əlləri ilə, sevə-sevə, oxşaya-oxşaya.Bəlkə, gözlərindən yaş giləleri də axıb məzarına.İlıq, şəffaf.Çünki, sən bütün bunlara layiqsən. Axı, sən gülləri çox sevirsən.Güllərə də çox yaraşırsan.Torpağınla danışdım, səni soruşdum. Susmuşdun.Demək istəyirəm ki, artıq, bahar da gəlib, səni salamlamaq üçün, haçaquyruq qaranquşlar, şən bülbüllər də qayıdıb vətən həsrətli öz nəğmələrilə, havada pərvazlanan rəngli kəpənəklər də.Hətta, armud ağacında yaşayan həmişəki ana ağacdələn də.Bu həyətin daimi, sadiq sakinlərindən, bir ömür boyu qoşa gəzən vəfalı qumru quşları, boz sərçələr, sarıdimdik qaratoyuqlar və mavi göyərçinlər də buradadırlar.Güllərin rəngli dünyası ilə ana təbiət büsat qurub.Havadan da bir torpaq ətri duyulur.Zərif, möcüzəvi, utancaq bənövşələr də qısa ömürləri ilə qarın altından sevinclə həyata boylanıblar.Baxçandakı çox sevdiyin qızılgüllərin də pöhrə atıb.Qırmızı, parıldayan xırda pöhrələr.Hər dəfə bu pöhrələri görəndə üzünə gözəl təbəssüm qonurdu, xəfif və alçaq bir səslə onları sığallayır, oxşayırdın. Hər qızılgül kolu da sənin adını pıçıldayır, Salatın!Əllərinin izləri var bu gül kollarında.Hər ilin bu mövsümünü və nağılvarı bu mənzərəni çox sevərdin və bu anları şəkillərdə əbədiləşdirərdin. Ürəyimdə bir ümüd işığı, təsəlli vardı,-"yerlərimiz, dünyalarımız, aləmlərimiz ayrı olsa da, ruhumuz bir yerdədir və bız, nə vaxtsa görüşəcəyik"- dedim.Dərindən köks ötürüb, ürək ağrıdan acı düşüncələrlə gəldiyim cığırla da geri döndüm.Bu əsnada iri, dolu yağış damlaları çilənirdi göylərdən.Məzarın da islanırdı, üzərindəki güllər də.Buludlar da ağlayır sənin üçün, Salatın, ayrılığına dözə bilmir.

Uyu, uyu, rahat uyu!Torpağın bol, məkanın cənnət olsun!Sən, gur işıq salan bir mayak olmusan, ağlınla, uzaqgörənliyinlə, dəyərli məsləhətlərinlə.Bir Günəş olub zərrələrinlə hərarət, bir hilal ay olub, gecə qaranlığında ətrafına parlaq nur ələyərək, həyat təmirçisi olmusan.Belə insanlar heç vaxt ölmürlər, sadəcə olaraq "bir qədərdən, digər qədərə" tərəf məkan dəyişirlər."Ölmək, ölmək deyil, yer dəyişməkdir",-deyir, dahi Nizami Gəncəvi.İllərin, otağımın divarındakı saatın əqrəbləri kimi qaçdığını nəzərə alsaq və heç nəyə baxmadan, məkanın və zamanın içərisindən bir yol taparaq, səni görə-görə tanıyıb, tanıya-tanıya yazıb, yaza-yaza öyrənmişəm.Hərdən də belə fikirləşirəm ki, sənin yaninda min il, ya da bir dəqiqə olmuşam.Ömür əridən zamanı geri almaq mümkün olmadığı kimi, gedəni də geriyə qaytarmaq təəssüf ki, mümkün deyil. İnsanın yönünü hədəfləyən ölüm və həmişə əmrə müntəzir olan ölüm mələyi Əzrayıl.Ömür qisa, müqəddəs həyat hər şeyi ilə birgə, şirin, yaşamaq isə gözəldir.

Böyük bir nəslin banisi və Şeyx nəslindən olan Salatın xanım doxsan üç il ömür sürdü.Amma, min ilə bərabər.Həyatı dərindən dərk edərək, yaddaqalan, mənadolu, şərəfli bir həyat yaşadı.Ürəklərdə məskən salıb, hafizələrdə həkk olub, dərin izlər buraxdı.Eyni zamanda bu dünyada öz missiyasını yerinə yetirib, həyat sınağından üzü ağ çixaraq, yüksək mövqe tutub, çoxlarına müyəssər olmayan, əlçatmaz arzu olan bir tarix yazdı, tarixə döndü, tarixdə qaldı.Ömrünü daıma yaradıcılığa həsr etdi.Bir dəqiqəsini də boşa keçirtmədi.Eyni zamanda zirvələrə ucaldı, ucaldı.Bir vərəqə, bir mövzuya, bir kitaba sığmayan bu ömür, ağıl, işiqlı gələcəyə inam, möhkəm iradə, yüksək mədəniyyət, əzm, ümid və səbrlə yoğrularaq heykəlləşib daş yaddaşa çevridi. Dilindən çıxan, filosoflara xas, az qala beynimizdə həkk, dilimizdə şüar olan, dırnaq içərisində, böyük hərflərlə yazılacaq və bütün bəşəriyyətə lazım olan bu "beş məşhur kəlməsi" isə, hamımıza örnək, yadigar sözlər və tövsiyəsi oldu- "ağılla dərk elə", "səbrlə icra elə","əsəbiləşməyi özünə təhqir bil", "həyacanlanma" və "tələsmə". "Bismillah"ı isə heç vaxt yaddan çıxartma."Yüz il yaşayarsan".Heyif ki, bu ömür onun özünə qismət olmadı, vaxtsız itirdık bu müdrük xanımı.Ölüm onu bağrına basdı, ağuşuna alıb yerini doldura bilməyəcək qədər bizə, öz dərin təsirini bağışladı.Adı çəkiləndə göz yaşardan bu isim, yaratdığı və bizlərə miras qoyduğu ibrətli kəlamları, yaradıcılığı ilə özünü təsdiqləyib imzasını ataraq, hərtərəfli şəxsiyyətə çevrildi.Hər daim qiymətli olduğunu hiss etdirdi və heç vaxt unudulmayan öz, gen yaddaşını yenilədi.

Salatın, evdar qadın olmana baxmayaraq, səndə cəmləşən, səni təcəssüm etdirən xüsusiyyət və xarekterləri- o kübarlığı, o əsilzadəliyi, o könül zənginliyini, o mənəviyyatı, o daxili yüksək mədəniyyətini başqalarında tapa bilmədiyimiz üçün, hər keçən gün qiymətin bir qədər də artır.Sən keçirtdiyin ömür yolu ilə, başa düşə bilənlər üçün çox dəyərli bir həyat kitabısan.Əyər ömür vəfa etsəydi, yaşasaydın səndən öyrəniləcək çox şey olardı. İnsan var evdən gedər, insan var eldən. Bu xanım eldən getdi.Ömrünün izinə düşərək.Bir çox qəlblərə öz kövrək qəlbi ilə məlhəm, qəmlərinə şərik, qocaman, kökləri çox dərinliklərə gedən, qol-budaqlı bir palıd ağac kimi kölgə, ümüdsüzlük səmasına bir sevgi olaraq.

İlahi, İlahi, Sən, bu xanımın balaca beyninin içərisinə bitib-tükənməyən ağıl və yaradıcılıqı, yumruq boyda ürəyinə dünya boyda istilik və sevgini, bir parça dilinə bal qədər şirinlik və mülayimliyi, Öz gözəlliyindən isə təkrarsız gözəlliyi necə sığışdırmışdın? Düzü, mən bunlara heyranam! Bu bir möcüzə deyilmi?! Salatın xanım, dünyasını dəyişəndən sonra belə, ruhunda bədii həyacanlarını oxşayan bir ahəngdar nəğmə idi... Allah rəhmət eləsin! Amin!

...Göylərdə bir ulduz sayrışır, gur işığı ilə.Bəmbəyaz.Bu, heç vaxt sönməyən, işığı azalmayan Dan ulduzudur.Bu ulduz Salatın xanımın ulduzudur, həmişə də belə parlayacaq! Öz bəxti və siması kimi!

***Aylar keçir, illər keçir, axın olur,***
***Yadlar gəlir, doğma olur, yaxın olur.***
***Məhəbbətlə ötən ömür nağıl olur,***
***Ey həyat sən nə qəribəsən?***

Cabir Novruzun sinəsindən qopan, bu bir beyt şerdə böyük həqiqət var.Bu il, bu xanımla görüşümüzün düz otuz beş ili tamam oldu.Ölüm yollarımızı ayırdı.Beləliklə, bu qəribə həyatda həyat yolçuluğumuz da burada başa çatdı.Biz isə, beləcə məzara qədər olan bu dostluqda səmimi bağları olan "mükəmməl yad"lar olaraq qaldıq...Əyər səlahiyyətim çatsaydı, həyatı öz zərif çiyinlərində daşıyan, özünü fəth edərək həyat zəfəri çalan, bu lider xanımın şərəfinə-ömrünün çox hissəsinin düşdüyü keçən yüzilliyi, onun yaşadığı dövrü, heç tərəddüd etmədən, heç düşünmədən belə "Salatın əsri" adlandırardım. Və qorxurdum ki, real hadisələr üzərində qurduğum bu yazını yazmaqda gecikəm, çünki, vaxt və zaman gecikənləri bağışlamır.

# "Allah dedi, burunları da tikilməlidir"

***"Bugünkü gəncləri artıq proqramlaşdırıblar. Bəzi kanallar, kanalların verilişləri zamanında onları proqramlaşdırıb. Şükürlər olsun ki, indi yavaş-yavaş təmizlənir. Mən təşəkkürümü bildirirəm televiziya kanallarının rəhbərlərinə. Bu gün bayağı musiqilərə yalnız sosial şəbəkələrdə rast gəlinə bilər". "Ədalət" qəzetinin qonağı Əməkdar artist Elza Seyidcahandır.***

**R.Tahir: "Çox sağolun ki, dəvətimizi qəbul etdiniz"...**

**E. Seyidcahan:** "Mənim üçün şərəfdir ki, bu gün bu qəzetin qonağıyam. Çünki hər zaman qəlbimdə bir şüar olub: "Ədalət, ədalətli olmaq". "Ədalət" kəliməsi dilimizdə yox, qəlbimizdə olsun. Mən buraya mətbəə deyirəm, çünki yazılarının hərəsi bir tarixdir. Burada hər zaman haqqımda gözəl yazılar çap olunub".

**R. Tahir: "Elza xanım, bayağı musiqilərdən söhbət açaq. Hansılardır, o bayağı ifalar?"**

**E. Seyidcahan:** "Belə bir nümunə çəkəcəm, adətən deyirlər ki, filankəs yaxşı uşaqdır, siqaret çəkmir, araq içmir, narkoman deyil, ağıllıdır, mahnısını oxuyub pul qazanır. Mən isə cavabında söyləyirəm ki, dediyiniz şəxs o işlərlə məşğul olmursa belə, mənə görə, ən böyük narkotiki incəsənətimizin damarına o, zıplayır. Ki, dahilərimizin əsərləri, yaradıcılığı məhv olsun. Bəzi şəxslər bizə əmanət qalmış incəsənəti zəhərləyirlər. Gənclərin beyni ağdır. O vaxt biz də musiqi məktəbində təhsil alanda Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Arif Məlikovun və başqalarının əsərlərini dinləmirdik. Biz də istəyirdik ki, bayağı musiqilər dinləyək. Hardansa gizlincə kasetlər tapıb qulaq asırdıq, amma təhsil ocaqlarında məcburən bizə həmin əsərləri dinlədib maarifləndirirdilər. İllər keçdikcə həmin əsərləri sevdik və indi bayağı mahnılar eşidəndə ürəyimiz bulanır. Buna görə valideynlərimə və müəllimlərimə təşəkkür edirəm".

**E. Akif: "Sizi hər zaman bayağı mahnıları tənqid edən görmüşük"...**

**E. Seyidcahan:** "Mən hansısa şəxslərdən danışmamışam, musiqimizdə baş verən təlatümlərə qarşı cavab vermişəm. Yadımda olmur ki, kimlər nə oxuyur. Maraqlanmıram, çünki onları dinləmirəm. Aydın məsələdir ki, Elza Seyidcahanın dinlədiyi musiqilər hansı musiqilərdir. Məcbur oluruq, ad çəkirik ki, nəticə çıxarsınlar. Əslində mən heç vaxt istəmirəm, kiməsə qarşı söz deyim. Əksinə mənə zənglər olur ki, adımızı çəkin, üstümüzə su atın, şəklimizi cırın, kobud söz deyin, gündəmə gələk. Deyirlər ki, sizin tənqidiniz belə bizim üçün böyük reklamdır. Tənqiddən nəticə çıxarmaq lazımdır. Elə insanlar var ki, tənqidi qəbul etmirlər. Mən deyərdim ki, onların bəsirət gözləri bağlıdır. Tənqidsiz insan inkişaf edə bilməz".

**E. Akif: "Zövqlərin korlanmasında kimləri günahkar sayırsınız?"**

**E. Seyidcahan:** "Gənclərdə günah görmürəm. Bugünkü gəncləri artıq proqramlaşdırıblar. Bəzi kanallar, kanalların verilişləri zamanında onları proqramlaşdırıb. Şükürlər olsun ki, indi yavaş-yavaş təmizlənir. Mən təşəkkürümü bildirirəm televiziya kanallarının rəhbərlərinə. Bu gün bayağı musiqilərə yalnız sosial şəbəkələrdə rast gəlinə bilər. O musiqilərdə ağıl yox, ayaq ritmi var. Hansı bayağı müğənninin adını çəkim ki? Ad çəksəm, gərək sabaha qədər burada danışım. Arifə bir kəlimə işarədir. 6-7 aydır, evdə oturmuşdum, bir az qanımı şəffaflaşdırmışdım, sən bu gün mənim qanımı çirkləndirməyi özünə elə bil söz vermisən. Səni tərpətmədi bu karona ağa? Hə? (Bir neçə müğənninin adını çəkib soruşarkən qəzəblənib belə cavab verir)"

**R. Tahir: "Elza xanım, müsahibəyə başlamazdan öncə danışdığınız o möcüzəli yuxulardan bir az da söhbət açaq"...**

**E. Seyidcahan:** "Yuxulardan söhbət açarkən deyim ki, həyatımda yuxularla bağlı möcüzələrlə rastlaşmışam. Telfonumda bir səs yazısını dinlədə bilərəm. Rayonlardan birində Kəlbəcərli bir kişi məni yuxusunda görüb və səhər ondan 100 kilo bal alıblar. Həmin kişi məni axtarıb tapıb, zəng edib dedi ki, sizi yuxuda görmüşəm. Yuxudan sonra xeyir əldə etdiyim üçün sizə hər mövsüm bal göndərəcəm. (Kişi ilə danışarkən



qeyd etdiyi həmin səs yazısını bizə dinlədir)"

**R. Tahir: ""Tikim sizin ağzınızı". Elza xanım bu cümləni kimlərə ünvanlayıb?"**

**E. Seyidacahan:** "Bağda anamın yanında idim. Bir də gördüm, telefonuma zəng edib deyirlər ki, sosial şəbəkələrdə səni tənqid edirlər. Nə deyə bilərsiniz? Birdən ağlıma bu şeir gəldi.

Uşaq vaxtı həmişə bizə deyirdilər ki, kim çox danışır, onun ağzı tikilməlidir ki, sakit qalsın. Mən də şeirlə cavab verdim:

***"Tikim sizin ağzınızı qırxayaq kimi,***
***Dartım, sıxım sapınızı barama kimi,***
***Mən onlara nə edim ki?"***

Bu sualla öz-özümə dedim. Bu cümlələrdən sonra böyük şeir yarandı:

*"Tikin, tikin, tikin məni divarlara,*
*Hörük olum, dəlik olum qaranlıqdan baxanlara,*
*İşıq olum, uçanlara səmalarda qanad olum,*
*Selik olum ağızlardan baxanlara,*
*Tikim, tikim məbəd olum..."*

Mən deyirdim, tikim sizin ağzınızı, amma Allah dedi ki, ağız azdır, Elza, burunları da tikilməlidir. İndi o insanlara söyləyirəm, bax burnunuzu da tikmisiniz. Hərdən kiməsə deyirəm, burnunu aç. Söyləyir ki, xeyr, xəstəlik var. Daha həmin insan demir ki, xəstəlik onun içindədir, ən böyü virus onun içindədir".

**E. Akif: "Cəmiyyət sizin şeirlərinizi niyə qəbul etmir?"**

**E. Seyidcahan:** "Cəmiyyət qəbul edir, etməsə, müzakirələr olmaz, böyük videolar çəkilməz. Özündən deyən ailənin xanımları mənim obrazlarımdakı paltarlardan geyinirlər. Hətta mənim kimi də qrim edirlər. Deyək ki, kimsə mənim şeirimə gülüş obyekti kimi baxır. Bunun özü də yaxşı bir haldır. Mən istəyərəm, kiməsə gülüm. Amma gülə bilmirəm, ağlayıram, için-için ağlayıram. Deyirəm, bunun axırı hara gedib çıxacaq? İnsanlar var ki, onların gününə ağlayırsan. Valideynlər var ki, övladları ilə bacara bilmirlər. Bilirsiniz, iki cür gülmək var. Biri var, bilirsən ki, nəyə gülürsən, biri də var, bilmirsən, nəyə gülürsən".

**E. Akif: "Qarğış dolu şeirlərinizə də rast gəlinir yaradıcılığınızda"...**

**E. Seyidacahan:** "Yaradıcılığımda qarğışı alqışa çevirən birisiyəm. Mənim "Canları çıxsın", "Ölün" kimi şeirlərim var. "Ölün" şeirimdə baxın, görün, necə "ölün" deyirəm?! Yaxud da "Canları çıxsın"da görün, necə səsləndirirəm?"

**R. Tahir: "Bu yaxınlarda İspaniyanın Barselona şəhərində bitkilərə konsert verildi. Bütün mətbuat bu haqda danışdı. Bəlli ki, siz də belə addımlar atmısınız"...**

**E. Seyidcahan:** "2009-cu ildə heyvanların qorunması üçün konsert keçiriləndə çox insan güldü. Karantindən sonra bitkilərə konsert verdilər və sonda da o çiçəkləri həkimlərə payladılar.

Dünyanın bütün xəbərlərində təriflə bitkiyə konsert verilməsindən yazdılar. Bəs zamanında "Elzanın yaşıl dünyası" konserti baş tutanda deyirdiniz, Elza ağaca konsert verdi. İndi noldu? Haqqımda nələrsə söyləyəndə xəcalət çəkmirsiniz ki, xalqınızın zəhmətkeş qadınına qarşı haqsızlıq edirsiniz? Mən oxucuları, izləyiciləri qınamıram, mən mətbuat və televiziya işçilərini qınayıram. İnciməyin sözümdən, onların bəziləri savadsızdır. Bəziləri təsadüfən jurnalistikaya gəlib. Bizim elə jurnalistlərimiz var ki, Azərbaycan dilində sərbəst danışa bilmirlər, ləhcə ilə danışırlar. Belə olan halda hansı Elza yaradıcılığından danışa bilərlər? Odur ki, artıq şərhə ehtiyac yoxdur".

**Rövşən Tahir,**
**Eminquey Akif**

### *Təbrik*

*Yerişinə qurban olum mən sənin,*
*Duruşuna qurban olum mən sənin,*
*Gülüşünə qurban olum mən sənin.*
*Dəcəl balam şirin sözlüm, Yusifim.*
*Qara gözlüm, gülər üzlüm, Yusifim.*

*Körpə balam, səndən doymaz ürəyim.*
*Sənsən mənim ən xoş arzum, diləyim,*
*Uca Tanrım olsun, sənin köməyin.*
*Babasının bir dənəsi, Yusifim.*
*Nənəsinin nur danəsi, Yusifim.*



**Bu balaca kişinin babaları - Yusif, Fərhad, nənəsi - Zəminə, atası - Səbuhi, anası - Ləman, dayısı - Sübhan və qohumları ürəkdən təbrik edir, ona can sağlığı arzulayırlar.**

## *Ramin Musayev yenidən PFL prezidenti seçildi*



**Dünən AFFA-nın inzibati binasında Peşəkar Futbol Liqasının prezidenti vəzifəsinə növbəti seçki keçirilib.**

Qol.az xəbər verir ki, seçkidə AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov, PFL prezidenti Ramin Musayev və klub nümayəndələri iştirak ediblər. Tədbirdə "Qarabağ"ı direktor Emrah Çelikel, "Neftçi" və "Qəbələ"ni müvafiq olaraq prezidentlər Kamran Quliyev və Fariz Nəcəfov, "Keşlə" və "Sabah"ı baş menecerlər Eldəniz Yusubov və Nəsimi Musayev, "Zirə" və "Səbail"i icraçı direktorlar Cahangir Məmmədov və Fərəc Əliyev təmsil ediblər. "Sumqayıt"ı təmsil etməli olan nümayəndə tədbirdə iştirak edə bilməsə də, rəsmi məktubla seçimini indiki prezidentin lehinə edib.

Nəticələrə əsasən Peşəkar Futbol Liqasının hazırki prezidenti Ramin Musayev növbəti 4 ildə də eyni vəzifədə fəaliyyət göstərəcək. Klub nümayəndələri yekdilliklə Ramin Musayevin yenidən seçilməsinin lehinə səs veriblər.

Qeyd edək ki, Ramin Musayev PFL yaranandan - 2008-ci ildən bəri prezident səlahiyyətlərini icra edir.

## *Neymar 7 oyunluq cəzalandırıla bilər*

**Fransa Liqasının 3-cü turunun "Marsel"lə matçında (0:1) qırmızı vərəqə alan PSJ-nin futbolçusu Neymar ağır cəzalandırıla bilər.**

Qol.az xəbər verir ki, "Marsel"in müdafiəçisi Alvaro Qonsalesi başından yumruqla vuran braziliyalı hücumçuya 7 oyuna qədər cəza verilə bilər.

Xatırladaq ki, Neymar oyundan sonra verdiyi açıqlamada Qonsalesi ona "çirkin meymun" dediyinə görə vurduğunu bildirib.

## *"Qalatasaray"dan yeni transfer*



**"Neftçi"nin UEFA Avropa Liqasının 2-ci təsnifat mərhələsindəki rəqibi "Qalatasaray" heyətini yeni futbolçu ilə gücləndirir.**

Qol.az xəbər verir ki, İstanbul təmsilçisi "Sportinq"in 22 yaşlı futbolçusu İdrissa Dumbiya ilə razılaşıb. Superliqa klubunun bu keçid üçün həm Lissabon təmsilçisi, həm də kot d ivuarlı yarımmüdafiəçinin özü ilə anlaşdığı bildirilib.

Qeyd edək ki, 17 sentyabr Bakı Olimpiya Stadionunda keçiriləcək "Neftçi" - "Qalatasaray" görüşü saat 20:00-da başlayacaq.


Daşınmaz Əmlakın Dövlət Reystr xidmətinin Lənkəran rayon Ərazi idarəsi tərəfindən Viyən kənd sakini Cəfərova İradə Xudabaqış qızına məxsus torpaq sahəsinə verilmiş Çıxarışı (Seriya RX N1415460 reystr nömrəsi 802013047512 qeydiyyat nömrəsi 2218012002 qeydiyyat tarixi 08.11.2018) itdiyi üçün etribarsız sayılsın.

***

Lənkəran rayonu Cil kənd sakini Tağıyev Əfsələddin Xaqani (Xəqani) oğluna 28 aprel 1998-ci il tarixli 14 saylı qərarla torpağın mülkiyyətə verilməsinə dair Şahadətnamə (JN-234A kod 80224028) itdiyi üçün etibarsız sayılsın.

***

Yusifli Fərid Bəxtiyar oğlunun adına Bakı şəhər, Rüstəm Əliyev adına 3 nömrəli tam orta məktəb tərəfindən verilmiş 019721 saylı Attestat itdiyi üçün etibarsız sayılır.

***

Lənkəran rayonu Separadi kənd sakini Əsədullayeva Şəhla Həmzə qızıəna 16 may 1998-ci il tarixində 9 saylı qərar ilə verilmiş torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı (JN-340 kod 80220018) itdiyi üçün etibarsız sayılsın.

***

Daşınmaz Əmlakın Dövlət Reystr xidmətinin Lənkəran rayon Ərazi idarəsi tərəfindən Məmmədov Haşım Məmmədhüseyn oğluna torpağın mülkiyyət hüququnu təsdiq edən Dövlət reystrindən Çıxarış sənədi (seriya RX 1371386 Reystr nömrəsi 802013076163-10301,qeydiyyat nömrəsi 2218008551,qeydiyyat tarixi 28.08.2018) itdiyi üçün etibarsız sayılsın.


Aqil Abbas və "Ədalət" qəzetinin kollektivi **Əntiqə Rəşidə** xalası oğlu

**ZAKİRİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## *Elxan Məmmədovdan "Qarabağ" açıqlaması*

**AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov Çempionlar Liqasının 3-ci təsnifat mərhələsində keçiriləcək "Qarabağ" - "Molde" oyununun yerinin dəyişdirilməsinə münasibət bildirib.**



Qol.az xəbər verir ki, qurum rəsmisi bununla bağlı deyib: "AFFA-UEFA-ya müraciət etdi ki, çalışın istisna halları tətbiq edin. Təəssüflər olsun ki, olmadı. Biz UEFA-yla danışanda onlara dedik ki, onsuz da "Qarabağ" futbol klubu 30 ildir doğma meydandan kənarda oynayır. Bunu nəzərə alaraq, istisna tətbiq etməyəndə "Qarabağ"ımızı daha uzağa salırsınız."Qarabağ" klubu qərar qəbul etdi ki, oyun Kiprdə keçirilsin. Rəqib komanda Macarıstan və Yunanıstanı da təklif etmişdi".

Qeyd edək ki, püşkə əsasən, matç Bakıda keçirilməli idi. Lakin "Molde" klubu Bakıdan dönüşdə Norveçdə 10 günlük karantinə alınacağını bildirərək qarşılaşmanın neytral meydanda oynanılmasını xahiş etmişdi. UEFA bu müraciəti təmin edərək görüşün sentyabrın 16-da Kiprdə keçirilməsinə qərar verib.

## *"Yuventus" hücumçu axtarır*



**"Yuventus" transfer pəncərəsi bağlanmazdan əvvəl heyətinə yeni futbolçu cəlb etmək istəyir.**

Qol.az xəbər verir ki, yeni baş məşqçi Andrea Pirlo komandasının bir hücumçuya ehtiyacı olduğunu düşünür. Ancaq Turin təmsilçisi buna görə tələsmək istəmir. Çünki transfer pəncərəsini oktyabrın 4-ü bağlanır.

Qeyd olunub ki, Qonzalo İquain "Yuventus"dan ayrıldıqdan sonra klub Edin Ceko, Arkadiusz Milik, Olivye Juri və Luis Suaresi transfer etmək cəhdi uğursuz olub.

# "İdman xəstəliklərin əlacıdır"

## "Dəyirmi masa"da müzakirə olundu

***"Sağlam bədəndə sağlam ruh olar" deyiblər atalarımız. Mövzumuz "İdman"dır. İdmandan danışacağıq "Dəyirmi masa"da. İdmanın nə kimi əhəmiyyəti var? Karantin dövründə idmanda nələri itirdik? Varmı, alternativ ki, itirilənləri bərpa edək? Qonaqlarımız Powelifting üzrə 3 qat dünya çempionu, fitness üzrə məşqçi Ceyhun Vəliyev, tanınmış idmançı, məşhur məşqçi Kamil Zeynallı və peşəkar məşqçi Xəqani Səlimovdur.***

**-İdman insan həyatında nə dərəcə əhəmiyyətlidir?**

**K. Zeynallı:** "İdman insan həyatının önəmli bir hissəsidir. Bunu idmanla məşğul olanlar çox gözəl bilər. İdmanla məşğul olmayanlar bunu bilməz. İdman insanı stressdən çıxarır, insanın əsəblərini qoruyur, sağlamlığını təmin edir, bədən formalaşdırır. İdman hər bir şeydir, həm gözəllikdir, həm mədəniyyətdir. Ona görə deyirəm ki, idman insanın həyatında böyük əhəmiyyət kəsb edir. Əgər kimsə idmanla hər gün məşğul olursa, həmin insan idmanın insan həyatında necə vacib rol olduğunu anlayır. İdman çox problemlərin və xəstəliklərin əlacıdır".

**C. Vəliyev:** "İdmanın insanın həyatında yerini və rolunu karantin dövründə daha yaxşı başa düşdük. Çünki idmana həmişə arıqlamaq, kökəlmək və ya formada qalmaq üçün gedirdik, amma indi bilirik ki, idman həm də stress atma vasitəsidir. Məşqə başlayanda və idman edərkən gün ərzində olan bütün əsəb, stressdən azad olduğumuzu görürük".

**X. Səlimov:** "İdman insan həyatında önəmlidir. Ən azından bunu uşaqlıqdan bilirik ki, sağlam bədəndə sağlam ruh olar. İdman sağlamlıqdır. Bu cümlələri məktəbdə tez-tez eşidirdik. Odur ki, uşaqlıqdan anlayırıq ki, idman sağlamlıq üçün çox önəmli faktordur. Sağlam yaşamaq üçün idman etmək lazımdır. İnsan imunitetinin güclü olması üçün idmanla məşğul olmaq lazımdır".

**-Karantin dövrüdür, bəlli ki, idman zalları bağlıdır. Açıq havada məşqlər istənilən nəticəni verirmi?**



**C. Vəliyev:** "Düşünürəm ki, hər nə qədər də çöldə məşq etsək də, idman zalındakı o effekti ala bilmirik. Həmin effekti almaq üçün ilk növbədə motivasiya lazımdır. Bu motivasiya isə idman zalında daha çox yaranır. Nə qədər də parkda məşq etsək belə, idman zalının yerini heç nə verə bilməz. Bilirik ki, idman zalları bağlıdır. Amma hərəkətsiz qalmaq düzgün deyil. Odur ki, onlayn məşqlərlə ev şəraitində və ya çöldə idman etməliyik. 7 aydır ki, davam edən karantin əziyyətimizin hədər olması deməkdir. Elə tələbələr var ki, onlar formada idilər və idman etmədikləri üçün o formanı itiriblər. Hansısa məşq edən insan müəyyən qədər arıqlayıb formaya düşmüşdü, amma idman etmədiyi üçün o çəkini yenidən qazanıb. Arıqlama prosesi nə qədər tez baş verirsə, kökəlmə bir o qədər də, hətta ondan sürətli baş verir. Bir neçə aydır, insanların hərəkətsiz qalması onlarda kökəlməyə gətirib çıxarıb. Karantinin verdiyi fəsadları 6-7 ay ərzində güclə aradan qaldırmaq olar".

**K. Zeynallı:** "Bəli, idman zalları bağlıdır. Hələ ki, hava şəraiti imkan verir ki, çöldə məşq edilsin. Bundan faydalanmaq lazımdır. Açıq havada idman daha sağlamlıqdır. Düzdür, zallarda da məşq faydalıdır, amma oksigen baxımından açıq hava daha yaxşıdır. Təmiz havada idman etməyin xeyri xeyli çoxdur. Belə ki, bu halda insanın ağciyərləri genişlənir və nəfəs almaq rahatlaşır. Özüm 4 aydır ki, Qəbələyə köçmüşəm. Artıq 4 aydır ki, açıq havada məşq edirəm və özümü daha gümrah hiss edirəm".

**X. Səlimov:** "Zalların bağlı olması biz idmançıları formada qalmaq üçün alternativ yollarla idman etməyə sövq edir. Bunlardan biri də açıq havada idman məşqləridir. Düzdür, bu zalda edilən məşqin yerini vermir. Amma yenə də məşqləri dayandırmaq olmaz. Karantin vaxtı idman etməyənlər təbii ki, nələrisə itirdi. Bəziləri əzələ kütləsini itirdi, bəziləri isə kilo aldılar. Onu da deyim ki, karantin dövründə bədən quruluşunda müəyyən fəsadlar əmələ gələn insanlar bunu bərpa edə biləcəklər. Onun üçünsə böyük zəhmət tələb olunur".

**-Qidalanmalardan danışaq, istərdim...**

**K. Zeynallı:** "İdman zamanı qidalanma mütləqdir. Əsas elə qidalanmaqdır. Əgər sən idman edirsənsə, kalori itirirsənsə, enerji sərf edirsənsə, bunları yenidən bərpa etmək lazımdır. Təbii ki, düzgün formada. Buna görə də qidalanmaya fikir vermək lazımdır. Əgər sən idman edib qidalanmaya fikir vermirsənsə, heç bir nəticə əldə edə bilməzsən. Nümunə üçün deyim, arıqlanmağın 70 faizi düzgün pəhrizdir, 30 faizi isə idman. Düzgün qidalanma vacibdir".

**X. Səlimov:** "İdmançıların və idman edənlərin qidaları digərlərindən fərqli olmalıdır. İdmançılar qidaya xüsusi diqqət yetirməlidirlər.

Əzələ yığmaq istəyən hansısa bir idmançı heç bir halda aclıq hissi keçirməməlidir. O, bir saatdan bir qidalanmalıdır və karbohidrat və zülalla zəngin qidalar qəbul etməlidir. Qidasız heç bir idmançı istədiyi nəticəni əldə edə bilməz".

**C. Vəliyev:** "İdmançıların qidalanmasına insanlar çox zaman qeyri-adi yanaşırlar. Düşünürlər ki, idmançılar özlərinə əziyyət verirlər. İnsanlarda belə bir fikir var:

"5 günlük dünyadır və nə gəldisə, yeyib kef etmək lazımdır". Bu düzgün yanaşma deyil. 40-50 yaşından sonra insanlarda hansısa xəstəliklər ortaya çıxırsa, düngün qidalanmamağın nəticəsidir.

Odur ki, qidalanmaya diqqət etmək lazımdır".

**Rövşən Tahir**


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 22
Çapa imzalanmışdır: 14.09.2020